جَلَّ جَلَالُهُ

Allahın gözəl adlarının müxtəsər anlayışı

Müəllif:
Abdurrazzaq bin
Abdulmuhsin əl-Bədr

Tərcüməçi:
Sahib Xasayev

Mərhəmətli və Rəhmli Allahın adı ilə!

Müqəddimə

Həmd, böyük və Uca olan, cəlal, əzəmət və gözəllik sahibi Allaha məxsusdur. Ən gözəl adlar və ən uca sifətlər, ucalıq və kamillik Ona məxsusdur. Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Və şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir. Allahın ona, ailəsinə və bütün səhabələrinə salavatı və salamı olsun.

Bundan sonra:

Həqiqətən, Allahın ən gözəl adlarını öyrənmək və onların mənalarını dərindən dərk etmək, elmin şərəfli sahələrindən biridir. Hətta bu, ən böyük fiqhdir (əqidədir). Bu elm dinin üzərində qurulduğu əsasdır. Buna görə də Qurani-Kərimdə bu əsası möhkəmləndirən dəlillər çoxsaylıdır. Belə ki, Quran ayələrinin demək olar ki, heç biri Allahın gözəl adlarından və uca sifətlərindən bəhs etmədən keçmir. Bu isə göstərir ki, bu şərəfli elmin əhəmiyyəti və məqamı olduqca böyükdür, onun xeyirləri və faydaları çoxdur. Həmçinin göstərir ki, Allahın adlarını və sifətlərini bilmək imanın əsaslarından, dinin rüknlərindən və İslam dininin

təməllərindən biridir. Dinin uca məqamları və yüksək mərtəbələri məhz bu əsas üzərində qurulub. Bəşəriyyətin vəziyyəti, onları yaradan, yoxdan var edən, xəlq edən və ruziləndirən Rəbblərini tanımadan necə düzələ bilər ? Onlar Allahın ən gözəl adlarını, ən uca sifətlərini və Onun kamilliyinə, cəlalına və əzəmətinə dəlalət edən kamil xüsusiyyətlərini bilmədən necə doğru yola gələ bilərlər? Həmçinin, Onun həqiqətən ibadətə layiq məbud olduğunu və Ondan başqa ibadətə layiq heç bir məbudun olmadığını bilmədən necə islah ola bilərlər? Lakin insanların çoxunu özləri üçün yaradılan şeylər, əslində nəyə görə yaradıldıqlarından yayındırmışdır.

Bəndələrin öz Rəbbini, Xaliqini, Məlikini, işlərini idarə edən və ruzilərini müəyyən edən Rəbbi tanımağa olan ehtiyacından daha böyük bir ehtiyacları yoxdur. O Rəbb ki, onlar bir göz qırpımı qədər belə Ondan ehtiyacsız qala bilməzlər. Onların islahı və paklığı yalnız Onu tanımaq, Ona ibadət etmək və yalnız Ona iman gətirməklə mümkündür.

Buna görə də bəndənin salehliyə çatmaqda və tərifə layiq görülməkdə olan payı, onun Uca Rəbbini tanımasına və Onun razı olduğu, Ona

yaxınlaşdıran doğru sözlər və saleh əməllər etməsinə görə olur.

Allah mənə bu şərəfli işdə **"Fıkhul-Əsməil-Husnə" (Allahın Gözəl Adlarının Fiqhi)** adlı bir əsəri toplamağı asanlaşdirdı. Orada Allahın gözəl adlarından yüzdən çoxunu şərh etdim və ondan əvvəl bu mövzunun qavranılması üçün metodoloji (elmi-nəzəri) müqəddimələr verdim. Kitabı hazırlayarkən aydın sözlər və sadə üslubdan istifadə etməyə çalışdım. Allahın Kitabından və Peyğəmbərin (sallallahu əleyhi və səlləm) sünnəsindən şahidlər və dəlillər gətirməyə xüsusi diqqət yetirdim. Həmçinin, Allahın adlarına iman etməyin gətirdiyi bəzi ibadət tərəflərini və imani səmərələri də imkan daxilində izah etdim. Bu işdə köklü elm sahiblərinin, xüsusən də Şeyxulisləm İbn Teymiyyə, onun tələbəsi Alləmə İbn əl-Qeyyim və Şeyx Abdurrahmən əs-Sədi (Allah hamısına rəhmət etsin) kimi alimlərin elmi araşdırmalarından çox bəhrələndim. Allahın lütfü ilə bu kitab orta həcmdə bir cild halında bir neçə dəfə çap olundu. Sonradan bəzi fəzilətli şəxslər, oxunması, çap edilməsi, yayılması və tərcümə olunması asan olsun deyə, bu kitabın kiçik bir risalə şəklində müxtəsər olunmasını xahiş etdilər.

Bu istəyə cavab olaraq, həmin müxtəsər (orta həcmli) variant hazırlandı. Burada adların şərhi qısa tutuldu, hər ad üçün əsasən bir və ya iki dəlillə kifayətlənildi. Eləcə də bu adların bir qismində onların iman və ibadətlə bağlı bəzi təsirlərinə işarə etdim.

Uca və Kərəm sahibi olan Allahdan diləyirəm ki, bu müxtəsər əsəri bərəkətli etsin, onunla fayda versin, onun ixtisar edilməsinə vəsilə olanları, hazırlanmasında, yayılmasında və ya tərcüməsində əməyi keçənləri ən xeyirli mükafatlarla mükafatlandırsın.

Müvəffəqiyyət yalnız Allahın əlindədir, Onun heç bir şəriki yoxdur. Allahın qulu və elçisi olan Peyğəmbərimiz Məhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salatı və salamı olsun.

Müəllif : Abdurrazzaq ibn Abdulmuhsin əl-Bədr

Peyğəmbər şəhəri (Mədinə), Aşura günü, 1431-ci hicri ili.

Allah (الله)

Bu ad, Allahın gözəl adlarından ən uca olanıdır. Qurani-Kərimdə ən çox zikr edilən addır. Belə ki, bu ad Qurani-Kərimdə 2200-dən çox yerdə sadalanmışdır və bu, başqa heç bir adda baş verməmişdir. Uca Allah Qurani-Kərimdə 33 ayənin açılışını məhz bu adla etmişdir.

Bir qrup elm əhli qeyd etmişdir ki, bu ad, Allahın Ən böyük adıdır hansı ki, o adla dua edildikdə qəbul olunar, bir şey istənildikdə isə verilər. Bu adın özünəməxsus bir çox xüsusiyyətləri və üstünlükləri vardır.

Bu ad Allahın bütün gözəl adlarının əsası və mənşəyidir, digər bütün adlar Ona istinad edilərək zikr olunur.

Uca Allah buyurur***: "Ən gözəl adlar Allaha məxsusdur. Ona bu adlarla dua edin."***

(Əraf surəsi, 180-ci ayə)

Bu ad Əsmayi-hüsnanın bütün mənalarını özündə cəmləşdirir və ümumi şəkildə onlara dəlalət edir. Digər gözəl adlar isə ilahlıq sifətlərinin yəni Ucalıq, Kamal və Əzəmət sifətlərinin təfərrüatlı şəkildə

açıqlanması və bəyanıdır. Məhz bu səbəbdən bu ad Allahın digər bütün gözəl adlarının qayıtdığı əsas (mənşə) və mənalarının fırlandığı mərkəzdir.

Abdullah ibn Abbas (Allah ondan və atasından razı olsun) bu ad haqqında belə demişdir:

Allah – bütün məxluqatı üzərində uluhiyyət (ilahlıq) və ubudiyyət (qulluq) sahibi olandır.[1]

Yəni, O, elə bir ucalıq, kamillik və əzəmət sifətlərinə sahibdir ki, məhz bu sifətlərinə görə ilah (məbud) olmağa və bəndələrinin Onun hüzurunda boyun əyib, acizlik və təvazökarlıqla yalnız Ona ibadət edilməsinə layiqdir.

[1] **İbn Cərir öz təfsirində rəvayət etmişdir.**

Ər-Rəbb. (الرب)

Bu ad, Allahın əzəmətli bir adıdır. Quranı-Kərimdə bir çox məqamlarda və müxtəlif kontekstlərdə beş yüz dəfədən çox təkrarlanaraq varid olmuşdur. Uca Allah buyurub: **"Həmd olsun aləmlərin Rəbbi Allaha."** (**Fatihə surəsi 1**)

Başqa ayədə Uca Allah buyurur: **"De: "Həqiqətən, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi olan Allaha məxsusdur." (Ənam surəsi 142)**

"Rəbb" sözünün mənası isə: Yəni bütün məxluqatı üzərində yaradılış, mülk, idarəetmə və tədbir baxımından rübubiyyət (Rəbblik) sahibi deməkdir. O, tək bir mənaya deyil, mənalar toplusuna dəlalət edən adlardandır.

Hətta bu ad tək başına (müstəqil olaraq) zikr edildikdə, öz dəlalətində Allahın digər bütün gözəl adlarını və uca sifətlərini əhatə edir. Bu barədə Alləmə İbn əl-Qeyyim (Allah ona rəhmət etsin) belə deyir:

"Həqiqətən, Rəbb — Qadir (hər şeyə gücü yetən), Xaliq (yaradan), Bəəri (yoxdan var edən),

Musavvir (surət verən), Həy (diri), Qəyyum (əbədi yaşayan, kainatı idarə edən), Alim (hər şeyi bilən), Səmi (eşidən), Bəsir (görən), Muhsin (yaxşılıq edən), Münim (nemət verən), Cəvad (səxavətli), Mu'ti (verən), Nafi (fayda verən), Muqaddim (önə keçirən), Muəxxir (geriyə buraxan), istədiyini zəlalətə salan və istədiyini doğru yola yönəldən (hidayət edən), istədiyini xoşbəxt edən və istədiyini bədbəxt edən, istədiyini əziz (izzətli) edən və istədiyini zəlil edəndir. Bunlardan başqa, Onun Rəbblik mənalarına aid olan daha neçə-neçə xüsusiyyətlər vardır ki, O, bunlarla layiq olduğu gözəl adlara sahibdir".

Ər-Rahmən – Ər-Rahim (الرحمان الرحيم)

Bu iki ad, Qurani-Kərimdə çox tez-tez sadalanan olduqca uca iki addır. Allah onlarla Quranın anasını (əl-Fatihə surəsini) açmış, onları Özünün nazil etdiyi hidayət və bəyanın başlığı etmişdir. Şeytanın qarşısında dura bilmədiyi o müqəddəs kəlməni (**Bismilləhir-Rahmənir-Rahim**) bu iki adla başlamışdır. Allahın peyğəmbəri Süleyman əleyhissələm də öz məktubuna bu kəlmə ilə başlamışdır. Cəbrayılda (Aleyhissələm) Qurandakı hər surənin açılışında Peyğəmbərə ﷺ bu kəlmə ilə nazil olardı.

Bu iki adın hər biri Uca Allahın rəhmət sifətinə dəlalət edir. **"ər-Rəhman"** – Onun rəhməti sifəti, **"ər-Rəhim"** isə – qullarına rəhm edən deməkdir.

Bu iki adda Allahın sifəti olan rəhmətin kamilliyinə və genişliyinə dair sübut vardır. Belə ki, göylərdə və yerdə olan bütün mənfəətlərin, sevilən şeylərin, sevinclərin və xeyirlərin əldə olunması Onun rəhmətinin təzahürüdür. Eyni şəkildə, bəndələrdən uzaqlaşdırılan sıxıntı, bəla, qorxu, təhlükə və zərərlər də Onun rəhmətinin nəticəsidir. Çünki yaxşılıqları yalnız O gətirər,

pislikləri də yalnız O uzaqlaşdırar. O, rəhm edənlərin ən rəhmlisidir.”

əl-Həyy, əl-Qayyum. (الحي القيوم)

Bu adlar Qurani Kərimdə üç yerdə yanaşı zikr olunan iki addır. Birincisi kürsü ayəsindədir: ***“Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Əbədi Yaşayandır, bütün varlığı idarə edəndir (əl-Həyy, əl-Qayyum)”.***

İkincisi **“Ali-Imran”** surəsinin əvvəlindədir: ***“Əlif. Ləm. Mim. Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Əbədi Yaşayandır, bütün varlığı idarə edəndir”.***

Üçüncüsü isə **“Taha”** surəsindədir: ***“Bütün üzlər Əbədi Yaşayan, bütün varlığı idarə edənə (Allahın əzəməti qarşısında) boyun əyəcəkdir”.***

Uca Allahın **“əl-Həyy”** adı Allahın həyat sifətini təsdiq edir. Bu, elə kamil bir həyatdır ki, ondan öncə heç bir yoxluq olmamışdır, sonradan da yox olmaq və fanilik ona üz verməyəcəkdir. Rəbbimiz bundan uca və pakdır. Bu həyata heç bir naqislik

və eyb toxuna bilməz. Allahın **“əl-Qayyum”** (Bütün varlığı idarə edən) adı isə Onun sifəti olaraq **“Qayyumiyyət”**i (qoruyub saxlayan və idarə edən olduğunu) təsdiq edir. Bu, Onun Öz-özünə var olması, yaratdıqlarını varlıqda saxlaması və idarə etməsi deməkdir.

Bu iki ad — **“əl-Həyy”** və **“əl-Qayyum”** Allahın gözəl adlarının bütün mənalarını özündə cəm edir. Çünki yaradanın bütün sifətləri bu iki ada qayıdır (onlarla bağlıdır).

Eşitmək, görmək, əl və elm kimi Zati sifətlər Onun **“əl-Həyy”** adına bağlıdır. Yaratmaq, ruzi vermək, nemət bəxş etmək, diriltmək və öldürmək kimi feli sifətlər isə Onun **“əl-Qayyum”** adına bağlıdır. Məhz buna görə də bəzi elm əhli bu iki adın Allahın “İsmi-Əzəm”i (ən uca adı) olduğu rəyinə varmışlar ki, bu adla Allaha dua edildikdə cavab verər, bir şey istənildikdə isə bəxş edər.

Əl-Xaliq Əl-Xalləq (الخالق الخلاق)

Allahın ***"əl-Xaliq"*** (Yaradan) adı Quran-i Kərimdə bir neçə yerdə zikr olunmuşdur.

Bunlardan biri Uca Allahın bu ayəsidir: ***"O, Xaliq (yaradan), Bəri (yoxdan var edən), Musavvir (məxluqatına istədiyi surəti verən) Allahdır.***

Bu adın daha geniş forması da ***"əl-Xalləq"*** olaraq varid olmuşdur. Quran'i-Kərimdə iki yerdə sadalanmışdır. Uca Allah buyurur: ***"Həqiqətən, rəbbin Hər şeyi yaradandır, Biləndir"*** və digər ayədə: ***"Bəli! O, Hər şeyi yaradandır, Biləndir".***

"Xalq" (yaratmaq) sözü iki mənaya aid edirlir:

Birincisi: Bir şeyi əvvəllər heç bir bənzəri (nümunəsi) olmadan yoxdan var etmək və icad etməkdir. Uca Allahın ayəsi bu qəbildəndir: **"Məgər onlar görmürlər ki, Biz onlar üçün, sahib olduqları heyvanları Öz əllərimizlə yaratmışıq!?" (Yasin 71)**

İkincisi: Ölçüb-biçmək, təyin etmək və planlaşdırmaq (təqdir) mənasına gəlir. Ərəblərin **"Xaləqal-ədim"** (Dərini kəsməzdən əvvəl ölçüb-biçdi) sözü də bu mənadadır. Uca Allahın bu

ayəsindəki ***“ təxluqunə ifkə ”*** kəliməsi də bu mənadadir: ***“...və yalan uydurursunuz “***. Yəni (onu özünüzdə ölçüb-biçib hazırlayırsınız)”.

• Beləliklə, **xəlq (yaratmaq)** sözü insana aid edildikdə (yəni insan, mən yaratdım dedikdə) nəzərdə tutulan məna ölçüb-biçmək və planlaşdırmaqdır. Bir şeyi əvvəllər heç bir bənzəri olmadan yoxdan var etmək və icad etmək mənasındakı real yaratmaq fəaliyyəti isə yalnız aləmlərin Rəbbinə məxsusdur. Necə ki, Uca Allah buyurur: “**Allahdan başqa bir yaradan varmı?!” (Fatir3)**

Digər ayədə Uca Allah buyurur***: “*****Bunlar Allahın yaratdıqlarıdır. İndi siz Mənə Allahdan başqalarının nə yaratdığını göstərin. Xeyr! Zalımlar açıq-aydın azğınlıq içindədirlər.!” (Loğman 11)**

Allahın məxluqatı yaratması əsla bir oyun, əyləncə və ya boş bir hədəf (əbəs) deyildir; Rəbbimiz bundan uca və pakdır. Əksinə, O, insanları və cinləri Ona ibadət etsinlər və onu təkləşdirsinlər (Onu tək ilah olaraq tanısınlar) deyə yaratmışdır: ***“Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə***

yaratmışıq və siz (heç vaxt) Bizə qaytarılmayacaqsınız? Haqq Hökmdar olan Allah (hər şeydən) ucadır! Ondan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur. O, dəyərli Ərşin Rəbbidir". (əl-Muminun 115-116)

Əl-Xaaliq, Əl- Bəəri, Əl-Musavvir

(الخالق، البارئ، المصور)

Allahın bu üç adı Özünün bu kəlamında bir ayədə cəm olmuşdur: ***"O, yaradan (əl-Xaliq), yoxdan var edən (əl-Bəri), surət verən (Əl-Musavvir) Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur" (əl-Həşr, 24).*** Yəni, bütün məxluqatı yaratmaqda tək olan Odur. Öz hikməti ilə bütün canıları yoxdan var etmiş, kamil nizamı və gözəl yaradılışı ilə bütün varlıqlara surət vermişdir. Beləcə, onları özlərinə münasib olan ən doğru zamanda xəlq etmiş, varlığa gətirmiş və fitrətini qoymuşdur. Yaradılışını ən gözəl şəkildə müəyyən etmiş, onları ən mükəmməl sənətkarlıqla nizamlamış, öz mənafelərinə doğru yönəltmiş və hər bir şeyə

özünəlayiq xüsusiyyətlər bəxş etmişdir. Sonra isə hər bir məxluqu nə üçün hazırlayıb xəlq etmişdirsə, ona doğru hidayət etmişdir (yönəltmişdir).

əl-Xaliq – əşyaları Öz hikmətinin tələbinə uyğun olaraq əzəldən müəyyən edən və ölçüb-biçəndir (təqdir edəndir).

əl-Bəri – onları yoxluqdan sonra varlığa gətirəndir.

əl-Musavvir – məxluqata və varlıqlara Öz istədiyi şəkildə surət verəndir.

İbn əl-Qeyyimin qeyd etdiyi kimi, bu iki adda (əl-Bəri və əl-Musavvir adlarında) əl-Xaliq adının mənasının təfərrüatı (açıqlaması) vardır. Belə ki, Uca Allah bir şeyi yaratmaq istədikdə, əvvəlcə onu Öz elmi və hikməti ilə ölçüb-biçər (təqdir edər), sonra onu yoxdan var edər – yəni Öz istədiyi və dilədiyi surətdə, müəyyən etdiyi ölçüyə uyğun olaraq varlıq aləminə gətirər.

Beləliklə, bu üç ad ayədki ardıcıllığına görə nizamlı bir düzülüş təşkil edir.

İlk öncə xəlq etmək gəlir ki, bu da məxluqun varlığının (əzəldən) ölçülüb-biçilməsidir;

Sonra onun yoxdan var edilməsi gəlir ki, bu da yoxluqdan varlığa çıxarılmasıdır;

Daha sonra isə onun Uca Allahın dilədiyi surətə salınması gəlir.

Əl-Məlik Əl-Məliik (الملك، المليك)

"əl-Məlik" adı Qurani-Kərimdə beş yerdə zikr edilmişdir. Bunlardan biri Uca Allahın bu kəlamıdır: **"O, Özündən başqa heç bir ilah olmayan, Məlik (göylərin və yerin mülkünün sahibi), Qüddus (bütün qüsurlardan pak)" (əl-Həşr, 23).**

"əl-Məliik" adı isə yalnız bir yerdə, Uca Allahın bu kəlamında keçir: ***"Şübhəsiz ki, müttəqilər cənnətlərdə və çaylar kənarında, qadiri Hökmdarın hüzurunda, haqq məclisində olacaqlar" (əl-Qəmər, 54-55).***

Bu iki ad Allahın mülk sahibi olduğuna, yəni bütün varlıqların hökümdarı olduğuna və heç bir maneə, yaxud müqavimətlə qarşılaşmadan onlarda istədiyi kimi hökmranlıq etdiyinə dəlalət edir.

Qurani-Kərimdə Allahın mülkdə tək olması və heç bir şərikinin olmaması həqiqəti, Onun yalnız Özünə ibadət edilməsinin vacibliyinə açıq bir dəlil kimi dəfələrlə vurğulanmışdır. Uca Allah buyurur: ***"Bu sizin Rəbbiniz olan Allahdır. Mülk Ona məxsusdur. Ondan başqa (ibadətə layiq olan) ilah yoxdur. Siz necə də (haqdan) döndərilirsiniz! (əz-Zumər, 6).***

Ondan başqasına ibadət etmək – hansı ki, onlar (başqaları) nə özlərinə bir zərər, nə bir fayda, nə ölüm, nə həyat, nə də diriltmə verə bilərlər – azğınlığın ən pisi və batilin ən boşudur. Qurani-Kərimdə bu həqiqəti təsdiq edən və bu məsələni aydınlaşdıran çoxlu ayələr vardır.

Uca Allah buyurur: ***"Bu, sizin Rəbbiniz olan Allahdır. Mülk Onundur. Sizin Ondan başqa dua etdiklərin xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər." (Fatir, 13).*** Yenə buyurur: ***"(Kafirlər isə) Onun əvəzinə heç nəyə fayda verməyən, həm də özləri yaradılan, özlərinə nə bir zərər, nə də bir xeyir verməyə qadir olmayan, öldürməyə, həyat verməyə və yenidən diriltməyə***

qüdrəti olmayanları özlərinə məbud qəbul etdilər.” (əl-Furqan, 3).

Bu kainatda zərrə qədər belə, bir şeyə malik olmayan birinə ibadətdən bir pay ayrılması yolverilməzdir. Çünki ibadət yalnız Əzəmətli Məlikin (Hökmdarın), Cəlil olan Xaliqin (Yaradanın) və bu kainatı idarə edən Rəbbin haqqıdır. Onun heç bir şəriki yoxdur, şanı uca, hakimiyyəti əzəmətlidir, əzəməti də hər şeydən üstündür və Ondan başqa ilah yoxdur.

Ər-Razzəq Ər-Raziq (الرزاق، الرازق)

Allahın ***“ər-Razzəq”*** (Ruzi verən) adı Qurani-Kərimdə bir yerdə keçir, o da Allahın aşağıdakı kəlamıdır: ***“Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir.” (əz-Zariyat, 58).***

“Raziq” adı isə bəzi ayələrdə cəm formasında keçməkdədir, o cümlədən Allahın: ***“Allah ruzi verənlərin ən yaxşısıdır!”*** (əl-Cümə, 11) kəlamında zikr edildiyi kimi. Həmçinin, bu ad sünnədə də sabit olmuşdur. Qarşıdaki fəsildə ***“əl-Qaabid, əl-Bəasit”*** mövzusunda bəhs ediləcəkdir.

Allah Sübhənəhu bəndələrinin ruzilərinə kəfil olan, hər bir nəfsin yaşaması üçün lazım olan ərzağı onlara təmin edən **"ər-Razzəq"**dir. Uca Allah buyurur: ***"Yer üzündə yaşayan elə bir canlı yoxdur ki, onun ruzisi Allahdan olmasın!" (Hud, 6).*** Həmçinin buyurur: ***"Neçə-neçə canlı var ki, ruzisini (əldə edə) daşıya bilmir. Onların da, sizin də ruzinizi Allah verir. O, Eşidəndir, Biləndir" (əl-Ənkəbut, 60).***

Allahın bəndələrinə verdiyi ruzi iki növdür:

Birincisi: Ümumi ruzi. Bu, yaxşıya da, pisə də, möminə də, kafirə də, əvvəl gələnlərə də, sonrakılara da aid olan bədənlərin ruzisidir: ***"Yer üzündə yaşayan elə bir canlı yoxdur ki, onun ruzisi Allahdan olmasın!"*** Buna görə də, dünyada bu ruzinin çox olması bəndənin Allah yanında qiymətli (kəramətli) olduğuna, az olması isə Onun yanında alçaldığına dəlil deyildir. Uca Allah buyurur: ***"İnsana gəldikdə isə, Rəbbi onu imtahan edib ehtiram göstərdikdə və nemət verdikdə o: 'Rəbbim mənə ehtiram göstərdi!' – deyər. Onu imtahan edib ruzisini daraltdıqda isə: 'Rəbbim məni alçaltdı!' – deyər. Xeyr (belə deyil)!" (əl-***

Fəcr, 15-17). Yəni: Allahın dünyada nemət verdiyi hər kəs onun yanında hörmətli deyil, ruzisini daraltdığı kəs də onun yanında alçalmış deyil. Əksinə, varlılıq və yoxsulluq, genişlik və darlıq Allah tərəfindən bir imtahan və sınaqdır ki, şükür edənlə nankorluq edəni, səbir edənlə dözümsüzlük göstərəni ayırd etsin.

İkincisi: Xüsusi ruzi. Bu, qəlblərin ruzisi olub, elm və imanla qidalanması, habelə dini islah etməyə kömək edən halal ruzidir. Bu ruzi yalnız möminlərə məxsusdur. Möminlər də Allahın hikmət və rəhmətinə uyğun olaraq ondan müxtəlif dərəcələrdə pay alırlar. Uca Allah onlara olan lütf və kəramətini tamamlayar, onlara nemət bəxş edər və Qiyamət günü onları nemət dolu cənnətlərə daxil edər. Uca Allah buyurur: ***"Kim Allaha iman gətirib yaxşı iş görsə, (Allah) onu altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edər. Allah ona gözəl ruzi bəxş etmişdir" (ət-Təlaq, 11).***

Əl-Əhəd Əl-Vahid (الأحد، الواحد)

Allahın ***"əl-Əhəd"*** adı Qurani-Kərimdə cəmi bir yerdə İxlas surəsində zikr olunur. İxlas elə əzəmətli bir surədir ki, hədislərdə Peyğəmbərimizin (sallallahu aleyhi və səlləm) onun haqqında ***"Quranın üçdə birinə bərabərdir"*** dediyi buyurulur. Çünki bu surə bütövlükdə Rəbbin ucalığını, Onun misilsiz ad və sifətlərini bəyan etməyə həsr olunmuşdur.

"əl-Vahid" adı isə Quranda daha tez-tez, müxtəlif ayələrdə təkrar olunur.

Bu iki ad Allahın mütləq mənada tək olduğuna dəlalət edir. Yəni Allah Subhənəhu və təalə ucalıq və cəlal sifətlərində misilsizdir. Əzəmət, böyüklük və gözəllik vəsflərində bənzərsizdir. O, zatında təkdir, Onun heç bir bənzəri yoxdur. Sifətlərində təkdir, Onun heç bir misli yoxdur. Fellərində təkdir, heç bir şəriki və köməkçiyə ehtiyacı yoxdur. O, uluhiyyətində də təkdir. Sevilməsində, təzim edilməsində, qarşısında baş əyilməsində və Ona qulluq edilməsində heç bir tayı-bərabəri ola bilməz.

Qurani-Kərimdə Allahın **“əl-Vahid”** adı əsasən tövhidi zehinlərdə möhkəmləndirmək, Allaha şərik qoşanların və bütpərəstlərin puç inanclarını alt-üst etmək üçün müxtəlif məqamlarda xüsusi vurğulanır.

Uca Allah Öz təkliyini və dinin yalnız Ona həsr olunmalı olduğunu bəyan edərək buyurur: ***“Sizin ilahınız tək bir İlahdır. Ondan başqa ibadətə layiq haqq məbud yoxdur. O, rəhmi sonsuz olandır, mərhəmətlidir!” (əl-Bəqərə, 163).*** Müşriklərin uydurma əqidələrini puça çıxararaq buyurur: ***“Allah buyurdu: ‘İki ilah qəbul etməyin! O, yalnız və yalnız tək bir İlahdır. Odur ki, yalnız Məndən qorxun!’” (ən-Nəhl, 51).*** Başqa bir ayədə isə belə buyurur: ***“Ayrı-ayrı, tanrılar daha yaxşıdır, yoxsa hər şeyə qadir və qalib olan tək bir Allah?” (Yusif, 39).***

Buna görə də bəndələrin üzərinə düşən ən ali vəzifə – Allahın bu mütləq kamilliyini ürəkdən təsdiq etmək, Onu həm inancında, həm sözündə, həm də əməlində tək Rəbb olaraq tanımaq və bütün ibadətləri heç bir şərik qoşmadan, xalis olaraq yalnız Ona yönəltməkdir.

Əs-Saməd (الصمد)

Allahın **“əs-Saməd”** adı İxlas surəsində zikr olunmuşdur.

Bu adın mənası: elmində, hikmətində, həlimliyində, qüdrətində, izzətində, əzəmətində və bütün digər sifətlərində mütləq kamilliyə ucalmış ən uca, ən əzəmətli Seyyiddir. O, sonsuz və tükənməz sifətlər sahibidir. Bütün məxluqat və varlıq aləmi hər bir işində, hər bir ehtiyacında birbaşa Ona yönəlir, yalnız Ona sığınır. Çünki Ondan başqa , bəndələrin üz tutub pənah aparacağı Rəbb yoxdur. Canlılar həm dini, həm də dünyəvi işlərinin islahı üçün yalnız Ona möhtacdırlar.

Başlarına bir müsibət gəldikdə, qorxuya düşdükdə Ona sığınar, çətinliyə və qəm-qüssəyə batan zaman Ona yalvarar, sıxıntı və məşəqqətlərlə qarşılaşdıqda isə yalnız Ondan kömək diləyərlər. Çünki hər bir varlıq yaxşı bilir ki, ehtiyaclarının qarşılanması, dərdlərinin çarəsi yalnız Onun qatındadır. Bu isə Onun elminin kamilliyindən, rəhmət, şəfqət və ehsanının genişliyindən, habelə

qüdrət, izzət və mütləq hakimiyyətinin əzəmətindən irəli gəlir.

İbn Cərir ət-Təbəri öz təfsirində Abdullah bin Abbasdan (radiyallahu anhumə) belə rəvayət edir:

"əs-Saməd – ağalığında (seyyidliyində) kamil olan Ağa, şərəfində kamil olan Şərəfli, əzəmətində kamil olan Əzəmətli, həlimliyində kamil olan Həlim, zənginliyində kamil olan Zəngin, cəbərutunda (mütləq hökmranlığında) kamil olan Cabbar, elmində kamil olan Alim və hikmətində kamil olan Həkimdir. O, şərəf və ucalığın hər bir növündə mütləq kamilliyə sahib olandır ki, bu da yalnız Allah Sübhənəhudadır. Bu vəsflər Ondan başqa heç kəsə yaraşmaz".

Əl-Həadi (الهادئ)

Allahın ***"əl-Həadi"*** (Doğru yola yönəldən, hidayət verən) adı Qurani-Kərimdə iki yerdə zikr olunmuşdur. Bunlar Uca Allahın aşağıdakı ayələridir: ***"Şübhəsiz ki, Allah iman gətirənləri doğru yola yönəldəndir!" (əl-Həcc, 54)*** və ***"Doğru yol göstəricisi və yardımçı olaraq Rəbbin sənə yetər." (əl-Furqan, 31).***

"əl-Həadi" – bəndələrinə doğru yolu göstərən, onları həm dünyada, həm də axirətdə xoşbəxtliyə qovuşduracaq amillərə yönəldəndir. Onun hidayəti sayəsində yaxın bəndələri (övliyaları) Allaha itaət etməyin və Onun rızasını qazanmağın yolunu tapmışlar. Yenə Onun hidayəti sayəsində heyvanlar belə özlərinə fayda verən şeyləri tapmağa və zərərli olanlardan qorunmağa yönəlmişlər (instinkt qazanmışlar).

Məxluqatı yaradan və onlara yol göstərən məhz Allahdır. Necə ki buyurur: **" O Rəbbin ki, (hər şeyi) yaradı və kamilləşdirdi. O Rəbbin ki, (hər şeyin müqəddəratını əzəldən) müəyyən etdi və yol göstərdi." (əl-Əla, 2-3).** Beləliklə, Allah bütün varlıqlara öz mənafelərini tapmaq üçün ümumi bir

hidayət (yaşamaq qabiliyyəti) vermiş və onları nə üçün yaradmışdırsa, ona uyğun şəkildə proqramlaşdırmışdır.

Bundan əlavə, Allah bəndələrinə bəyan və irşad hidayəti də bəxş etmişdir. Bunun üçün kitablar endirmiş, elçilər göndərmiş, şəriət qaydaları, hökmlər, halal və haramları müəyyən etmişdir. Dinin əsaslarını (üsul) və qollarını (füru) bəyan etmiş, Öz rızasına və mükafatına aparan doğru yolu (siratal-müstəqimi) aydınca göstərmiş, bəndələr çəkinsinlər deyə digər azğın yolları da açıqlamışdır.

Həmçinin O, mömin bəndələrinə imana və itaətə müvəffəq olmaq hidayəti (tövfiq) vermişdir. Dünyada onları Cənnətə aparan səbəblərə və yollara yönəltdiyi kimi, axirətdə də Cənnətdəki mənzillərinə yönəldəcəkdir. Deməli, Onun ***"əl-Həadi"*** adı hidayətin bütün növlərini özündə cəmləyir.

Əl-Vahhəb (الوهاب)

Bu, Qurani-Kərimdə üç yerdə təkrarlanan bir addır. Uca Allah buyurur: ***"Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma. Bizə Öz tərəfindən bir mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən." (Ali-İmran, 8).*** Həmçinin buyurur: ***"Yoxsa sənin Qüdrətli və Bəxşedən Rəbbinin rəhmət xəzinələri onlardadır?!" (Sad, 9).*** Uca Allah Öz peyğəmbəri Süleyman əleyhissalamın duasını zikr edərək buyurur: ***"O dedi: "Ey Rəbbim! Məni bağışla və mənə, məndən sonra heç kimsəyə nəsib olmayan bir mülk nəsib et. Həqiqətən, Sən Bəxşedənsən." (Sad, 35).***

Əl-Vahhəb: Bəxşişi, lütfü və ətası bol olan deməkdir. Ərəb dilindəki ***"fəaal"*** (qəlibi) mübaliğə (çoxluq və intensivlik) bildirir. Uca Allah Vahhəbdır. Bəndələrinə Öz böyük lütfündən bəxş edir, nemətlərini ardıcıl olaraq onlara yetirir, ətasını genişləndirir və bəxş etdiklərini bol edir. Bu sifətin "fəaal" qəlibində gəlməsi də məhz bu bəxşişlərin çoxluğu, ardıcıllığı, müxtəlifliyi və genişliyi ilə bağlıdır. Hər şeyin xəzinələri, göylərin

və yerin mülkü, həmçinin işlərin ixtiyarı Onun əlindədir. Öz mülkündə istədiyi kimi rəftar edir.

Allah Azzə və Cəllə Qurani-Kərimdə bəxş etdiyi nemətərinin müxtəlif növlərini zikr etmiş, peyğəmbərlərinin və saleh bəndələrinin bu nemətləri diləmək və onlara nail olmaq üçün Ona necə yönəldiklərini bildirmişdir.

Bu müxtəlif növ bəxşişlər Uca Allahın əlindədir. Çünki O, bu kainatın mütləq sahibi və onun üzərində istədiyi kimi hökmranlıq edəndir. Uca Allah buyurur: ***"Göylərin və yerin mülkü Allaha məxsusdur. O, istədiyini yaradır. İstədiyinə qız, istədiyinə də oğlan verər. Yaxud onları, oğlan və qız olmaqla cüt verər, istədiyini də sonsuz edər. Həqiqətən, O, (hər şeyi) biləndir, qadirdir." (əş-Şura, 49-50).***

Allahım! Şükür edərək Sənə həmd edirik, lütfünə görə Sənə minnətdarıq.

Əl-Fəttəh (الفتاح)

Uca Allah buyurur: ***"De: "Rəbbimiz hamımızı bir yerə toplayıb, sonra aramızda ədalətlə hökm verəcək. O, ən ədalətli Hakimdir, Biləndir"." (Səba surəsi, 26).***

Həmçinin Uca Allah buyurur: ***"Rəbbimizin elmi hər şeyi əhatə etmişdir. Biz Allaha təvəkkül etdik. Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm ver. Sən hökm verənlərin ən yaxşısısan". (Əraf surəsi, 89).***

Bu adın mənası (əl-Fəttəh):

Bəndələrinin arasında istədiyi kimi hökm verən, onlar barəsində dilədiyini qərarlaşdıran və bəndələrindən istədiyinə istədiyi neməti bəxş edəndir. Onun hökmünü geri çevirən, Onun hökmünün və əmrinin qarşısını alan tapılmaz.

Uca Allah buyurur: "***Allahın insanlara bəxş etdiyi mərhəmətin qarşısını heç kəs ala bilməz. Onun vermədiyi bir şeyi də Ondan başqa heç kəs göndərə bilməz. O, Qüdrətlidir, Hikmət sahibidir.***" ***(Fatir surəsi, 2).***

Bəndənin, Rəbbinin “əl-Fəttəh” (hər şeyi açan, hökm verən) olduğuna inanması, ondan yalnız Allaha yönəlməyi tələb edir. Bəndə hidayət, ruzi və rəhmət qapılarını onun üçün açmasını, həmçinin köksünü xeyirə açaraq qəlbinə fərahlıq verməsini yalnız Ondan diləməlidir.

Uca Allah buyurur: ***“Məgər Allahın, sinəsini (qəlbini) İslam üçün açdığı və Rəbbinin nura yönəltdiyi şəxs (qəlbi daşlaşmış kimsə eyni ola bilərmi)?! Qəlbi Allahın Zikrinə qarşı sərt olanların vay halına! Onlar açıq-aydın azğınlıq içindədirlər.” (Zumər surəsi, 22).***

İmam Qurtubi buyurmuşdur:

“Bu (qəlbin) açılmasının və genişlənməsinin bir həddi-hüdudu yoxdur. Hər bir mömin ondan öz payını almışdır. Bu payın ən uca məqamına peyğəmbərlər, sonra övliyalar, sonra alimlər, daha sonra isə sıravi möminlər nail olmuşlar. Allah bu nemətdən yalnız kafirləri məhrum etmişdir”.

Əs-Səmi (السميع)

Bu, Qurani-Kərimdə əlliyə yaxın yerdə təkrarlanan bir addır. Buna misal olaraq Uca Allahın bu ayələrini göstərmək olar: ***"Onun mislində heç bir şey yoxdur. O, Eşidəndir, Görəndir" (Şura surəsi, 11)*** və ***"Bir zaman İbrahim və İsmail müqəddəs Evin bünövrəsini qaldırarkən belə dua etmişdi: "Ey Rəbbimiz! Bu əməli bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən!" (Bəqərə surəsi,127).***

Bu adın mənası ***" əs-Səmi "*** (Hər şeyi eşidən) — dillərin müxtəlifliyinə və ehtiyacların rəngarəngliyinə baxmayaraq, bütün səsləri eşidəndir. Onun eşitməsi qarşısında sözün gizlisi də, bərkdən deyiləni də eynidir: ***"Aranızdan sözü gizlədən də, onu açıq deyən də, gecə gizlənən də, gündüz gəzib dolanan da (Allah üçün) eynidir." (Rad surəsi, 10).***

Onun eşitmə qabiliyyəti bütün səsləri əhatə etmişdir. Səslər Onun üçün bir-birinə qarışmaz və bənzəməz. Bir səsi eşitməsi Onun başqa bir səsi eşitməsinə mane olmaz, istəklərin müxtəlifliyi Onu

çaşdırmaz və istəyənlərin çoxluğu Onu əsla yormaz.

İmam Əhməd və digərləri rəvayət edirlər ki, möminlərin anası Aişə (radiyallahu anhə) belə demişdir:

"Səsi hər şeyi əhatə edən Allaha həmd olsun! O mübahisə edən qadın (Xavlə) Peyğəmbərin ﷺ yanına gəlib onunla danışarkən mən evin bir küncündə idim və onun nə dediyini eşitmirdim. Allah Azzə və Cəllə isə yeddi qat səmanın üzərindən o qadının şikayətini eşitdı və bu ayəni nazil etdi: «Əri barəsində sənlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin danışığınızı eşidir. Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir» (Mücadilə surəsi, 1).

Digər bir rəvayətdə isə Aişə belə demişdir:
"Eşitməsi hər şeyi əhatə edən Allah nə qədər Ucadır (Mübarəkdir)!"

Hətta bütün cinlər və insanlar ilkindən tutmuş sonuncuya qədər yer üzündə olan bütün bəşəriyyət eyni bir məkanda (meydanda) dursalar, hamısı eyni bir anda Allahdan ehtiyaclarını istəsələr, hər kəs öz ehtiyacını ərz etsə və hər kəs

öz ləhcəsində, öz dilində danışsa belə, Allah heç bir səsi digər səsə, heç bir dili digər dilə və heç bir ehtiyacı digər ehtiyaca qarışdırmadan onların hamısının çağırışlarını eyni anda eşidər və istədiklərini verər.

Əl-Bəsir (البصير)

Bu ad, Qurani-Kərimdə qırxdan çox yerdə təkrarən zikr olunmuşdur. Uca Allahın belə buyurur: ***"Onun mislində heç bir şey yoxdur. O, Eşidəndir, Görəndir" (əş-Şura, 11)*** və ***"Həqiqətən, Allah Eşidəndir, Görəndir" (ən-Nisa, 58).***

"əl-Bəsir" – Hər bir şeyi görən və nə qədər incə və kiçik olsa belə, heç bir şeyi nəzərdən qaçırmayandır. O, qaranlıq gecədə, qapqara daşın üzərində yeriyən qara qarışqanın ayaq səslərini eşidir və hərəkətini görur. Onun əzalarındakı qida yollarını belə görur. Yeddi qat yerin altındakıları, yeddi qat göyün üzərindəkiləri gördüyü kimi görur. Mübarək və Uca Allah göz qapaqlarının

qırpılmasını da, gözlərin xəyanətini (gözaltı gizli baxışları) də görür.

Nə gözəl deyib şair:

Ey zülmət, qapqara gecənin ağuşunda,

Ağcaqanadın qanad düzümünü görən Rəbbim!

Onun boğazındakı damarların yerini,

O incə sümüklərin içindəki iliyi görən Rəbbim!

Mənə elə bir tövbə bəxş et ki, lütfünlə,

Keçmiş zamanlarda etdiyim günahları silsin!

Həmçinin bu uca adın gərəkdirdiyi bəzi mühüm əməllər vardır ki, bunlar da: Allah qarşısında zəlil olub boyun əymək, daim Onun nəzarəti altında olduğunu hiss etmək , ibadəti ən gözəl şəkildə yerinə yetirmək , asiliklərdən və günahlardan uzaq durmaqdır.

İbn Rəcəb (Allah ona rəhmət etsin) rəvayət edir ki: ***"Bir kişi gecə vaxtı kimsəsiz bir çöldə bir qadına yaxınlıq təklif etdi, qadın isə imtina etdi. Kişi ona: 'Bizi ulduzlardan başqa kimsə görmür',– dedikdə, qadın: Bəs o ulduzları Yaradan haradadır?!'– deyə cavab verdi."*** Yəni, O bizi görmürmü?! Uca

Allah buyurur: ***“Məgər o bilmir ki, Allah (onun etdiklərini) görür?” (əl-Ələq, 14).*** Bu ayə (insanı günahdan) çəkindirmək və yolundan döndərmək üçün tamamilə kifayətdir.

Əl-Alim (العليم)

Bu ad, Qurani-Kərimdə yüz əllidən çox yerdə zikr olunmuşdur. Uca Allah buyurur: ***“O, istədiyini yaradır. O, Biləndir, hər şeyə Qadirdir” (ər-Rum, 54)*** və həmçinin buyurur: ***“Bilən olaraq Allah kifayət edər” (ən-Nisa, 70).***

“əl-Alim” – Elmi zahiri və batini, gizlini və aşkar olanları, göy və yer aləmini, keçmişi, indiki zamanı və gələcəyi ehtiva edən (əhatə edən) deməkdir. Heç bir şey Ondan gizli qalmaz. O, olanı da, olacağı da, hələ baş verməyəni isə, əgər baş versəydi, necə olacağını da bilir. O, elmi ilə hər şeyi əhatə etmiş və hər şeyi tək-tək sayaraq hesaba almışdır.

Bu əzəmətli ada iman gətirməyin qul üzərində bərəkətli təsirləri vardır. Hətta bu ad, (insanı

günahdan) çəkindirən ən böyük maneə və ən uca öyüd-nəsihətdir.

Şeyx Məhəmməd əl-Əmin əş-Şinqiti (Allah ona rəhmət etsin) demişdir: ***"Alimlər yekdilliklə qəbul etmişlər ki, bu ad, göydən yerə nazil olan ən böyük nəsihətçi və ən güclü çəkindirici amildir...*** Qurani-Kərimin elə bir səhifəsi yoxdur ki, onu çevirəndə qarşına bu ən böyük nəsihətçi və ən uca çəkindirici amil çıxmasın: ***"O, hər şeyi biləndir"***, "***Allah nə etdiklərinizdən xəbərdardır", "O, sizin nəyi gizlətdiyinizi bilir", "Yerə düşən elə bir yarpaq yoxdur ki, Allah onu bilməsin.", "İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından daha yaxınıq."...***

..."Bilin ki, Allah sizin könlünüzdəkiləri bilir. Elə isə Ondan qorxun! Bilin ki, Allah bağışlayandır, rəhmlidir!, "(Ey Muhamməd) Sən hansı bir iş görsən, Qurandan nə oxusan, (ey insanlar) siz (də) nə iş görsəniz, onları etdiyiniz zaman Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz..

Buna görə də, hər birimiz bu ən böyük çəkindiricidən və ən uca nəsihətdən ibrət almalı və onu unutmamalıyıq ki, özümüzü həlaka sürükləməyək.”

Əl-Lətif, Əl-Xabir (اللطيف الخبير)

Bu iki ad Qurani-Kərimin bir neçə ayəsində bir yerdə (yanaşı) zikr olunmuşdur. Uca Allah buyurur: “***Gözlər Onu dərk edə bilməz, O isə gözləri dərk edər. O, Lətifdir (bütün incəlikləri biləndir), Xabirdir (hər şeydən xəbərdardır)” (əl-Ənam, 103).*** Uca Allah, Loğmanın oğluna etdiyi nəsihəti zikr edərək belə buyurur: “***Ey oğlum! (Gördüyün iş) bir xardal dənəsi ağırlığında olsa belə, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa belə, Allah onu mütləq aşkara edər. Həqiqətən, Allah Lətifdir, Xabirdir” (Loğman, 16).***

Əl-Xabir adının mənasına gəlincə: O, elmi ilə bütün gizli sirləri ehtiva edən, qəlblərin dərinliklərində gizlənənlərə, işlərin incəliklərinə, toxumların gizli qalan xüsusiyyətlərinə və

zərrəciklərin ən xırda təfərrüatlarına belə bələd olandır. Bu adın mənası, son dərəcə incə, kiçik və gizli olan məsələləri bilməyə əsaslanır. Belə olan halda, aşkar və bəlli olan məsələləri Onun bilməsi daha öncəli və şübhəsizdir.

Əl-Lətif adının isə iki mənası vardır:

Birincisi: "Əl-Xabir" adı ilə eyni mənanı daşıyır. Yəni Onun elmi o qədər incə və dərindir ki, bütün gizli sirləri, qəlblərdə olanları və ən xəfi (gizli) məqamları bilir.

İkincisi: Bəndələrinə və sevdiyi qullarına, onların heç hiss etmədiyi (gözləmədiyi) yollarla Öz lütf və ehsanı sayəsində xeyirlər və mənfəətlər yetirən deməkdir.

Əl-Əfuvv, Əl-Ğafur (العفو الغفور)

Uca Allah buyurur: ***"Bu belədir! Hər kim özünə verilən cəzanın eynis ilə cəza versə, sonra yenə də haqsızlığa məruz qalsa, (bilsin ki,) Allah ona mütləq yardım edəcəkdir. Həqiqətən, Allah əfv edəndir, Bağışlayandır!" (əl-Həcc, 60).*** Uca Allah

digər bir ayədə isə belə buyurur: ***"Ola bilsin ki, Allah onları əfv etsin. Həqiqətən, Allah əfv edəndir, bağışlayandır." (ən-Nisa, 99).***

Əl-Əfuvv – günahları silən və asiliklərdən keçən deməkdir. Bu ad məna baxımından **"Əl-Ğafur"** adına yaxındır, lakin ondan daha geniş və dərin bir məna ifadə edir. Çünki ***"ğufran"*** (bağışlamaq) günahın üstünü örtmək mənasına gəldiyi halda, ***"əfv"*** günahı tamamilə silib yox etmək mənasına gəlir. Şübhəsiz ki, silmək örtməkdən daha üstündür. Bu fərq, hər iki adın ayədə bir yerdə (yanaşı) gəldiyi zaman keçərlidir. Tək-tək işləndikdə isə, hər bir ad digərinin də mənasını özündə ehtiva edir.

Uca Allahın əfv etməsi iki növdür:

Birinci növ: Ümumi əfv. Bu, kafirlər də daxil olmaqla bütün günahkarlara şamil olunan əfvdir. Bu əfv, baş vermə səbəbləri hazır olan və əslində nemətlərin kəsilməsini tələb edən cəzaların dəf edilməsi (təxirə salınması) ilə özünü göstərir. İnsanlar Allaha şərik qoşmaqla, Ona dil uzatmaqla və digər müxtəlif asiliklərlə zərər vurmağa

çalışsalar da, O, bəndələrinə salamatlıq verir, onları ruziləndirir, aşkar və gizli nemətlərini onların üzərinə yağdırır. Dünya nemətlərini onlar üçün bol edir, oradakı gözəlliklərdən və mənfəətlərdən pay verir. Öz əfvi və həlimliyi sayəsində onlara möhlət verir, lakin onları tamamilə başlı-başına buraxmır.

İkinci növ: Xüsusi əfv. Bu, tövbə edənlərə, bağışlanma diləyənlərə, dua edənlərə, ibadətlə məşğul olanlara və başlarına gələn müsibətlərə savabını Allahdan umaraq səbr edənlərə aid olan xüsusi bağışlanmadır. Kim Allaha səmimi qəlbdən tövbə (xalis tövbə) edərsə, küfr, fisq və ya asilik olmasından asılı olmayaraq, Allah onun hər bir günahını bağışlayar. Bunların hamısı Uca Allahın bu ayəsinin hökmünə daxildir: "***(Ey Peyğəmbər! Qullarıma mənim bu sözümü) de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!" (əz-Zümər, 53).***

Allahın əfv və bağışlanma qapıları hər zaman açıqdır. O, əzəldən bəri Əfuvv və Ğafurdur və bu xüsusiyyəti daimidir. O, bağışlanma səbəblərinə

sarılan kəslərə əfv olunacaqlarını vəd edərək buyurmuşdur: “***Mən, həqiqətən də, tövbə edib, iman gətirib saleh əməllər edən, sonra da doğru yolu tutanları bağışlayıram.)” (Taha, 82).***

Əl-Aliyy, əl-Əalə, Əl-Mutəaal

(العلي، الأعلى، المتعال)

Uca Allah buyurur: ***“O, ucadır, böyükdür!” (əl-Bəqərə, 255).*** Həmçinin buyurur: ***“Ən uca olan Rəbbinin adına təriflər de!” (əl-Ələ, 1).***

Və yenə buyurur: ***“Qeybi və aşkarı Biləndir, Böyükdür, Ucadır!” (ər-Rəd, 9).***

Bu adlar Allahın hər bir cəhətdən və hər bir baxımdan mütləq ucalığına dəlalət edir.

Onun zatı Ucadır (Uluvvul-Zat): Ərşə ucalmış, bütün məxluqatından yüksəkdə olaraq və onlardan ayrıdır. Uca Allah buyurur: ***“Mərhəmətli***

Allah Ərşə ucaldı" (Taha, 5). Qurani-Kərimin altı ayəsində isə belə buyurur: ***"Sonra Ərşin üzərinə ucaldı".*** Yəni Öz cəlalına, kamilliyinə və əzəmətinə yaraşan bir şəkildə ərşin üzərinə yüksəldi və ucaldı.

O, qədr-qiymət və məqam baxımından Ucadır: Bu, Onun sifətlərinin ucalığı və əzəmətidir. Onun sifətləri elə əzəmətlidir ki, heç kimin sifəti onlara bənzəyə və ya yaxınlaşa bilməz. Əksinə, qullar Onun sifətlərindən tək birini belə tam dərk etməyə qadir deyillər.

O, qahr və hökmranlıq baxımından Ucadır. O, bütün məxluqat üzərində mütləq qalib və hakimdir və bütün məxluqat Ona boyun əymişdir. Bütün yaradılmışların ixtiyarı Onun əlindədir. Onun izni olmadan heç bir məxluq hərəkət edə və ya sükunətdə qala bilməz. Onun istədiyi hər şey baş verir, istəmədiyi isə baş vermir.

Allahın məxluqat üzərindəki ucalığına iman gətirmək qula Allahı uca tutmağı, Onun qarşısında boyun əyməyi, öz acizliyini dərk etməyi, Allahı hər cür naqislik və eyibdən pak tutmağı (tənzih etməyi), ibadəti yalnız Ona məxsus etməyi və Ona tay və şərik qoşmaqdan uzaq durmağı qazandırır.

Uca Allah buyurur: ***"Bu belədir. Çünki Allah Haqdır. (müşriklərin) Ondan başqa dua etdikləri isə batildir. Həqiqətən, Allah Ucadır, Böyükdür." (əl-Həcc, 62).***

Əl-Kəbir, əl-Azim (الكبير، العظيم)

Yəni ki, ucalıq Onun xisləti, əzəmət isə Onun vəsfidir. Uca Allah qüdsi hədisdə buyurur:

"Ucalıq (Kibriya) Mənim libasım, əzəmət isə Mənim izarımdır (bürüncəyimdir). Kim bu ikisindən birində Mənə şərik olmağa çalışsa, onu cəhənnəmə ataram" (Əhməd və Əbu Davud rəvayət etmişdir).[2]

Beləliklə, pak və müqəddəs olan Allah, dərəcəsi ölçülə bilməyən və qulların Onun mahiyyətinə vara bilməyəcəyi ucalıq və əzəmət vəsflərinin sahibidir.

---

[2] Hədisdə Allah bu iki geyimi misal çəkmişdir. Çünki bunlar insanın geyindiyi və bədənini əhatə edən iki geyimdir və heç kəs bu geyimlərdə ona şərik olmur. Mənası o deməkdir ki, İnsanın libasına və bürüncəyinə heç kim şərik olmadığı kimi, ucalıq və əzəmətdə də heç bir məxluq Allaha şərik ola bilməz. Allah daha yaxşı bilir." — "Məalimus-Sünən" (4/ 196).

Bir müsəlman uca Allahın hər şeydən daha böyük olduğuna, nə qədər böyük olursa-olsun hər bir şeyin Allahın ucalığı və əzəməti qarşısında kiçildiyinə inandıqda və iman gətirdikdə – Rəbbinə boyun əyər, Onun hüzurunda acizliyini dərk edər, ibadətin hər bir növünü yalnız Ona yönəldər və bu ibadətə Ondan başqa heç kimin layiq olmadığına inanar. Həmçinin anlayar ki, hər bir müşrik öz Əzəmətli Rəbbini layiqincə qiymətləndirməmişdir. Necə ki, Uca Allah buyurur:

"Onlar Allahı layiqincə qiymətləndirmədilər. Halbuki Qiyamət günü yer bütövlükdə Onun ovucunda olacaq, göylər isə Onun sağ əli ilə bükülәcəkdir. O, pakdır, müqəddəsdir və onların qoşduqları şəriklərdən ucadır!" (əz-Zümər, 67).

Subhənallah! Müşriklər öz itaətlərini və boyun əymələrini, nəinki başqalarına, hətta özlərinə belə bir xeyir və ya zərər vermək gücündə olmayan aciz və zəlil məxluqlara yönəldərkən görəsən ağılları hara getmişdi?! Onlar Əzəmətli Rəbbə, Böyük və Uca olana, üzlərin qarşısında əyildiyi, səslərin heybətindən kəsildiyi, qəlblərin qorxudan titrədiyi və boyunların əyildiyi o Uca Yaradana boyun

əyməyi və itaət etməyi isə tərk etdilər. Aləmlərin Rəbbi olan Allah nə qədər xeyirxahdır, nə qədər ucadır!

Əl-Qaviyy, Əl-Mətin (القوي، المتين)

Allahın ***"əl-Qaviyy"*** adı Qurani-Kərimin bir neçə yerində zikr olunmuşdur. Bunlardan biri də Uca Allahın bu ayəsidir: ***"Allah Öz qullarına qarşı lütfkardır (rəhmlidir). İstədiyinə ruzi verir. O, Güclüdür, Qüdrətlidir!" (əş-Şura, 19).***

Allahın ***"əl-Mətin"*** adı isə Quranda yalnız bir yerdə — Allahın qüvvət sahibi olması vəsfı ilə yanaşı zikr edilmişdir. Uca Allah buyurur: ***"Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir (Sarsılmazdır) !" (əz-Zariyat, 58).***

"Əl-Mətin" adının mənası: son dərəcə güclü, yenilməz güc sahibi. ***"əl Qaviyu"*** adının mənası: heç nəyin qalib gələ bilməyəcəyi, heç kimin məğlub edə bilməyəcəyi və heç kimin Onun hökmünü dəf edə bilməyəcəyi deməkdir.Onun əmri dərhal yerinə yetər və qərarı məxluqatı

üzərində mütləq icra olunar. İstədiyini ucaldar, istədiyini alçaldar, istədiyinə kömək edər, istədiyini isə köməksiz qoyar. Bütün qüvvət Allaha məxsusdur. Allahın kömək etdiyindən başqa heç bir qalib, Onun ucaltdığından başqa heç bir izzət sahibi yoxdur. Uca Allah buyurur: ***"Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Yox, əgər sizi zəlil edərsə, Ondan sonra kim sizə yardım edə bilər?! Qoy möminlər Allaha təvəkkül etsinlər!" (Ali-Imran, 160).***

Şübhəsiz ki, qulun bu ada iman gətirməsi onun qəlbində Allahın hüzurunda öz acizliyini dərk etməsinə, Onun əzəməti qarşısında baş əyməsinə, Ondan qorxmasına və yalnız Ona sığınmasına səbəb olur. Həmçinin Allaha gözəl şəkildə təvəkkül etməyi, Onun əzəmətinə təslim olmağı, bütün işləri Ona həvalə etməyi və Allahın yardımı olmadan heç bir güc və qüvvəyə sahib olmadığını, güc və qüvvənin yalnız Allahdan olduğunu dərk etməyi qazandırır.

Əş-Şəhid, Ər-Raqib (الشهيد الرقيب)

«Əş-Şəhid» adı Qurani-Kərimin bir çox yerində təkrar olunmuşdur. Uca Allah buyurur: ***«Şahid olaraq Allah kifayətdir» (ən-Nisa, 79).***

«Ər-Rəqib» adı isə üç yerdə zikr edilmişdir ki, bunlardan birində ***«əş-Şəhid»*** adı ilə yanaşı gəlmişdir. Uca Allah buyurur: ***«Şübhəsiz ki, Allah sizə nəzarət edəndir» (ən-Nisa, 1)***; həmçinin buyurur: ***«Allah hər şeyə nəzarət edəndir» (əl-Əhzab, 52);*** digər bir ayədə isə (İsa peyğəmbərin dili ilə) belə buyurur: ***«Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni (göyə) qaldırdıqdan sonra isə onlara nəzarətçi Özün oldun. Sən hər şeyə şahidsən» (əl-Maidə, 117).***

«Əş-Şəhid» adının mənası: Hər şeydən xəbərdar olan, Özündən heç bir şey gizli qalmayan, gizli və aşkar bütün səsləri eşidən, incə və nəhəng, kiçik və böyük bütün məxluqatı görən, elmi hər şeyi əhatə edən və bəndələrinin etdikləri əməllərə həm onların xeyrinə (lehinə), həm də əleyhinə şahidlik edən deməkdir.

«Ər-Rəqib» adının mənası: Sinələrin (qəlblərin) gizlətdiyi hər şeydən xəbərdar olan, hər bir kəsin nə qazandığını (nə etdiyini) görüb nəzarət edən, məxluqatı qoruyan və onları ən gözəl nizam və kamil idarəçiliklə yaşadan deməkdir. O, Özündən heç bir şeyin gizli qalmadığı, görməsi ilə görülə bilən hər şeyi nəzarətdə saxlayan, hər şeyi əhatə edən eşitməsi ilə eşidilən hər şeyi duyan və hər şeyi ehtiva edən elmi ilə bütün məxluqata nəzarət edəndir.

Bu adların və onların ifadə etdiyi mənaya iman gətirmək bəndənin qəlbində, hər bir işində və hər bir halında Allaha qarşı muraqaba (daimi nəzarət və məsuliyyət hissi) oyadır. Çünki muraqaba — bəndənin hər an, hər saniyə, hər nəfəs və hər göz qırpımında Uca Allahın onu izlədiyini, ona baxdığını, sözünü eşitdiyini və əməlindən xəbərdar olduğunu bilməsinin bir bəhrəsidir.

Əl-Muhəhymin, Əl-Muhit (المهيمين، المحيط)

"Əl-Müheymin" adı Quranı Kərimdə yalnız bir yerdə zikr olunmuşdur, o da Uca Allahın bu ayəsidir:

"O, Özündən başqa heç bir ilah olmayan, Məlik (göylərin və yerin mülkünün sahibi), Qüddus (bütün qüsurlardan pak), Salam (bütün eyib və naqis sifətlərdən uzaq), Mömin (haqqı təsdiq edən və qullarına əmin-amanlıq bəxş edən), Muhəymin (hər bir şeyi müşahidə edən), Əziz (yenilməz güc-qüvvət sahibi), Cabbar (istədiyi hər hansı bir şeyə məcbur etməyə qadir olan), Mutəkəbbir (əzəmətli, təkəbbürlü və məxluqata aid sifətlərdən uzaq) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır." (əl-Həşr, 23)

"Əl-Muhəymin" adının mənası: işlərin gizli tərəflərindən və sinələrin gizllətdiklərindən agah olan, hər şeyi elmi ilə əhatə edən, bəndələrin etdiklərinə şahid olan, onlardan baş verən hər bir söz və əmələ nəzarət edən, əməllərindən heç bir şey Ondan gizli qalmayan və nə yerdə, nə də

göydə zərrə qədər bir şey Ondan uzaq (və gizli) olmayan deməkdir.

"Əl-Muhit" adı isə Qurani Kərimdə bir neçə yerdə zikr olunmuşdur. Uca Allah buyurur:

"Allah hər şeyi əhatə edəndir." (ən-Nisa, 126)

Və Uca Allah buyurur:

"Şübhəsiz ki, Allah onların nə etdiklərini əhatəyə almışdır." (Əli İmran, 120)

Bu, Allahın hər şeyi elm, qüdrət və qahr (hökmranlıq) baxımından əhatə etdiyinə dəlalət edən bir addır

Elm baxımından əhatə etməsi: Yaratdıqlarından zərrə qədər bir şey belə Ondan gizli qalmaz.

Qüdrət baxımından əhatə etməsi: Nə yerdə, nə də göydə heç bir şey Onu aciz qoya bilməz.

Qahr (hökmranlıq) baxımından əhatə etməsi: Məxluqat Onun əlindən çıxmağa və ya Ondan qaçmağa qadir deyildir.

Uca Allah buyurur: ***"Ey cin və insan tayfası! Əgər göylərin və yerin hüdudlarını yarıb keçə***

bilərsinizsə, keçin! Siz ancaq qüvvətlə keçə bilərsiniz.” (ər-Rəhman, 33)

Yəni: Allahın əmrindən və qədərindən qaçmağa gücünüz çatmaz, çünki O, hər şeyi elm, qüdrət və qəhr baxımından əhatə edəndir.

Əl-Muqit (المقيت)

“əl-Muqît” adı Qurani-Kərimdə yalnız bir yerdə keçir, o da Uca Allahın bu ayəsidir:

“Kim yaxşı bir işə vasitəçilik edərsə, ona (bunun savabından) bir pay düşər, kim də pis bir işə vasitəçilik edərsə, ona da (onun günahından) bir pay düşər. Allah hər bir şeyə şahiddir və hər bir əməlin qarşılığını verəndir.”. (ən-Nisa, 85)

İbn Kəsir (Allah ona rəhmət etsin) [bu ayənin təfsirində] demişdir:

“Uca Allahın: «Allah hər bir əməlin qarşılığını verəndir » ayəsi barədə İbn Abbas, Ata, Atiyyə, Qatadə və Mətar əl-Varraq demişlər ki, «Əl-Muqit» —Əl- Həfiz (Qoruyan, hər şeyi nəzarətdə

saxlayan) deməkdir. Mücahid onun Əş-Şəhid (Hər şeyə şahid olan), digər bir rəvayətdə isə Əl-Həsib (Hesab soran) mənasına gəldiyini bildirmişdir. Səid ibn Cubeyr, əs-Suddi və İbn Zeyd isə onun Əl-Qadir (Hər şeyə gücü yetən) olduğunu qeyd etmişlər. Abdullah ibn Kəsir «Əl-Muqît» adına Əl-Vasib (Daimi olaraq var olan), əd-Dahhak isə Ər-Razzəq (Ruzi verən) mənasını vermişdir".

Bu adın sadalanan bütün bu mənaları özündə cəmləşdirməsinə heç bir maneə yoxdur. Belə ki, bu adın mənası:

Bəndələri, onların hallarını və ehtiyac duyduqları şeyləri Elmi ilə əhatə edən,

Onları Qüdrəti ilə bürüyən

Onların qorunmasını, ruzisini və ehtiyaclarının qarşılanmasını Öz üzərinə götürəndir.

O, bədənləri müxtəlif yeməklər və ruzilərlə qidalandırdığı kimi, bəndələrindən dilədiyinin qəlbini də elm və imanla qidalandırır.

Əl-Vasi (الواسع)

Allahın **“əl-Vasi”** adı Qurani Kərimin bir neçə ayəsində təkrarlanmışdır.

Onun mənası: Sifətləri, vəsfləri və onlarla bağlı olan hər bir şeyi geniş (sonsuz) olandır. Belə ki, heç kəs Ona layiqincə tərif edə bilməz, əksinə O, Özü Özünə tərif etdiyi kimidir. Əzəməti, səltənəti və mülkü geniş olandır; lütfü, ehsanı geniş, comərdliyi və kərəmi böyük olandır.

Uca Allah Öz elminin və rəhmətinin genişliyini bəyan edərək belə buyurmuşdur: ***“Ey Rəbbimiz! Sənin rəhmətin və elmin hər şeyi əhatə etmişdir.” (əl-Mumin, 7).*** Ruzisinin genişliyini bəyan edərək belə buyurmuşdur: ***“Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər. Allah (lütfü) geniş olandır, (hər şeyi) biləndir.” (ən-Nur, 32).*** Bağışlamasının genişliyini bəyan edərək isə belə buyurmuşdur: ***“Allah isə sizə Öz tərəfindən bağışlanma və lütf vəd edir. Allahın (lütfü) genişdir, O (hər şeyi) biləndir.” (əl-Bəqərə, 268).***

Onun **“əl-Vasi”** adının təzahürlərindən biri də budur ki, O,bəndələrinin dinini geniş (asan) etmiş

və onları gücləri çatmayan şeylərlə mükəlləf etməmişdir (yükləməmişdir). Uca Allah belə buyurub: ***"Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər." (əl-Bəqərə, 286).***

Bəxş etdiyi və asanlaşdırdığı hər şeyə görə Allaha Rəbbimizin sevdiyi və razı qaldığı şəkildə — çoxlu, pak və bərəkətli həmdlər olsun!

Əl-Həfiz, Əl-Həəfiz (الحفيظ الحافظ)

Uca Allah belə buyurub : ***Şübhəsiz ki, Rəbbim hər şeyi hifz edəndir" (Hud, 57).*** Həmçinin Uca Allah belə buyurub: ***"Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və Biz də onu qoruyacağıq." (əl-Hicr, 9).***

Bu iki əzəmətli ad Uca Allahın qoruma sifəti ilə vəsf olunduğuna dəlalət edir. Uca Allahın Öz bəndələrini qoruması iki növdür: ümumi və xüsusi.

Ümumi qoruma: Allahın onlara yemək, içmək və havanı asanlaşdırması (bəxş etməsi) ilə, həmçinin onları öz mənafelərinə, onlar üçün təqdir edib hökm buyurduğu zəruri ehtiyaclara doğru yönəltməsi ilə olan qorumasıdır. Bu, Uca Allahın:

“(Musa) dedi: “Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da (ona) doğru yolu göstərəndir!” (Taha, 50) ayəsində bəhs edilən ümumi hidayətdir. Həmçinin buraya hər cür xoşagəlməz halları, zərərləri və şərləri onlardan uzaqlaşdırmaqla qoruması da daxildir. Bu qorumada həm yaxşı (itaətkar), həm də günahkar bəndə, hətta heyvanlar və digər məxluqlar da ortaqdırlar. Allahın əmri ilə Adəm övladını qoruyan mələklər vəzifələndirilmişdir; necə ki, Uca Allah belə buyurub: ***“Onu (insanı) həm önündən, həm də arxasından təqib edən mələklər vardır. Onlar Allahın əmri ilə onu qoruyurlar” (ər-Rad, 11).*** Yəni, Allahın əmri ilə, ona zərər verə biləcək hər şeyi ondan dəf edirlər. Hansı ki, əgər Allahın qoruması olmasaydı, o zərərli şeylərin hamısı birbaşa ona yönələrdi.

Xüsusi qoruma isə: Allahın Öz dostlarını (övliyalarını) yuxarıda qeyd olunanlara əlavə olaraq onların imanlarını azdırıcı şübhələrdən, ağuşuna alıb aparan fitnələrdən və məhvedici şəhvətlərdən qoruması, onları bunlardan salamat saxlamasıdır. Həmçinin onları cinlərdən və

insanlardan olan düşmənlərindən qoruyaraq, düşmənlərinə qarşı onlara yardım etməsi, düşmənlərin hiylə və qəsdlərini onlardan uzaqlaşdırmasıdır. Necə ki, Uca Allah belə buyurub: ***"Şübhəsiz ki, Allah iman gətirənləri müdafiə edər" (əl-Həcc, 38).*** Allahın bəndəni müdafiə etməsi (qoruması) bəndədə olan imanın dərəcəsinə görə olar.

Məhz buna görə də Peyğəmbər ﷺ İbn Abbasa (Allah onlardan razı olsun) nəsihətində demişdir: ***"Allahı (Onun dinini) qoru ki, Allah da səni qorusun". (Əhməd və Tirmizi rəvayət etmişdir).*** Yəni, Onun əmrlərini yerinə yetirməklə, qadağan etdiklərindən çəkinməklə və hüdudlarını aşmamaqla [dinini] qoru ki, O da səni nəfsin, dinin, malın, övladın və Uca Allahın sənə bəxş etdiyi bütün nemətlər barəsində səni qorusun.

Əl-Valiy, Əl-Movlə (الولي، المولى)

Bu iki ad Qurani-Kərimdə təkrar-təkrar zikr olunmuşdur. Uca Allah belə buyurub:

"Yoxsa onlar özlərinə Allahdan başqa himayəçilər götürdülər. (Halbuki,) Himayədar yalnız Allahdır. O, ölüləri dirildir. O, hər şeyə qadirdir." (əş-Şura, 9).

Uca Allah yenə belə buyurub

"Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın. O sizin Himayədarınızdır. O nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!" (əl-Həcc, 78).

Və yenə belə buyurub:

"Halbuki, sizin himayəçiniz Allahdır. O, kömək edənlərin ən yaxşısıdır." (Ali-İmran, 150).

"Uca Allahın bəndələri üzərindəki vilayəti və onları öz himayəsinə götürməsi iki növdür."

1.Ümumi himayədarlıq .

Bu, Uca Allahın bütün məxluqatı idarə etməsi, onlar üzərindəki tədbiri, qulları üçün dilədiyi xeyir və şəri, fayda və zərəri təqdir etməsidir (lazım

bildiyi şəkildə ölçüb-biçməsidir). Həmçinin mülk (hökmranlıq) mənalarının hamısının Allaha aid olduğunu, bütün qulların Onun idarəsinə boyun əydiyini və heç bir kəsin Onun istəyinin nüfuzundan və qüdrətinin əhatəsindən kənara çıxa bilməyəcəyini təsdiq edir.

Bu (himayədarlıq növü) mömin və kafiri, itaətkarı və günahkarı – hamını əhatə edir. Buna Uca Allahın bu ayəsi dəlalət edir:

"Sonra onlar özlərinin həqiqi Himayədarı olan Allaha qaytarılacaqlar. Hökm yalnız Ona məxsusdur və O, ən tez haqq-hesab çəkəndir" (əl-Ənam, 62).

2.Xüsusi himayədarlıq.

Bu xüsusi himayədarlıq və dostluq növü Qurani-Kərimdə və Peyğəmbərin sünnəsində ən çox rast gəlinənidir. Bu, olduqca uca bir dostluq və kəramətli bir himayədir ki, Allah bunu Öz mömin qullarına, itaətkarlara və təqvalı bəndələrinə xas etmişdir.

Uca Allah Qurani-Kərimdə bəyan etmişdir ki, bu uca dostluğa (himayəyə) yalnız sadiq bir iman, gizlində və aşkarda Allahdan qorxmaq (təqva), həmçinin İslamın fərzləri və dinin bəyənilən nafilə əməlləri ilə Ona yaxınlaşmağa çalışmaqla nail olmaq olar. Necə ki, Uca Allah buyurub:

"Bilin ki, Allahın dostlarına heç bir qorxu yoxdur və onlar kədərlənməzlər. Onlar iman gətirən və (pis əməllərdən çəkinərək) Allahdan qorxan kimsələrdir." (Yunus, 62-63).

Əl-Əvvəl,Əl-Əəxir,Əz-Zaahir,Əl-Bəətin

(الأول، الآخر، الأظاهر، الباطن)

Bu dörd ad Qurani-Kərimin yalnız bir yerində birlikdə zikr edilmişdir. Uca Allah belə buyurub: ***«O, Əvvəldir, Axırdır, Zahirdir, Batindir. O, hər şeyi biləndir.» (əl-Hədid, 3).***

Bu gözəl adların təfsir edilməsi, məna və məzmununun bəyan olunması üçün ən xeyirli mənbə Peyğəmbərin ﷺ sünnəsində Rəbbinə etdiyi

duada varid olan təfsirdir Belə ki, bu dua həmin adların mənalarının bəyanını və dəlalət etdiyi xüsusların aydınlaşdırılmasını ehtiva edir.

Müslim öz “Səhih”ində Əbu Hüreyrədən (radiyallahu anhu) rəvayət edir ki, o demişdir: «Allahın Rəsulu ﷺ bizə yatağımıza girdiyimiz zaman belə etməyi əmr edərdi: ***“Allahım! Yeddi qat səmanın Rəbbi, böyük Ərşin Rəbbi, bizim Rəbbimiz və hər bir şeyin Rəbbi! Toxumu və çəyirdəyi cücərdib çatladan, Tövratı, İncili və Furqanı nazil edən! Kəkilindən tutduğun (idarə etdiyin) hər bir şeyin şərindən Sənə sığınıram. Allahım! Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən iç üzdə heç nə yoxdur! Borcumuzu ödə, bizi yoxsulluqdan qurtar!”».***

Peyğəmbər ﷺ bu geniş (əhatəli) duada hər bir adın mənasını bəyan etmiş və ona zidd olanı isə nəfiy etmişdir (inkar etmişdir). Bu isə izahın ən ali dərəcəsidir.”

Əl-Həkim (الحكيم)

Allahın ***«əl-Həkim»*** (böyük hikmət sahibi, mütləq hökmran) adı Qurani-Kərimdə yüzə yaxın yerdə varid olmuşdur. Uca Allah belə buyurub: ***«O, Öz qulları üzərində mütləq hakimiyyət sahibidir. O, Hikmətlidir, (hər şeydən) Xəbərdardır.» (əl-Ənam, 18)*** və digər ayədə isə belə buyurub : ***«Şübhəsiz ki, Allah qüdrətlidir, hikmət sahibidir.» (əl-Bəqərə, 220).***

Bu əzəmətli ad Allah üçün mütləq hökmün (kamil hökmranlığın) və kamil hikmətin sabit olmasına dəlalət edir.

Kamil hikmətə gəldikdə — bu, Sübhanəhu və Təalanın həm yaratmasında , həm də əmrində və şəriətində hikmət sahibi olması ilə sabitdir. Belə ki, O, hər bir şeyi öz yerinə qoyur və layiq olduğu məqama yerləşdirir. Onun hikmətinə qarşı heç bir sual yönəldilə bilməz və deyilən heç bir söz Onun hikmətinə nöqsan gətirə bilməz.

Kamil hökmə gəldikdə isə — bu, hökmün yalnız Allaha aid olması faktı ilə sabitdir; O, qulları arasında istədiyi kimi hökm edir və onlar

barəsində dilədiyini qərarlaşdırır. Onun hökmünü geri çevirən, Onun qəzasını (hökmünü) təftiş edib ləğv edən yoxdur. Uca Allah belə buyurub: ***«Hökm yalnız Allahındır!» (Yusuf, 40)*** və başqa ayə isə belə buyurub: ***«O, Öz hökmünə heç kəsi şərik etməz!» (əl-Kəhf, 26)***. İnsanlar öz aralarında verilən hökmlərə etiraz edib yenidən baxılmasını tələb etdikləri kimi, heç kəsin Allahın hökmünə etiraz etmək və yenidən baxılmasını tələb etmək haqqı yoxdur. Uca Allah belə buyurub: ***«Allah (istədiyi kimi) hökm verir. Heç kəs Onun hökmünü ləğv edə bilməz. O (Allah) tez haqq-hesab çəkəndir.» (ər-Rəd, 41).*** Onun bəndələri barəsindəki hökmü mütləq icra olunandır, onu geri döndərəcək heç bir qüvvə yoxdur.

Uca Allahın hökm sahibi olmasının sabit olması, bütün digər gözəl adların və uca sifətlərin də sabit olmasını ehtiva edir. Çünki Əs-Səmi, Əl-Bəsir, Əl-Alim, Əl-Xabir, Əl-Mutəkəllim və Əl-Mudəbbir olmadan və digər bu kimi ad və sifətlərə sahib olmadan mütləq Hökm Sahibi (Hakim) olmaq qeyri-mümkündür.

Əl-Ğaniy (الغني)

“Bu ad Qurani-Kərimin on səkkiz yerində varid olmuşdur. Uca Allah buyurur: ***«Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir.» (Fatir, 15).***

Beləliklə, O, Öz zatı ilə Zəngin olandır. Onun hər cəhətdən və hər baxımdan tam və mütləq zənginliyi vardır. Bu, Onun kamilliyi və heç bir cəhətdən naqisliyin toxunmadığı kamil sifətləri səbəbilədir.

Onun zənginliyinin kamilliyindəndir ki, itaət edənlərin itaəti Ona heç bir fayda verməz, asi olanların asiliyi də Ona heç bir zərər verməz. Əgər yer əhlindən olan insanların hamısı birlikdə iman gətirsəydi, bu Onun mülkünü zərrə qədər də artırmazdı. Əgər onların hamısı birlikdə küfr etsəydilər, bu da Onun mülkündən heç nə əskiltməzdi.

Kim Rəbbini bu əzəmətli vəsf ilə tanıyarsa, özünü də tanımış olar. Kim Rəbbini mütləq zənginliklə tanıyarsa, özünü mütləq yoxsul və möhtac kimi

tanıyar. Kim Rəbbini tam qüdrətlə tanıyarsa, özünü tam aciz kimi tanıyar. Kim Rəbbini tam izzətlə tanıyarsa, özünü tam miskin və möhtac kimi tanıyar. Kim Rəbbini tam elm və hikmətlə tanıyarsa, özünü cahil kimi tanıyar.

Bəndənin Allaha olan möhtaclığını dərk etməsi hansı ki, bu dərk həmin mərifətin bəhrəsidir bəndənin dünya və axirətdəki səadətinin və nicatının göstəricisidir.

Əl-Kərim, Əl-Əkram (الكريم، الأكرم)

«əl-Kərim» adına gəldikdə isə, bu ad Qurani-Kərimdə üç yerdə varid olmuşdur. Uca Allah belə buyurub: ***«Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, (bilsin ki,) həqiqətən, Rəbbim (onun şükrünə) möhtac deyil, Səxavətlidir!» (ən-Nəml, 40);*** və digər ayədə belə buyurub: ***«Ey insan! Səni Kərim olan Rəbbinə qarşı aldadan nədir?!» (əl-İnfitar, 6);*** həmçinin digər ayədə belə buyurub: ***«Haqq Hökmdar olan Allah (hər şeydən) ucadır! Ondan başqa (ibadətə***

layiq olan) heç bir məbud yoxdur. O, Kərim Ərşin Rəbbidir.» (əl-Muminun, 116) —

Bu son ayədə **“əl-Kərim”** sözünü **“ər-Rəbb”** sözünə sifət olaraq adliq halında oxunan qiraətə əsasən belədir.

«əl-Əkram» adı isə Quranda yalnız bir yerdə varid olmuşdur ki, o da Uca Allahın bu ayəsidir: ***«Oxu! Sənin Rəbbin Əkramdır (ən uca kərəm sahibidir)!» (əl-Ələq, 3).***

Əl-Əkram adı (səxavət, lütf və aliliyin) Əziz və Cəlil olan Allahın ən böyük kərəm sahibi olmasına dəlalət edir. ***«Kərəm»*** ləfzi bütün gözəllikləri, yaxşılıqları və tərifəlayiq xislətləri özündə cəm edən genişmənalı bir məfhumdur. Onda məqsəd sadəcə bəxş etmək (əta etmək) deyildir, lakin bəxş etmək də bu mənanın ayrılmaz bir hissəsidir. Məhz buna görə də elm əhlindən bu adın mənası barəsində bir çox fərqli rəylər varid olmuşdur:

Bəziləri demişlər: Mənası «xeyri və bəxşişi çox olan» deməkdir;

Bəziləri: «Xeyri daimi və ardıcıl olan» deyə bəyan etmişlər.

Bəziləri: «Uca qədir-qiymət və böyük şan-şöhrət sahibi olan» mənasına gəldiyini bildirmişlər.

Digərləri: «Bütün nöqsan və eyiblərdən pak (münəzzəh) olan» deməkdir,— demişlər.

Həmçinin: «İkram edən, nemət verən və lütf göstərən» mənası da qeyd edilmişlər.

Bəzilərinə görə: «Əvəz ummadan verən», digərlərinə görə isə «heç bir səbəb olmadan nemət bəxş edən» deməkdir.

«Həm ehtiyacı olana, həm də ehtiyacı olmayana verən» deyənlər də olmuşdur.

Həmçinin bu ada «Vəd etdiyi zaman vədinə sadiq qalan, böyük-kiçik fərq etmədən hər bir ehtiyacın yalnız Ona ərz olunduğu» mənaları verilmişlər.

Bəziləri isə: «Ona üz tutub vəsilə olanı zay etməyən və Sığınana arxa çevirməyən» mənası ilə izah etmişlər.

Digər bir rəyə görə isə bunun mənası: «Günahları bağışlayan və pisliklərdən keçən» deməkdir.

Bu əzəmətli adın mənası haqqında deyilən bu kimi bir çox rəylərin hər biri haqdır. Çünki bu ad tək bir mənaya deyil, bir çox geniş mənalara dəlalət edən

Allahın gözəl adlarındandır. Əgər bu adın mənası barəsində deyilənlərin hamısını nəzərə alsan, görərsən ki, bununla Uca Allah üçün sabit olan saysız-hesabsız möhtəşəm mənalar və ali vəsflər varid olmuşdur.”

Əs-sələm (السلام)

Bu ad Qurani-Kərimdə yalnız bir dəfə, Uca Allahın bu ayəsində zikr edilmişdir:

“O, Özündən başqa heç bir ilah olmayan, Əl-Məlik (göylərin və yerin mülkünün sahibi), Əl-Qüddus (bütün qüsurlardan pak), Əs-Sələm (bütün eyib və naqis sifətlərdən uzaq), Əl-Mömin (haqqı təsdiq edən və qullarına əmin-amanlıq bəxş edən), Əl-Muhəymin (hər bir şeyə müşahidə edən), Əl-Əziz (yenilməz güc-qüvvət sahibi), Əl-Cabbar (istədiyi hər hansı bir şeyə məcbur etməyə qadir olan), Əl-Mutəkəbbir (kibriya və əzəmət sahibi və məxluqata aid sifətlərdən uzaq) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır.” (əl-Həşr surəsi, 23).

Bu uca adın mənası budur ki, Allah Öz zatında, sifətlərində və fellərində kamil olduğu üçün hər cür eyibdən, qüsurdan və naqislikdən uzaqdır. O, hər baxımdan Əs-Sələmdir — hər cür salamatlığın sahibidir və salamatlığın mənbəyidir.

Allah Öz zatında təsəvvür edilə biləcək hər cür eyib və naqislikdən uzaqdır. Sifətlərində hər cür eyib və naqislikdən uzaqdır. Fellərində isə hər cür eyibdən, naqislikdən, şərdən, zülmdən və hikmətə uyğun olmayan hər bir işdən uzaqdır.

Pak və müqəddəs olan Allah zövcə və övlad sahibi olmaqdan, Özünə bənzər və tay olan birinin, yardımçının, mislinin, rəqibinin və şərikinin olmasından uzaqdır.

Bu ad Uca Allahın bütün sifətlərini əhatə edir. Çünki Onun hər bir sifəti hər cür eyib və naqislikdən uzaqdır (salamatdır). İbn əl-Qeyyim (rahimahullah) bu məsələni kifayət qədər ətraflı izah etmiş, əsaslandırmış, tutarlı və möhkəm bir bəyanla şərh edərək sözünü bu şəkildə tamamlamışdır:

“Diqqət yetir, Onun «əs-Sələm» adı Mübarək və Uca Allahın eyiblərdən uzaq və pak olduğu hər

şeyi necə də özündə ehtiva edir! Bu adı əzbər bilən nə qədər insan var ki, bu adın özündə hansı sirləri və mənaları saxladığından xəbərsizdir”.

Əl-Quddus, Əs-Subbuh (القدوس، السبوح)

Uca Allahın ***“əl-Quddus”*** adı Qurani-Kərimdə iki yerdə keçmişdir. Uca Allah belə buyurub:

“O, Özündən başqa heç bir ilah olmayan, Məlik (göylərin və yerin mülkünün sahibi), Qüddus (bütün qüsurlardan pak), Salam (bütün eyib və naqis sifətlərdən uzaq), Mömin (haqqı təsdiq edən və qullarına əmin-amanlıq bəxş edən), Muhəymin (hər bir şeyə müşahidə edən), Əziz (yenilməz güc-qüvvət sahibi), Cabbar (istədiyi hər hansı bir şeyə məcbur etməyə qadir olan), Mutəkəbbir (əzəmətli, təkəbbürlü və məxluqata aid sifətlərdən uzaq) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır.” (əl-Həşr surəsi, 23).

Uca Allah digər bir ayədə isə belə buyurub:

“Göylərdə və yerdə olanların hamısı, Məlik (göylərin və yerin mülkünün sahibi), Qüddus (bütün qüsurlardan pak), Əziz (yenilməz güc-qüvvət sahibi) və Hikmətli olan Allahı təsbih edirlər.” (əl-Cumə, 1)

“əs-Subbuh” adına gəlincə, bu ad Sünnədə (hədislərdə) varid olmuşdur. İmam Müslimin öz ***“Səhih”*** əsərində möminlərin anası Aişədən (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə bildirilir ki, Rəsulullah ﷺ rüku və səcdələrində belə deyərdi:

“Subbuhun, Quddusun, rabbul-məlaikəti vər-ruh” (Mələklərin və Ruhun (Cəbrayılın) Rəbbi olan Allah hər cür nöqsanlardan uzaqdır, pakdır, müqəddəsdir).

Peyğəmbər (əleyhissalatu vəssalam) bu hədisdə ***“təsbih”*** (Allahı pak tutmaq) ilə ***“təqdis”*** (Allahı müqəddəs saymaq) məfhumlarını bir arada cəm etmişdir. Necə ki, Uca Allah mələklərin Onu təsbih və təqdis etməsini zikr edərək belə buyurub:

“Biz Səni həmd-səna ilə tərifləyiriyimiz və Səni müqəddəs tutduğumuz halda,” (əl-Bəqərə, 30)

Burada bilmək lazımdır ki, Allahı təsbih və təqdis etmək – Ona yaraşan şəkildə bütün tərifləri və kamillik sifətlərini təsdiq etməklə bərabər, Onu hər cür eyib və nöqsan sifətlərdən uzaq (pak) tutmaqla olur.

Şeyxulisləm İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir:

"Allahı təsbih etmək əmri – Onu hər bir eyib və nöqsan sifətlərdən uzaq tutmağı, həmçinin tərifləmə layiq olduğu bütün tərifləri Onun üçün təsdiq etməyi tələb edir. Bu isə öz növbəsində Allahı pak tutmağı (təsbih), Ona həmd etməyi (təhmid), Onu ucaltmağı (təkbir) və Onu təkləşdirməyi (tövhid) ehtiva edir."

Bununla da məlum olur ki, bidət əhlindən olan muattilənin (Allahın sifətlərini inkar edənlərin) – guya Allahı pak və müqəddəs tutduqları bəhanəsi ilə – Onun sifətlərini rədd etmələri, onları təsdiq etməmələri, həqiqətlərini və mənalarını danmaları, əslində, heç bir şəkildə Allahı pak və müqəddəs tutmaq (təsbih və təqdis) demək deyildir. Əksinə, bu, bir inkardır, təkzibdir, zəlalətdir və böhtandır.

İbn Rəcəb (rahimahullah) Uca Allahın: ***"Sən həmd-səna ilə Rəbbini tərifla və səcdə edənlərdən ol!"*** ayəsinin mənası barədə belə demişdir:

"Yəni, Allahı Özünü vəsf etdiyi həmdlə təsbih et. Çünki hər təsbih bəyənilən (məqbul) deyildir. Necə ki, mötəzilələrin təsbihi Allahın bir çox sifətlərinin inkar edilməsini tələb edir".

Onun (rahimahullah): ***"Çünki hər təsbih bəyənilən deyildir"*** sözü olduqca mühüm bir kəlamdır. Ona görə də Allahın sifətlərini rədd edərək, onları danaraq və təsdiq etməyərək Onu pak tutmağa çalışmaq, sahibinə tərif qazandıran bir əməl deyildir. Əksinə o, son dərəcə qınanılır. Bunu edən kəs Allahı həmd ilə təsbih edənlərdən deyil, əksinə, Onun sifətlərini rədd edən, yox sayan və danan muattilədən (inkarçılardan) olar. Allah bu bəyanı ilə Özünü onların dediklərindən və inkarlarından uzaq tutmuşdur:

"Sənin pak və müqəddəs Rəbbin – qüdrət sahibi olan Rəbbin müşriklərin Onu vəsf etdikləri sifətlərdən uzaqdır. Elçilərə salam olsun! Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur!" (əs-Saffat surəsi, 180-182).

Beləliklə, Allah Özünü peyğəmbərlərə müxalif olanların Ona aid etdiyi vəsflərdən uzaq (pak) tutmuş və peyğəmbərlərin Allah barəsində dediyi sözlər hər cür naqislik və eyibdən uzaq olduğu üçün onlara salam göndərmişdir.

Əl-Həmid (الحميد)

Bu ad Qurani-Kərimdə on yeddi yerdə varid olmuşdur. Uca Allah belə buyurub:

"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir (heç nəyə ehtiyacı yoxdur), Tərifəlayiqdir." (Fatir, 15)

Uca Allah belə buyurub:

"Onlar gözəl kəlamlar öyrənməyə nail olmuş və Tərifəlayiq Allahın yoluna yönəldilmişlər." (əl-Həcc, 24)

"əl-Həmid" adının mənası: Bütün həmd-sənalar Ona məxsusdur; O, zatında, adlarında və sifətlərində tərifəlayiq olandır. Adların ən gözəli, sifətlərin isə ən kamili Onundur. Həmd – sifətlərin

ən genişi, tərifl ərin ən ümumi və ən əzəmətlisidir. Çünki Uca Allahın bütün adları həmd, sifətləri həmd, felləri həmd, hökmləri həmd, ədaləti həmd, düşmənlərindən intiqam alması həmd, dostlarına olan lütfü və ehsanı isə həmddir. Yaradılış və əmr (şəriət) yalnız Onun həmdi ilə ayaqda durmuşdur, Onun həmdi ilə var olmuşdur və Onun həmdi ilə zahir olmuşdur. Yaradılışın qayəsi də Elə Onun həmddir. Beləliklə, Onun pak və uca olan həmdi həm bunun səbəbi, həm qayəsi, həm də təzahürüdür. Onun həmdi hər bir şeyin ruhudur və hər bir şey Onun həmdi ilə ayaqda durur. Onun həmdinin varlıqlarda süzülüb axması və izlərinin zahir olması həm bəsirətlərlə (qəlblərlə), həm də gözlərlə şahid olunan bir həqiqətdir.

Şeyxulisləm İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir:

"Həmd iki növdür: Birincisi, Allahın Öz qullarına etdiyi yaxşılıqlara görə edilən həmdir ki, bu, şükürə daxildir.

İkincisi isə Allahın Öz zatında layiq olduğu kamillik sifətlərinə görə edilən həmdir. Bu cür həmd yalnız kamillik sifətləri ilə vəsf olunana edilə bilər."

Uca Allah Öz Kitabını həmd ilə açmış, Quranın bəzi surələrini həmd ilə başlamış, yaratmağa həmd ilə başlamış və onu həmd ilə bitirmişdir. Əvvəldə də, axırda da həmd Ona məxsusdur; zahirdə də, batində də şükür Onadır. O, Həmiddir (tərifəlayiqdir), Məciddir (Şan-şöhrətlidir).

Əl-Məcid (المجيد)

Bu, Allahın Kitabında iki yerdə zikr olunan əzəmətli adlarından biridir. Uca Allah belə buyurub:

"Ey ev əhli! Allahın rəhməti və bərəkəti sizin üzərinizdədir! Həqiqətən, O, Tərifəlayiqdir, Şan-şöhrətlidir"." (Hud, 73)

Uca Allah belə buyurub:

"Çox bağışlayan da, çox Sevən də Odur! Ərşin sahibidir, Şan-şöhrəti uca olandır!" (əl-Buruc, 14-15)

"Əl-Məcid" sözü ikinci ayədə iki cür oxunmuşdur: **"əl-Məcid"** Uca Allaha sifət olaraq, yəni "əzəmətli, şərəfli olan" mənasında raf (adlıq) halında dammə ilə həmçinin **"əl-Məcid"** Ərşə sifət olaraq, yəni

“Əzəmətli Ərş” mənasında cər (yiyəlik) halında kəsrə ilə oxunmuşdur.

Bu ad, təkcə bir mənaya deyil, bir çox kamil və gözəl vəsflərə dəlalət edən Əsmaül-Hüsnadandır.

Mənası; Geniş və əzəmətli, vəsfləri çox və kəramətli (uca) olan deməkdir. ***“əl-Məcid”*** adı Allahın vəsflərinin əzəmətinə, çoxluğuna və genişliyinə, Onun mülkünün və səltənətinin əzəmətinə, həmçinin qulların ondan heç bir şeyi tam əhatə edə bilməyəcəyi mütləq kamillik, mütləq böyüklük və mütləq gözəllik ki, qullar bunun heç bir tərəfini tam şəkildə əhatə edib qavraya bilməzlər.

Uca Allah Öz Kitabında bir çox ayələrdə Özünü məcid olaraq uca tutmuşdur. Hətta Qurani-Kərimin bütövlükdə hamısı Uca Allahı uca tutmaq və əzəmətləndirmək kitabıdır. Quranın elə bir ayəsi yoxdur ki, orada Allahın gözəl adlarından, uca sifətlərindən və hikmətli fellərindən nəsə zikr olunmasın. Quranın ən əzəmətli ayələri də məhz bunları ehtiva edən ayələrdir. Qurani-Kərimin ən əzəmətli ayəsi olan ***“Ayətül-Kürsi”***də Allahın gözəl adlarından beş ad, Allahın gözəl sifətlərindən isə

iyirmidən çox sifəti vardır. Quranın üçdə birinə bərabər olan ***"əl-İxlas"*** surəsi isə xalis olaraq Allahın gözəl adlarını və əzəmətli sifətlərini bəyan etməyə həsr olunmuşdur. Quranın ən əzəmətli surəsi olan ***"əl-Fatihə"*** surəsinin isə yarısı Allaha tərif (səna) və Onun şənini ucaltmaqdan ibarətdir.

İmam Müslim öz ***"Səhih"ində*** Əbu Hüreyrənin (Allah ondan razı olsun) belə dediyini rəvayət etmişdir: Rəsulullahın ﷺ belə buyurduğunu eşitdim:

"Uca Allah buyurdu: 'Namazı (Fatihə surəsini) Özümlə qulum arasında iki yarıya böldüm və quluma istədiyi veriləcəkdir.' Qul: 'Əlhəmdu lilləhi rabbil-aləmin' (Həmd olsun aləmlərin Rəbbi Allaha) dedikdə, Uca Allah belə buyurar: 'Qulum Mənə həmd etdi.' Qul: 'ər-Rahmənir-Rahim' (Mərhəmətli və Rəhmli olana) dedikdə, Uca Allah belə buyurar: 'Qulum Məni tərifladi.' Qul: 'Məliki yəumiddin' (Haqq-hesab gününün hökmdarına) dedikdə isə Uca Allah belə buyurar: 'Qulum Mənim şənimi ucaltdı.'"

Namaz qılan şəxs təşəhhüd üçün oturduqda Allaha təriflər deyir, Onu ucaldır və bunu ***"İnnəkə***

Həmidun Məcid” (Həqiqətən, Sən Həmidsən, (tərifəlayiqsən) Məcidsən (şan şöhrətlisən) deyərək bitirir. Beləliklə, namazın əvvəli həmd və şəni ucaltmaq, axırı da həmd və şəni ucaltmaqdır. Hətta namazın hamısı, tərifəlayiq və şan-şöhrət sahibi əl-Həmid, əl-Məcid olan Allahı tərif etməkdən və uca tutmaqdan ibarətdir.

Əş-Şəkur, Əş-Şəəkir (الشكور، الشاكر)

“əş-Şəkur” adı Qurani-Kərimdə dörd yerdə varid olmuşdur:

Uca Allah belə buyurub:

“(Allah) onlara mükafatlarını tam olaraq versin və onlara Öz lütfündən artırsın. Həqiqətən, O, bağışlayandır, şükürün əvəzini verəndir.” (Fatir, 30)

Uca Allah belə buyurub:

“Onlar deyəcəklər: ‘Bizdən qəm-qüssəni uzaq edən Allaha həmd olsun! Həqiqətən, Rəbbimiz Bağışlayandır, Şəkurdur!’” (Fatir, 34)

Uca Allah belə buyurub:

"Onlar deyəcəklər: "Həmd, qəm-qüssəni bizdən aparan Allaha məxsusdur! Həqiqətən, Rəbbimiz bağışlayandır, şükürün əvəzini verəndir." (əş-Şura, 23)

Uca Allah belə buyurub:

"Əgər Allaha gözəl bir borc versəniz (malınızı Onun yolunda xərcləsəniz), O bunu sizin üçün qat-qat artırar və sizi bağışlayar. Allah şükürün əvəzini verəndir, həlimdir." (ət-Təğabun, 17)

"əş-Şəakir" adı isə iki yerdə varid olmuşdur:

Uca Allah belə buyurub:

"Kim könüllü olaraq yaxşı bir iş görərsə, (bilsin ki), Allah şükrün əvəzini verəndir, (hər şeyi) biləndir." (əl-Bəqərə, 158)

Uca Allah belə buyurub:

"Əgər şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin! Allah şükrün əvəzini verəndir, (hər şeyi) biləndir." (ən-Nisa, 147)

Bu iki adın varid olduğu altı yerin hamısı – itaət edənlərə savab verilməsi, mükafatların tam

ödənilməsi, lütfün artırılması və savabın qat-qat verilməsi barədə Uca Allahın bir lütf və minnət məqamıdır. Bu da bizə bu iki adın mənasını bəyan edir. Belə ki, ***əş-Şəkur və əş-Şəəkir***: əməl edən heç bir kəsin əməlini Öz dərgahında zay etməyən, əksinə, mükafatı hesabsız şəkildə qat-qat artıran, az bir əməli qəbul edib qarşılığında çoxlu savab, bol bəxşiş və geniş lütf verən, ixlaslı olanların əməllərini hesabsız dərəcədə çoxaldan, şükür edənlərə şükürlərinin qarşılığını verən, Onu zikr edənləri zikr edən Allahdır. Kim Ona bir qarış yaxınlaşarsa, O, həmin kəsə bir dirsək yaxınlaşar. Kim Ona bir dirsək yaxınlaşarsa, O, həmin kəsə bir qalac yaxınlaşar. Kim Onun hüzuruna bir yaxşılıqla gələrsə, onun üçün həmin yaxşılığın gözəlliyini (savabını) artırar və Öz tərəfindən ona böyük bir mükafat verər.

Keçən ayələrdə ***"əl-Ğafur"*** (Bağışlayan) ilə "***əş-Şəkur"*** adları bir arada cəm edilmişdir. Günahlar nə qədər böyük olursa olsun, Pak və Uca olan Allah bütün günahları bağışlayandır. Heç bir günah Ona bağışlamaq baxımından ağır gəlməz. Eləcə də O, zərrə qədər olsa da belə hər bir əməlin

qarşılığını verəndir. Bu səbəbdən müsəlmana yaraşmaz ki, günahları nə qədər böyük olursa-olsun, Allahın onları bağışlayacağına olan ümidini itirsin. Eyni şəkildə, yaxşı əməlləri nə qədər kiçik olursa-olsun, onlardan heç birini əhəmiyyətsiz sayması və kiçik görməsi də doğru deyildir. Çünki Uca Allah ***Ğafurdur, Şəkurdur.***

Əl-Həlim (الحليم)

Bu ad Qurani-Kərimdə bir neçə ayədə zikr olunmuşdur. Uca Allah belə buyurub:

"Şübhəsiz ki, göyləri və yeri zaval olmasınlar (öz oxundan çıxıb yox olmasınlar) deyə, tutub saxlayan Allahdır. Əgər onlar zaval olsalar, Ondan başqa heç kəs onları tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir (bəndələrinə cəza verməkdə tələsməyəndir), Bağışlayandır." (Fatir, 41).

Həmçinin Uca Allah belə buyurub:

"Allah qəlbinizdə olanları bilir. Allah hər şeyi biləndir, Həlimdir." (Əhzab, 51).

Bu adın mənası isə belədir: O, bəndələrinə etdikləri günahlara və asiliklərə görə cəza verməyə tələsməyəndir. Bəndələrinin Ona küfr etdiklərini, asilik etdiklərini gördüyü halda, onlara qarşı həlimlik edir, cəzalarını gecikdirir, onlara möhlət və vaxt verir, tələsmir. Onların asiliklərinə, günahlarının və xətalarının çoxluğuna baxmayaraq, onlara ardı-arası kəsilmədən nemətlər bəxş edir. Günahkarları asiliklərinə görə dərhal cəzalandırmır, tövbə etsinlər deyə onlara möhlət verir, haqqa dönüb qayıtsınlar deyə cəzanı tezləşdirmir.

Uca Allah asilərə, günah sahiblərinə və müxtəlif zülm edənlərə qarşı necə həlim olduğunu xəbər verərək bildirmişdir ki, əgər bəndələrini günahlarına görə dərhal (ilk andaca) cəzalandırsaydı, yer üzündə bir dənə də olsun canlı buraxmazdı. Necə ki, Uca Allah buyurub:

"Əgər Allah insanları etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ buraxmazdı. Lakin (Allah) onlara müəyyən vaxta qədər (əcəl yetişənədək) möhlət verir. Onların əcəli çatdıqda isə, (onu) bircə saat belə nə

qabağa çəkə bilər, nə də yubandıra bilərlər." (Nəhl, 61).

Həmçinin buyurub:

"Rəbbin Bağışlayandır, mərhəmət sahibidir. Əgər (Allah) onları qazandıqları günahlara görə cəzalandırsaydı, onların əzabını tezləşdirərdi. Lakin onların öz vaxtı vardır. (Əzab gələcəyi vaxt) onlar heç bir sığınacaq tapa bilməyəcəklər." (Kəhf, 58).

İnsanlar Ona şərik qoşduqları, Onun qəzəbinə səbəb olacaq əməllər etdikləri, Ona qarşı çıxmaqda, dininə qarşı vuruşmaqda və övliyalarına (sevimli bəndələrinə) düşmənçilik etməkdə canfəşanlıq göstərdikləri halda belə, Allah onlara qarşı həlimlik edir, onlara müxtəlif pak ruzilər yetirir, ruzi verir və onlara salamatlıq bəxş edir. Necə ki, "Səhiheyn"də (Buxari və Müslimdə) Əbu Musa əl-Əşərinin (radiyallahu anhu) rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur:

"Eşitdiyi əziyyətə qarşı Allahdan daha səbirli olan yoxdur. Onlar Onun övladı olduğunu iddia edirlər, O isə yenə də onlara salamatlıq verir və onları ruziləndirir."

Uca Allahın Uxdud (Xəndək) sahiblərinə qarşı göstərdiyi həlimliyə dair isə ayədə belə buyurub:

"Şübhəsiz ki, mömin kişilərə və mömin qadınlara işkəncə verib sonra da tövbə etməyənlərə Cəhənnəm əzabı və onları yandırıb-yaxın od əzabı vardır." (Buruc, 10).

Həsən əl-Bəsri (rahimahullah) bu ayə barəsində demişdir:

"Bu kərəmə və səxavətə bir baxın! Onun övliyalarını qətlə yetirdilər, O isə onları tövbəyə və bağışlanmağa dəvət edir."

Əl-Həqq, Əl-Mubin (الحق، المبين)

Bərəkəti bol olan Allahın ***«əl-Həqq»*** adı Qurani-Kərimdə on yerdə zikr edilmişdir. Bunlardan bəziləri Uca Allahın bu ayəsidir:

«O sizin Haqq Rəbbiniz olan Allahdır. Haqdan sonra zəlalətdən başqa nə ola bilər? Siz necə də (haqdan) döndərilirsiniz!» (Yunus surəsi, 32)

Və Uca Allah buyurub:

«Haqq Hökmdar olan Allah (hər şeydən) ucadır! Ondan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur. O, dəyərli Ərşin Rəbbidir.» (Muminun surəsi, 116)

Onun ***«əl-Mubin»*** (Aydınladan, bəyan edən) adı isə yalnız bir yerdə, **«əl-Həqq»** adı ilə yanaşı zikr edilmişdir. Uca Allah belə buyurub:

«O gün Allah onlara özlərinə layiq cəzanı tam verəcək və onlar Allahın Aydın Haqq olduğunu biləcəklər.». (Nur surəsi, 25)

«əl-Mubin» adının mənası: Onun təkliyi (vəhdaniyyəti) açıq-aşkardır aydındır və Onun heç bir şəriki yoxdur.”

«əl-Həqq» adının mənası isə: Nə zatında, nə ad və sifətlərində, nə də uluhiyyətində heç bir şübhə və tərəddüd olmayan deməkdir. O, haqq olaraq ibadət olunandır və Ondan başqa ibadətə layiq heç bir haqq məbud yoxdur. O haqdır, adları və sifətləri haqdır, felləri və sözləri haqdır, dini və şəriəti haqdır, verdiyi bütün xəbərlər haqdır, vədi haqdır, Onunla qarşılaşmaq (hüzuruna çıxmaq) haqdır.

Peyğəmbər ﷺ gecə namazına başlayarkən bu mənaları iqrar (təsdiq) edərək dua edərdi. Necə ki, İbn Abbasın (Allah onlardan razı olsun) rəvayət etdiyi hədisdə deyilir:

«Peyğəmbər ﷺ gecə namazına durduğu zaman belə deyərdi:

"Allahım! Həmd Sənə məxsusdur, Sən göylərin, yerin və onlarada olanların Qəyyumusan. Həmd Sənə məxsusdur, göylərin, yerin və onlarda olanların mülkü Sənindir. Həmd Sənə məxsusdur, Sən göylərin və yerin nurusan. Həmd Sənə məxsusdur, Sən göylərin və yerin hökmdarısan. Həmd Sənə məxsusdur, Sən Haqsan, Sənin vədin haqdır, Sənin sözün haqdır, Cənnət haqdır, Cəhənnəm haqdır, peyğəmbərlər haqdır, Məhəmməd ﷺ haqdır, Qiyamət saatı haqdır. Allahım! Sənə təslim oldum, Sənə iman gətirdim, Sənə təvəkkül etdim, Sənə yönəldim, Sənin köməyinlə (düşmənlərə qarşı) mübarizə apardım və Səni hakim qəbul etdim. Mənim keçmiş, gələcək, gizli və aşkar etdiyim bütün günahlarımı bağışla! Sən irəli keçirənsən (önə çəkənsən) və Sən geri qoyansan

(arxaya salansan). Səndən başqa ibadətə layiq haqq məbud yoxdur”». (Buxari və Muslim rəvayət etmişdir).

Uca Allah Öz Kitabında Onun yeganə haqq məbud olduğuna, Ondan başqasının uluhiyyətinin isə batil, zəlalət, azğınlıq və puçluq olduğuna dair dəlilləri, sübutları və aydın hüccətləri müxtəlif formalarda bəyan etmişdir:

«Bu belədir. Çünki Allah Haqdır. (müşriklərin) Ondan başqa dua etdikləri isə batildir. Həqiqətən, Allah Ucadır, Böyükdür!» (Həcc surəsi, 62 / Loğman surəsi, 30)

Əl-Qadiir, Əl-Qaadir, Əl-Muqtədir

(القدير، القادر، المقتدر)

Bu adların hamısı Quranda zikr olunmuşdur və onlardan ən çox işlənəni ***«əl-Qadiir»***, sonra ***«əl-Qaadir»,*** daha sonra isə ***«əl-Muqtədir»*** adıdır. Uca Allah belə buyurub: ***«Allah hər şeyə qadirdir» (əl-Bəqərə, 284).*** Həmçinin Uca Allah buyurub: ***«De: "De: "(Allah) başınızın üstündən və ya ayaqlarınızın altından sizə əzab göndərməyə, ya da sizi qarışıqlığa salıb dəstə-dəstə etməyə və birinizə digərinin gücünü daddırmağa qadirdir". Gör ayələrimizi necə izah edirik ki, bəlkə başa düşsünlər." (əl-Ənam, 65).*** Və Uca Allah buyurub: ***«Allah hər şeyə qadirdir» (əl-Kəhf, 45).***

Bu adların hamısı isbat edir ki qüdrət Uca Allahın sifətlərindən biridir və Onun kamil qüdrət sahibi olmasına dəlalət edir. O, Öz qüdrəti ilə varlıqları yoxdan var etmiş, Öz qüdrəti ilə onları idarə etmiş, Öz qüdrəti ilə onlara nizam verib kamil surətdə xəlq etmişdir. O, Öz qüdrəti ilə dirildir və öldürür, qulları qarşılıq (mükafat və ya cəza) almaları üçün yenidən dirildir, yaxşılıq edəni yaxşılığına görə mükafatlandırır, pislik edəni isə pisliyinə görə

cəzalandırır. O elə bir qüdrət sahibidir ki, bir şeyi istədikdə ona sadəcə **"Ol!"** deyər, o da dərhal olar. O, Öz qüdrəti ilə qəlbləri istədiyi və dilədiyi tərəfə çevirir və yönəldir. İstədiyini doğru yola yönəldir, istədiyini isə zəlalətə salır. Mömini mömin, kafiri kafir, xeyirxahı xeyirxah, günahkarı isə günahkar edir.

İman əsaslarından biri də qədərə iman gətirməkdir. Uca Allah belə buyurub: ***«Biz hər şeyi (əzəldən təqdir etdiyimiz) bir qədər ilə yaratdıq.» (əl-Qəmər, 49).*** Həmçinin Uca Allah buyurub: ***«...O, hər şeyi xəlq etmiş və ona münasib bir biçim vermişdir.» (əl-Furqan, 2).***

Qədərə iman gətirməyən kəs, Əziz və Cəlil olan Allaha iman gətirmiş olmaz. İmam Əhməd (rahimahullah) demişdir: ***«Qədər Allahın qüdrətidir. Qədəri inkar etmək, Əziz və Cəlil olan Allahın qüdrətini inkar etmək deməkdir».*** Onun sifətlərini və ya onlardan hər hansı birini danmaq, Ona iman gətirmək və Onu təkləşdirmək (Tövhid) ilə ziddiyyət təşkil edir.

İbn Abbas (radiyallahu anhumə) demişdir: ***«Qədər tövhidin nizamıdır. Kim Allahı təkləşdirər (tövhid***

əhli olar) və qədərə iman gətirərsə, bu, qırılmaz, möhkəm bir dəstəkdir (əl-urvətul-vusqa). Kim Allahı təkləşdirib qədəri yalan hesab edərsə, bu yalanlaması ilə tövhidini pozmuş olar».

Bununla yanaşı, Allahın ***«əl-Qadiir», «əl-Qaadir» və «əl-Muqtədir»*** adlarının dəlalət etdiyi qüdrətinə iman gətirməyin bəndəyə həm dünyasında, həm də axirətində çox böyük təsirləri və mübarək bəhrələri vardır. Necə də belə olmasın?! Axı ona (qədərə və qüdrətə) iman gətirmək tövhid çarxının oxu və nizamı, imanın başlanğıcı və tamamı, dinin əsası və sütunudur. Çünki o, imanın rüknlərindən biri və ehsan binasının təməl bünövrəsidir.

Əl-Vədud (الودود)

Bu ad Qurani-Kərimdə iki dəfə varid olmuşdur:

Birincisi: Uca Allahın bu ayəsində:

"Rəbbinizdən bağışlanma diləyin, sonra Ona tövbə edin. Həqiqətən, Rəbbim Rəhmlidir, (bəndələrini) çox sevəndir!" (Hud surəsi, 90)

İkincisi: Uca Allahın bu ayəsindədir

"Həqiqətən, (məxluqatı) ilk dəfə yoxdan yaradan da, (öldükdən sonra) yenidən dirildən də Odur! O, Bağışlayandır, (bəndələrini) çox sevəndir!" (əl-Buruc surəsi, 13-14)

Mənası:

Yəni, peyğəmbərlərini, elçilərini və onların ardıcıllarını sevən və onlar tərəfindən də seviləndir. O, bəndələrinə hər şeydən daha sevimlidir. Onların qəlbləri bütövlükdə Allaha olan sevgi ilə dolmuşdur.

Şeyx Abdurrahmən ibn Sədi (Allah ona rəhmət etsin) bu adın mənası və ifadə etdiyi dərin mərtləblər barədə bəyan etdiyi möhtəşəm bir qaydada belə demişdir:

"Vədud – Öz gözəl vəsfləri, geniş nemətləri, gizli lütfləri, aşkar və gizli bəxşişləri ilə məxluqatına Özünü sevdirəndir. O, həm sevən, həm də sevilən mənasındadır. O, Öz övliyalarını (sevdiyi bəndələrini) və seçilmiş qullarını sevir, onlar da Onu sevirlər. Onları ilk öncə sevən və qəlblərinə bu sevgini yerləşdirən də Odur. Bəndələr Onu sevdikdə isə, bu sevgilərinin qarşılığı olaraq onlara qarşı daha başqa bir sevgi bəsləyir.

Deməli, bütün fəzilət və lütf yenə də Ona qayıdır. Çünki Özünü onlara sevdirəcək, qəlblərini Öz sevgisinə cəlb edəcək və bağlayacaq hər bir səbəbi var edən Odur. Uca Allah, sağlam qəlbləri və doğru fəhmli insanları Özünə cəlb edən geniş, əzəmətli və gözəl vəsflərini zikr etməklə Özünü bəndələrinə sevdirmişdir. Şübhəsiz ki, sağlam qəlblər və ruhlar kamilliyi sevmək fitrəti üzrə yaradılmışdır." (Sitatın sonu)

Bəndə bilsə ki, Rəbbi subhənahu və təalə ***"Vədud"dur*** – Öz dostlarını (saleh bəndələrini) sevir, Ona itaət edənləri sevir. Möminləri, Allahdan qorxanları, səbr edənləri, təvəkkül

edənləri, tövbə edib paklananları, sadiqləri, xeyirxahları (muhsinləri) və bütün itaətkar bəndələri sevir. Zalımları, kafirləri, xainləri, israfçıları, lovğaları və təkəbbürlüləri isə sevmir. O zaman bəndənin üzərinə düşən vəzifə:

Allahın əmrinə itaət etmək,

Doğru sözlərdən və saleh əməllərdən Onun bəyənib razı qaldığı hər şeyi etmək,

Allahın əmrlərini yerinə yetirmək və qadağan etdiklərindən çəkinməklə Ona yaxınlaşmaq,

Onun sevdiyi sözləri, əməlləri, Uca Allahın kəlamını (Quranı), Rəsulunu və onun sünnəsini sevmək və onun ardınca getməyə can atmaqdır.

Məhz bu sayədə Allahın sevgisi qazanılar. Uca Allah buyurub:

"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın!"" (Ali-Imran surəsi, 31)

Peyğəmbərdən ﷺ rəvayət olunan məşhur duada isə belə buyurulur:

"Allahım! Səndən Sənin sevgini, Səni sevənlərin sevgisini və məni Sənin sevgini qazanmağa

yaxınlaşdıracaq əməlin sevgisini istəyirəm.”
(İmam Əhməd və ət-Tirmizi rəvayət etmişlər).

Əl-Bərr (البر)

Bu ad Qurani-Kərimdə yalnız bir yerdə, Uca Allahın bu ayəsində zikr edilmişdir:

Biz bundan öncə Ona (bizi Cəhənnəm əzabından qoruması üçün) dua edirdik. Həqiqətən, O, (qullarına) yaxşılıq edəndir, (onlara qarşı) Rəhmlidir!” (ət-Tur, 28).

Bu adın mənası odur ki, O, Öz xeyirxahlığı, lütfü və bəxşişi ilə bütün məxluqatı bürümüşdür. Nemətləri verən, bəxş etməsi geniş, ehsanı daimi olan Odur. O, əzəli və əbədi olaraq xeyirxahlıq və bəxş etməklə vəsf olunmuş, lütf və ehsanı ilə tanınmışdır. Bəndələrinə bol-bol nemətlər, ardı-arası kəsilməyən bəxşişlər və müxtəlif lütflər bəxş etmişdir. Onun comərdliyinin, xeyirxahlığının və kəraminin bir ölçüsü (həddi-hüdudu) yoxdur. Pak və müqəddəs olan Allah, geniş kərəm, bir-birini təqib edən bəxşiş və bol lütf sahibidir.

Burada bilinməsi vacib olan məsələlərdən biri də budur ki, əl-Bərr olan Allah yaxşılıq əhlini (əhlul-birr) sevir və etdikləri yaxşılıqlar nisbətində onların qəlblərini Özünə yaxınlaşdırır. O, xeyirli əməlləri sevir və buna görə dünyada və axirətdə hidayət, nicat və ucalıq bəxş edərək mükafatlandırır.

"Birr" kəlməsinin əsl mənası xeyir işlərdə genişlik deməkdir. Bu xislətləri özündə cəm edən ən əhatəli ayə Uca Allahın bu ayəsidir:

"Yaxşı əməl heç də üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl (sahibləri) Allaha, Axirət gününə, mələklərə, (hər bir səmavi) kitaba və peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, yoxsullara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə xərcləyən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə, döyüş zamanı səbir edən şəxslərdir. Onlar (imanlarında) doğru olanlardır. Müttəqi olanlar da, elə məhz onlardır." (əl-Bəqərə, 177).

Uca Allah həmçinin buyurur:

“Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə xeyrə nail olmazsınız. (Malınızdan) nə xərcləsəniz, şübhəsiz ki, Allah onu bilir.” (Ali-İmran, 92).

Qatadə (Allah ona rəhmət etsin) bu ayə barəsində belə demişdir:

“Mallarınızdan bəyəndiyiniz və arzuladığınız (sevdiyiniz) şeylərdən xərcləməyincə Rəbbinizin yaxşılığına (və yaxud lütfünə) nail ola bilməzsiniz.” (İbn Cərir ət-Təbəri öz təfsirində rəvayət etmişdir).

Allah hamımızı doğru yola yönəltsin, bizə Öz lütfündən, xeyirxahlığından və comərdliyindən gözləmədiyimiz şəkildə ruzi versin. Şübhəsiz ki, O, (hər şeyi) eşidəndir, duaları qəbul edəndir.

Ər-Rauf (الرؤوف)

Bu ad Qurani-Kərimin on ayəsində zikr edilmişdir.

İbn Cəririn (Allah ona rəhmət etsin) dediyi kimi, «Şəfqət» : «Mərhəmətin ən ali mənasıdır. O, dünyada bütün məxluqata, axirətdə isə onların bir qisminə aiddir». Onlar da Allahın mömin dostları (övliyaları) və təqvalı bəndələridir.

Həmçinin, elm əhlinin Allahın gözəl adlarının fiqhi mövzusunda təsbit etdiyi faydalı qaydalardan biri də budur ki, Quran ayələrinin Allahın gözəl adları ilə bitməsi, həmin ayələrdə qeyd olunan hökmün, ayənin sonundakı o uca adla bağlılığına dəlalət edir. Bunu dərindən düşünmək, qulun Allahın gözəl adlarını fəhm etməsinə (anlamasına) kömək edən ən böyük amillərdəndir.

Bu qəbildən olan ayələrdən Uca Allahın bu ayəsini göstərmək olar:

«Hər bir kəsin etdiyi yaxşı əməlləri də, pis əməlləri də qarşısında hazır görəcəyi gün (qiyamət günü) o, pis əməlləri ilə özü arasında çox böyük bir məsafənin olmasını istəyər. Allah sizi Özündən (əzabından) çəkindirir. Allah

bəndələrinə qarşı Şəfqətlidir (Raufdur)». (Ali-İmran, 30)

Bu ayə ifadə edir ki, Allah Sübhənahu və Təala əzabının şiddətliliyinə və cəzasının böyüklüyünə rəğmən, bəndələrinə qarşı şəfqətlidir. Onun bəndələrinə olan şəfqətindəndir ki, bəndələrini (günahların) pis aqibətindən salamat qalsınlar və nəticələrindən nicat tapsınlar deyə, onları qorxutmuş və azğınlıqdan, fəsaddan çəkindirmişdir. O, Cəllə və Alə, Öz şəfqəti və mərhəməti sayəsində bəndələri üçün xeyirlərə və uca dərəcələrə nail olacaqları yolları asanlaşdırmışdır. Yenə Öz şəfqəti və mərhəməti ilə bəndələrini bəyənilməyən (istənilməyən) şeylərə aparıb çıxaran yollardan çəkindirmişdir.

Digər bir misal:

Uca Allahın bu ayəsidir:

«Onlardan sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı heç bir kin-küdurətə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən (Raufdur, Rəhimdir)"». (Həşr, 10)

Bu da Allahın mömin bəndələrinə olan mərhəmətindən və şəfqətindəndir ki, onların arasında iman əhdini, din bağını və təqva əlaqəsini möhkəmləndirmiş, onlardan sonra gələni əvvəl gələni sevən və onun üçün hər bir xeyri dua edən etmişdir. Bizim Mövlamız, Rauf və Rəhim olan Allahın lütf etdiyi bu bəxşiş nə qədər uca, bu nemət nə qədər böyükdür!

Əl-Həsib, Əl-Kəfi (الحسيب، الكافي)

Uca Allah buyurur: **“Haqq-hesab çəkməyə Allah yetər!” (ən-Nisa, 6)** və başqa bir ayədə buyurur: **“Məgər Allah Öz quluna kifayət deyilmi?! (Müşriklər) isə səni (Allahdan) başqaları ilə qorxudurlar. Allahın azdırdığı kimsəyə doğru yol göstərən tapılmaz.” (əz-Zumər, 36).**

“Əl-Həsib”: Qullarının din və dünya işlərinə aid onlara narahatlıq verən hər bir şeydə onlara kifayət edən, ehtiyac duyduqları hər şeyi onlar

üçün asanlaşdıran və bəyənmədikləri (xoşlamadıqları) hər bir şeyi onlardan uzaqlaşdırandır.

"Əl-Həsib" adının mənalarından biri də odur ki, O, qullarının etdiyi hər bir şeyi qoruyandır (qeydə alandır). Allah onları bir-bir saymış (hesablamış), onlar isə bunu unutmuşlar. Uca Allah bunu bilir, saleh (yaxşı) əməli fəsaddan (pisindən), gözəli isə çirkindən ayırmışdır. O, qullarının hansı cəzaya layiq olduqlarını, onlara veriləcək savab və cəzanın miqdarını bilir.

"Əl-Kəfi": Məxluqatın narahatlıq duyduğu hər bir şeydə onlara kifayət etməsi Öz əlində olan pak və müqəddəs Allahdır. Onun kifayət etməsi ümumi və xüsusi olmaqla iki yerə bölünür:

Ümumi kifayət etmə: Uca Allah bütün məxluqata kifayət etmiş, onları yoxdan yaratmış, ruzi vermiş və yaradılış qayələrinə uyğun olaraq hazırlamışdır. Qullar üçün onları ehtiyacsız edən, doyuran, yedirən və içirən hər cür səbəbi hazırlamışdır.

Xüsusi kifayət etmə: Bu, Allaha təvəkkül edənlərə kifayət etməsi və təqvalı qullarının hallarını islah etməsidir. **"Kim Allaha təvəkkül etsə, Allah ona**

kifayət edər” (ət-Talaq, 3). Yəni, onun həm dini, həm də dünyəvi bütün işlərində ona kifayət edər. Qul Rəbbinə layiqincə təvəkkül etdikdə — yəni mənfəətləri əldə etmək və zərərləri uzaqlaşdırmaq üçün qəlbi ilə Rəbbinə güclü və tam şəkildə güvəndikdə, Ona olan inamı qüvvətlənib Rəbbi barədə xeyirli zəndə (gümanda) olduqda — onun üçün tam bir kifayət etmə hasil olar, Allah onun hallarını kamil edər, sözlərində və əməllərində onu doğru yola yönəldər, dərdinə kifayət edib qəmini dağıdar.

Sələflərdən bəziləri demişdir:

“Uca Allah hər bir əməl üçün öz cinsindən olan bir mükafat təyin etmişdir. Allaha təvəkkül etməyin mükafatını isə Özünün quluna kifayət etməsi olaraq təyin etmiş və buyurmuşdur: **“Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər” (ət-Talaq, 3).** Digər əməllərdə buyurduğu kimi, “ona bu qədər və ya o qədər mükafat verərik” deməmiş, əksinə, pak və müqəddəs olan Öz Zatını Ona təvəkkül edən quluna kifayət edən, yetən və onu qoruyan etmişdir. Əgər qul Allaha layiqincə təvəkkül etsəydi və göylər, yer və oradakılar ona

qarşı hiylə qursaydılar belə, Allah onun üçün oradan bir çıxış yolu açar, ona kifayət edər və ona yardım edərdi.”

Kifayət etmənin təvəkküllə bağlanması, səbəblərin nəticələrlə bağlanması kimidir. Qul Allaha güvəndikdə, Ona gözəl şəkildə təvəkkül etdikdə, çətinlik və mühüm işlərində Ona sadiq şəkildə sığındıqda, Allah barəsində gözəl zəndə olub Ona böyük ümid bəslədikdə və Ona səmimi qəlbdən təvəkkül etdikdə, şübhəsiz ki, Allah onun Ondan olan ümidini əsla boşa çıxarmaz.

Əl-Kəfil, Əl-Vəkil (الكفيل، الوكيل)

Uca Allah buyurur: **“Allahla bağladığınız əhdə sadiq olun; möhkəm and içdikdən sonra andlarınızı pozmayın. Çünki siz Allahı özünüzə zamin (kəfil) etmisiniz.” (ən-Nəhl, 91)** və başqa bir ayədə buyurur: **“O kəslər ki, (bəzi) adamlar onlara: “Camaat sizə qarşı (ordu) toplayıb, onlardan qorxun!”– dedikdə, (bu söz) onların**

imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Vəkildir!"– dedilər." (Ali-İmran, 173).

"Əl-Kəfil" adının mənası: Məxluqatın işlərini yoluna qoyan, onların qidalarını və ruzilərini Öz üzərinə götürəndir (təmin edəndir).

Həmçinin, kim bu mövzuda Allaha qarşı sadiq olarsa və pak olan Allahın onun üçün zamin (kəfil) olmasına razı qalarsa, Allah ona (əhdinə) vəfa etməkdə kömək edər və işini gözləmədiyi yerdən asanlaşdırar.

"Əl-Vəkil" adının mənası isə kifayət edən, kəfil (zamin) olan deməkdir. Bu ad da ümumi və xüsusi olmaqla iki yerə bölünür:

Ümumi vəkillik: Buna Uca Allahın: **"O, hər şeyi qoruyandır!" (əl-Ənam, 102)** və **"Allah hər şeyə şahiddir!" (ən-Nisa, 85)** ayələri dəlalət edir. Yəni, bütün məxluqatın ruzilərini və qidalarını Öz üzərinə götürən, kainatın işlərini idarə edən və onları yönləndirəndir.

Xüsusi vəkillik: Buna isə Uca Allahın: **"Allaha təvəkkül et! Qoruyan olaraq Allah yetər." (ən-**

Nisa, 81) və "Onlar: **"Allah bizə bəs edər! O, nə gözəl Vəkildir!"– dedilər" (Ali-Imran, 173)** ayələri dəlalət edir. Yəni, Ona sığınanlar üçün nə gözəl kifayət edən və Ondan yapışanları nə gözəl qoruyandır. Bu, Ona iman gətirib təvəkkül edən mömin qullarına xüsusidir.

Yalnız Allaha təvəkkül etmək dinin bütün məqamlarının əsasıdır. Təvəkkülün dindəki məqamı, başın bədəndəki yeri kimidir. Baş bədənsiz yaşaya bilmədiyi kimi, iman, onun məqamları və əməlləri də təvəkkül sütunu (gövdəsi) olmadan dayana bilməz.

Əl-Ğalib, Ən-Nasir (الغالب، النصير)

Allahın ***"əl-Ğalib"*** adı Quranda yalnız bir yerdə zikr olunmuşdur, o da Uca Allahın bu ayəsindədir: **"Allah Öz işini qələbə ilə başa çatdırandır. Lakin insanların əksəriyyəti (bunu) bilməz!." (Yusuf, 21).**

"Ən-Nasir" adı isə dörd yerdə zikr olunmuşdur. Onlar Uca Allahın bu ayələrindədir: "**Əgər onlar üz döndərsələr, bilin ki, Allah sizin Himayədarınızdır.**

O, nə gözəl Himayədar və nə gözəl Yardımçıdır!" (əl-Ənfal, 40); **"Yardımçı olaraq da Allah yetər!" (ən-Nisa, 45); "Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın. O sizin Himayədarınızdır. O nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!" (əl-Həcc, 78) və "Doğru yol göstəricisi və yardımçı olaraq Rəbbin sənə yetər." (əl-Furqan, 31).**

"Əl-Ğalib" adının mənası: İstədiyini edən, Ona heç bir şey qalib gələ bilməz, hökmünü heç kim geri çevirə bilməz, Onun qərar verdiyi bir şeyi dəf etməyə və ya yerinə yetirdiyi bir şeyin qarşısını almağa heç kimin gücü çatmaz.

Qurtubi (Allah ona rəhmət etsin) demişdir:

"Hər bir mükəlləf bilməlidir ki, pak və müqəddəs olan Allah mütləq surətdə Qalibdir (həmişə qalib gələndir). Kim Ondan yapışarsa, yer üzündəki bütün insanlar onun əleyhinə çixsa belə, o qalib olar. **Uca Allah buyurur: "Allah (lövhi-məhfuzda belə) yazmışdır: "Mən və elçilərim mütləq qalib gələcəyik!" Həqiqətən, Allah qüvvətlidir, qüdrətlidir." (əl-Mücadilə, 21).** Kim Allahdan üz çevirib başqasından yapışarsa, o məğlub olar və şeytanın tələsinə düşərək başıaşağı çevrilər."

“Ən-Nasir” adının mənası isə qullarına yardım etməyi Öz üzərinə götürən, dostlarını dəstəkləməyi və onları müdafiə etməyi təmin edəndir. Yardım yalnız Ondan gəlir və yalnız Onun lütfü ilə baş verir. Qalib gələn (müzəffər olan) yalnız Allahın yardım etdiyi kimsədir. Çünki qullar üçün Ondan başqa heç bir yardım edən və Ondan başqa heç bir qoruyan yoxdur. Uca Allah buyurur: **“Zəfər yalnız Qüdrət və Hikmək sahibi olan Allahdandır.” (Ali-İmran, 126)** və **“Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Yox, əgər sizi zəlil edərsə, Ondan sonra kim sizə yardım edə bilər?! Qoy möminlər Allaha təvəkkül etsinlər!” (Ali-İmran, 160).**

Pak və müqəddəs Allah Qurani Kərimin bir çox yerində peyğəmbərlərinə və dostlarına yardım və dəstək verməklə etdiyi lütfü zikr edərək buyurur: **“Şübhəsiz ki Biz, elçilərimizə və iman gətirənlərə həm dünyada, həm də şahidlərin duracağı gündə (Qiyamətdə) mütləq yardım edəcəyik.” (Ğafir, 51).**

Bu, imanın zahiri və batini həqiqətlərini yerinə yetirən möminlərə bir xitabdır ki, kömək olunacaq

kəslər məhz onlardır və gözəl aqibət həm dünyada, həm də axirətdə onlarındır.

Buna görə də, möminlər imanı tam şəkildə yaşamaq və onun tələblərini yerinə yetirmək üçün nəfsləri ilə cihad etmədikcə düşmənlərinə qarşı onlara heç bir yardım olunmaz. Əksinə, günahları və nöqsanları səbəbindən düşmənləri onlara musallat olar (bəlaya çevrilər onlar üçün).

Həmçinin, yardım əlində olan Allaha gözəl şəkildə sığınmaq mütləqdir. Uca Allah Ona sığınanı qoruyar və Ona təvəkkül edənə kifayət edər. O nə gözəl Himayədar, nə gözəl Yardım edəndir!

Əl-Aziz (العزيز)

"Əl-Aziz" adı Quran-ı Kərimdə yüzə yaxın yerdə zikr olunmuşdur.

"Əl-Aziz" adının mənası: İzzətin bütün mənalarına sahib olan deməkdir. Necə ki, pak və müqəddəs Allah buyurur: **"Şübhəsiz ki, izzət bütünlüklə Allaha məxsusdur!" (Yunus, 65).** Yəni, izzətin bütün mənaları Ona aiddir və bu mənalar üç əsasa

qayıdır ki, onların da hamısı Uca Allah üçün tam və kamil şəkildə sabitdir:

Birinci məna: Qüvvət izzəti. Bu, Onun elə əzəmətli bir vəsfidir ki, məxluqatın qüvvəsi nə qədər böyük olsa da, Onun qüvvəsi ilə müqayisə edilə bilməz. Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir (sarsılmazdır)." (əz-Zariyyat, 58).**

İkinci məna: Toxunulmazlıq (heç bir şeyə möhtac olmamaq və zərər yetirilə bilməmək) izzəti. O, zəngindir (Ğanidir), heç kimə ehtiyacı yoxdur. Qullar Ona nə bir zərər yetirmək gücünə sahibdirlər ki, zərər versinlər, nə də bir fayda vermək gücünə sahibdirlər ki, fayda versinlər. Əksinə, zərər də, fayda da verən, bəxş edən də, mane olan da Odur. Pak və müqəddəs Allah hər hansı bir kimsənin Ona qalib gəlməsindən, Ona gücü yetməsindən, Onun əzəmətinə və calalına yaraşmayan bütün eyib və nöqsanlardan, Onun kamilliyinə zidd olan hər bir şeydən, həmçinin Özünə taylar və şəriklər götürməkdən uzaqdır (münəzzəhdir). Uca Allah buyurur: **"Sənin pak və müqəddəs Rəbbin – qüdrət sahibi olan Rəbbin**

müşriklərin Onu vəsf etdikləri sifətlərdən uzaqdır. Elçilərə salam olsun! Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur!" (əs-Saffat, 180-182).

Üçüncü məna: Qəhr (hökmranlıq) və qələbə izzəti. Bütün varlıqlar üzərində olan izzətdir. Məxluqatın hamısı Allahın qarşısında məğlubdur (Onun hökmünə tabedir), Onun əzəmətinə boyun əymiş və iradəsinə tabe olmuşdur. Bütün məxluqatın kəkili (idarəsi) Onun əlindədir. Onun izni (iradəsi) olmadan heç bir hərəkət edən belə hərəkətə gələ bilməz. Allahın istədiyi olar, istəmədiyi isə olmaz. Güc və qüvvət yalnız Allahdadır.

əl-Cəbbar (الجبار)

Bu ad Qurani-Kərimdə bir ayədə Allahın **«əl-Əziz»** adı ilə birlikdə, Uca Allahın bu ayəsində qeyd olunmuşdur: **«O, Özündən başqa heç bir ilah olmayan, Mələk (göylərin və yerin mülkünün sahibi), Qüddus (bütün qüsurlardan pak), Salam (bütün eyib və naqis sifətlərdən uzaq), Mömin (haqqı təsdiq edən və qullarına əmin-amanlıq bəxş edən), Muhəymin (hər bir şeyə müşahidə**

edən), Əziz (yenilməz güc-qüvvət sahibi), Cabbar (istədiyi hər hansı bir şeyə məcbur etməyə qadir olan), Mutəkəbbir (əzəmətli, təkəbbürlü və məxluqata aid sifətlərdən uzaq) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır.» (əl-Həşr, 23).

«əl-Cəbbar» adının üç mənası vardır:

Birinci məna: «əl-Qahhar» (Məğlubedilməz,) mənasındadır. Belə ki, Allah hər bir şeyə qalib gələndir, hər bir şey Ona boyun əymiş və tabe olmuşdur. Üst və alt aləm, həmçinin orada olan bütün əzəmətli məxluqat öz hərəkətlərində və sükunətlərində, etdiklərində və etmədiklərində öz Hökmdarlarına və hər şeyi idarə edənə tabe olmuşlar. Onların heç bir işdə və hökmdə ixtiyarı yoxdur. Əksinə, bütün işlər Allaha məxsusdur. Şəri, qədəri və cəza (mükafatlandırma və cəzalandırma) hökmünün hamısı Ona aiddir. Ondan başqa hökm verən, Ondan başqa Rəbb və Ondan başqa məbud yoxdur.

İkinci məna: Rəhmət, lütf və şəfqətə əsaslanır. O, qəlbi qırıq olanın qəlbini ovunduran, yoxsulu varlandıran, çətinliyi asanlaşdırandır. Xəstəyə və

müsibətə uğrayana səbr bəxş etməklə və ona şəfa verməyi asanlaşdırmaqla bərabər, başına gələn müsibət müqabilində ona ən böyük mükafatı verməklə təsəlli edəndir. Həmçinin Onun əzəməti və cəlalı qarşısında boyun əyən qəlblərə, Onun kamilliyinə tabe olan, Onun lütfünü və bəxşişini uman qəlblərə xüsusi bir təsəlli verir. Belə ki, həmin qəlblərə sevgi, müxtəlif elmlər, ilahi uğur, doğru yol və hidayət bəxş edir. Dua edənin: "Allahım, mənə lütf et" deməsinin, mahiyyəti qulun halını islah etmək və bütün xoşagəlməz şeyləri, şərləri ondan uzaqlaşdırmaq olan məhz bu Əl-Cabbar adının mənasını daşıyır**. Peyğəmbər ﷺ iki səcdə arasında belə deyərdi: "Allahım, məni bağışla, mənə rəhm et, mənə lütf et, məni doğru yola yönəlt və mənə ruzi ver." (Tirmizi və İbn Macə rəvayət etmişlər).**

Üçüncü məna: Hər bir şeydən uca olan deməkdir. Ucalığın bütün mənaları — Zatın ucalığı, qədr-qiymətin (şənin) ucalığı və qüdrətin ucalığı Ona məxsusdur.

Cəbərut (mütləq qüdrət və əzəmət) yalnız Allaha məxsusdur. Məxluqlardan kim təkəbbür göstərib

zorakılıq edərsə, Allahın qəzəbinə düçar olar və Onun vəd etdiyi əzaba layiq olar. Uca Allah belə olanları şiddətli cəza, qəlblərinin möhürlənməsi və Qiyamət günü Cəhənnəmə daxil olmaqla hədələmişdir. Uca Allah buyurub: **«Allah hər bir təkəbbürlünün və zalımın qəlbini belə möhürləyər.» (Ğafir, 35).**

Əhməd və Tirmizi Əbu Hüreyrədən (Allah ondan razı olsun) rəvayət edirlər ki, Rəsulullah ﷺ belə buyurmuşdur:

«Qiyamət günü Cəhənnəmdən görən iki gözü, eşidən iki qulağı və danışan bir dili olan bir boyun çıxacaq və deyəcək: "Mən üç qrup insana müvəkkil olundum (onları cəzalandırmaq mənə tapşırıldı): hər bir inadkar zorakıya , Allahla yanaşı başqa bir ilaha dua edənə (şərik qoşana) və surət yaradanlara (rəssamlara/heykəltəraşlara)"».

Əl-Qarib (القريب)

«Əl-Qarib» adı Qurani-Kərimdə üç yerdə zikr olunmuşdur. Onlar Uca Allahın bu ayələridir:

«Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən (onlara) yaxınam, Mənə dua edənin duasını qəbul edərəm. Gərək onlar da, Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, bəlkə (bununla) doğru yola yönəlsinlər.» (əl-Bəqərə, 186)

«De: "Əgər mən (haqq) yoldan çıxsam, öz əleyhimə çıxmış olaram. Yox, əgər doğru yolla gedirəmsə, bu da Rəbbimin mənə nazil etdiyi vəhyə görədir. Həqiqətən, O, eşidəndir, yaxındır"..» (Səba, 50)

«Səmud qövmünə də qardaşları Salehi (peyğəmbər göndərdik). O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa (ibadətə layiq olan) məbudunuz yoxdur. O sizi torpaqdan yaratdı və sizi orada sakin etdi. Elə isə ondan bağışlanma diləyin, sonra da Ona tövbə edin. Şübhəsiz ki, Rəbbim yaxındır, (dua edənlərin çağırışına) cavab verəndir".!"» (Hud, 61)

Allahın bu ayələrində ifadə etdiyi yaxınlığı Ona ibadət edən, Onu sevən, dua edən və Onun çağırışına cavab verən bəndələrinə olan xüsusi bir yaxınlıqdır. Bu elə bir yaxınlıqdır ki, mahiyyətini dərk etmək qeyri-mümkündür, lakin onun təsirləri Allahın bəndələrinə olan lütfündən, onları müvəffəq etməsindən və onlara göstərdiyi qayğısından bilinir. Bu yaxınlığın təsirlərindən biri də Onun dua edənlərin duasını qəbul etməsi və ibadət edənlərə mükafat verməsidir.

Sünnədə də Uca Allahın mömin bəndələrinə və müttəqi dostlarına (övliyalarına) yaxın olduğunu, onların duasını eşitdiyini, çağırışlarına cavab verdiyini və istədiklərini onlara bəxş etdiyini göstərən bir çox hədislər sabit olmuşdur.

«Səhiheyn»də (Buxari və Müslimdə) Əbu Musa əl-Əşərinin (Allah ondan razı olsun) belə dediyi rəvayət olunur:

«Biz Peyğəmbərlə ﷺ bərabər səfərdə idik. İnsanlar uca səslə təkbir gətirməyə başladılar. Peyğəmbər ﷺ buyurdu: "Özünüzə rəhm edin (səsinizi ucaltmaqla özünüzü yormayın). Çünki siz nə bir kara, nə də burada olmayana dua edirsiniz.

Siz Eşidən və Yaxın olana dua edirsiniz və O, sizinlədir”.»

Yenə «Səhiheyn»də Əbu Hüreyrədən (Allah ondan razı olsun) rəvayət olunduğuna görə, Peyğəmbər ﷺ buyurmuşdur:

«Uca Allah buyurdu: “Kim Mənə bir qarış yaxınlaşarsa, Mən ona bir dirsək yaxınlaşaram. Kim Mənə bir dirsək yaxınlaşarsa, Mən ona bir qulac yaxınlaşaram. Kim Mənə tərəf yeriyərək gələrsə, Mən ona tərəf yürüyərək gələrəm”.»

Əl-Mucib (المجيب)

Allahın **«əl-Mucib»** adı Qurani-Kərimdə bir yerdə zikr edilmişdir. O da Uca Allahın bu ayəsidir:

“Səmud tayfasına da qardaşları Salehi (elçi göndərdik). O dedi: «Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir məbudunuz yoxdur. Sizi yerdən (torpaqdan) yaradan və orada yaşadan Odur. Ondan bağışlanma diləyin, sonra da Ona tövbə edin. Həqiqətən, Rəbbim yaxındır, (duaları) qəbul edəndir!»” (Hud surəsi, 61)

Uca Allahın **«əl-Mucib»** adı bəndələrin duasını eşitdiyinə, istəyənlərin istəyinə cavab verdiyinə, Ona dua edən heç bir mömini naümid qoymadığına və Ona dua edən heç bir müsəlmanı əliboş qaytarmadığına dəlalət edir. O, bəndələrinin bütün dini və dünyəvi ehtiyaclarını Ondan istəmələrini sevir.

Peyğəmbərin ﷺ sünnəsində də duaya təşviq edən, Allahın dua edənlərə cavab verdiyini və istəyənlərə nemətlər bəxş etdiyini, Onun əzəmətli və uca olaraq Həya edən və Səxavətli olduğunu, Ona dua edəni geri çevirməkdən, Ona yalvaranı naümid qoymaqdan yaxud Ondan istəyənə mane olmaqdan daha Kərəm sahibi olduğunu bəyan edən bir çox hədislər varid olmuşdur.

Əbu Davud, ət-Tirmizi və digərləri Salman əl-Farisinin (Allah ondan razı olsun) Peyğəmbərdən ﷺ belə rəvayət etdiyini nəql edirlər:

“Həqiqətən, Allah Həya edəndir, Kərəm sahibidir. Bəndəsi Ona doğru əllərini qaldırdığı zaman, o əlləri boş qaytarmaqdan həya edər.”

Allahın (hər gecə dünya səmasına) enməsi ilə bağlı hədisdə isə buyurulur:

“Rəbbimiz Təbərak və Təala hər gecə, gecənin son üçdə biri qaldıqda dünya səmasına enir və buyurur: Mənə dua edən varmı, duasını qəbul edim?! Məndən istəyən varmı istədiyini verim?! Məndən bağışlanma diləyən varmı onu bağışlayım ?” (Buxari və Müslim)

Allahın **«əl-Mucib»** adına iman gətirməyin bəndə üzərindəki təsiri odur ki, onun Allaha olan yəqinliyi güclənir, Ona qarşı ümidi böyüyür, Ona yönəlməsi və Onun əlində olan xeyirlərə rəğbəti artır. Beləcə, Onun rəhmətindən ümidini kəsmək və ya mərhəmətindən məyus olmaq xəstəliyi uzaqlaşıb gedir.

Əl-Qahir, Əl-Qahhər (القاهر، القهار)

“Əl-Qahhər” adı Qurani-Kərimdə altı yerdə **“Əl-Qahir”** adı isə hər ikisi Ənam surəsində olmaqla iki yerdə zikr edilmişdir. Bunlar Uca Allahın bu ayələridir:

“O, bəndələrinin fövqündə (hər şeyə) Hakimdir (mütləq qüdrət sahibidir). O, Müdrişdir, (hər şeydən) Xəbərdardır” (Ənam, 18) və **“O,**

bəndələrinin fövqündə (hər şeyə) Hakimdir. O, sizə qoruyucu mələklər göndərir...” (Ənam, 61).

“Əl-Qahhər” adı **“əl-Qahir”** adının geniş formasıdır. Hər iki adın mənası belədir: Allah bütün varlıqları öz qüdrəti ilə ram etmişdir və bütün məxluqlar Ona boyun əymişdir. Yuxarı və aşağı aləmin bütün maddələri və onların tərkib hissələri (atom, molekul və digər bütün ünsürlər) Onun qüdrətinə və iradəsinə təslim olmuşdur. Onun izni olmadan nə yeni bir hadisə baş verər, nə də hərəkətsiz olan bir şey yerində qalar. Allahın dilədiyi mütləq baş verər, diləmədiyi isə əsla baş verməz. Bütün məxluqat Allaha möhtac, onun gücü qarşısında isə acizdir. Onlar özlərinə nə bir fayda, nə zərər, nə xeyir, nə də şər verməyə qadirdirlər. Uca Allahın əl-Qahhar olması Onun həyatının, izzətinin və qüdrətinin kamilliyini zəruri şəkildə göstərir.

Allahın **“əl-Qahhər”** adı Quranda keçdiyi bütün yerlərdə **“Allah”** və **“əl-Vahid”** (Tək olan) adl ilə birlikdə zikr olunmuşdur.

Bu isə Onun təkliyinin ən böyük şahidlərindən, uluhiyyətdə tək olmasının və ona şərik qoşmağın

və bütlərə ibadət etməyin batilliyinin ən aydın dəlillərindəndir.

Ayələrin birində Uca Allah belə buyurur:

“De: “Göylərin və yerin Rəbbi kimdir?” De: “Allahdır!” De: “Siz Onunla yanaşı, özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı dost (və məbud) qəbul etdiniz?” De: “Heç korla görən bir olarmı? Yaxud qaranlıqla nur eyni ola bilərmi?” Yoxsa onlar Allaha Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və bu yaradılış onlara oxşar göründü? De: “Allah hər şeyin Yaradanıdır. O, Təkdir, (hər şeyə) Qalib gələndir (əl-Qahhərdir)!”” (Rəd, 16).

İbn Sədi (Allah ona rəhmət etsin) bu ayənin təfsirində Allahın **“əl-Qahir”** adının, şirkin batilliyinə necə dəlalət etdiyini açıqlayaraq belə demişdir:

“Çünki mütləq təklik və qəhr etmək (hər şeyə hakim olmaq) yalnız və yalnız Allaha məxsusdur. Yaradılmışlara gəlincə, hər bir məxluqun fövqündə onu qəhr edən (üstün gələn) başqa bir məxluq vardır. Sonra həmin qalib gələnin də fövqündə ondan daha üstün bir qalib vardır ki, bu

zəncir sonda mütləq Qahir və Qəhhar olan Allaha gəlib çatır. Deməli, mütləq güc ilə tövhid bir-birindən ayrılmazdır və yalnız Allaha məxsusdur. Beləliklə, qəti əqli dəlillərlə aydın olur ki, Allahdan başqa ibadət olunanların, məxluqatı yaratmaqda heç bir payı yoxdur və buna görə də onlara ibadət etmək batildir".

Bu izahdan tövhid ilə Allahın **"əl-Qahhər"** adına iman gətirmək arasındakı qopmaz bağ aydın şəkildə görünür. Allahın qəhr etməkdə (hər şeyə hökm etməkdə) tək olduğunu qəbul edən şəxs, ibadəti də yalnız Ona yönəltməlidir. Şirkin nə qədər əsassız və puç olduğu buradan bəlli olur. Axı necə ola bilər ki, torpaqdan yaradılan bir varlıq, aləmlərin Rəbbi ilə bərabər tutulsun?! Necə ola bilər ki, aciz və hökm altında olan məxluqlar, mütləq uca olan Tək və Qahhər ilə bərabər tutulsun?! Allah onların qoşduqları şəriklərdən ucadır və Ona aid etdikləri naqis sifətlərdən uzaqdır!

Əl-Varis (الوارث)

Bu ad Qurani-Kərimdə üç yerdə, hamısı cəm formasında varid olmuşdur. Onlar Uca Allahın bu ayələridir:

“Şübhəsiz ki, dirildən də, öldürən də, Bizik. (Hər şeyə) varis olan (əbədi olan) da Bizik.!” (əl-Hicr, 23)

Digər bir ayədə Uca Allah buyurur:

“Zəkəriyyanı da (yada sal)! Bir zaman o yalvarıb demişdi: “Ey Rəbbim! Məni tənha buraxma. Sən varislərin ən xeyirlisisən!”!»” (əl-Ənbiyə, 89)

Və Uca Allahın başqa bir ayədə buyurur:

“Biz xoş güzəranı ilə qürrələnən neçə-neçə məmləkəti məhv etdik. Budur onların yurdları. Onlardan sonra az bir qisim müstəsna olmaqla orada heç kəs sakin olmadı. Onlara Biz varis olduq!” (əl-Qəsəs, 58)

“Əl-Varis” adının mənası

Məxluqat yox olduqdan sonra Baqi (əbədi) qalan deməkdir. Ondan başqa hər kəs fani olmağa və hər şey yox olmağa məhkumdur. Uca Allah isə

ölməyən daimi həyat sahibi əbədi və əzəli olandır. Dönüş və son onadır, bütün mülk Onundur. O, mülk sahiblərini və onların mülklərini yox edər və Mübarək olan Allah bütün məxluqata varis olar. Çünki O baqidir, onlar isə fani. O daimidir, onlar isə yox olub gedəndirlər.

Uca Allahın bu ayəsinin mənası bundan ibarətdir ki, **"Şübhəsiz ki, Biz həm dirildir, həm də öldürürük. Varis olan da Bizik!"** Biz yer üzünə və onun üzərindəkilərə varis olarıq, belə ki, əcəl gəldiyi zaman hamını öldürərik və Bizdən başqa heç bir canlı qalmaz. Çünki hər kəs fani olacaq, hər kəs öləcək və yalnız ölməyən, tək və diri olan Allah qalacaqdır.

Bunda, dünyanın aldatdığı və nə üçün yaradıldığını, nəyi həyata keçirmək üçün var edildiyini unudan kəslər üçün bir xəbərdarlıq vardır. Dünya və onun içindəkilər əvvəlindən axırına qədər əhlini tərk edib gedəcək, onlar da dünyadan köçəcəklər. Allah (Azzə və Cəllə) yerə və onun üzərindəkilərə varis olacaq, onları Özünə qaytaracaq və dünyada etdiklərinə görə onları cəzalandıracaq və ya mükafatlandıracaqdır.

Ömər ibn Abduləziz etdiyi son xütbəsində Allaha həmd-səna etdikdən sonra belə demişdir:

“Bundan sonra bilin ki, sizlər əbəs yerə yaradılmadınız və başlı-başına (baxımsız) buraxılmayacaqsınız. Sizin üçün bir qayıdış günü (məad) vardır ki, Allah orada aranızda hökm vermək və sizi ayırmaq üçün enəcəkdir. Allahın rəhmətindən məhrum olan, genişliyi göylər və yer qədər olan cənnətdən məhrum olan kəs ziyana uğramış və uduzmuşdur!

Məgər bilimsinizmi ki, sabahkı gündə (axirətdə) yalnız bu gündən həzər edib qorxan, fani olanı baqi olanla, azı çoxla, qorxunu isə əmin-amanlıqla dəyişən kəs əmin-amanlıqda olar?! Məgər görmürsünüzmü ki, sizlər həlak olanların nəsillərindənsiniz və sizdən sonra da qalanlar olacaq, ta ki varislərin ən xeyirlisinə (Allaha) qaytarılana qədər?!

Həmçinin siz hər gün səhər-axşam Allah Azzə və Cəlləyə doğru gedən, vaxtı tamam olmuş, əcəli bitmiş birini son mənzilə yola salırsınız. Nəhayət, onu yerin bir yarığında (qəbirdə), hamarlanmamış və döşənməmiş bir torpaq

qatının altında qoyursunuz. O, sevdiklərindən ayrılmış, torpağa qarışmış, hesabla üz-üzə qalmışdır. Etdiyi əməllərin girovudur, geridə qoyduqlarından ehtiyacsız, öncədən göndərdiyi (yaxşı əməllərə) isə möhtacdır.

Ey Allahın qulları! Allahın əhdləri bitmədən və ölüm sizə nazil olmadan öncə Ondan qorxun (təqvalı olun)!"

Sonra o, əbasının ətəyini üzünə tutaraq ağladı və ətrafındakıları da ağlatdı. Allah təala ona rəhmət eləsin!

Əl-Mutəkəbbir (المتكبر)

Bu ad Qurani-Kərimdə yalnız bir yerdə, Uca Allahın bu ayəsində zikr olunmuşdur:

"O, Özündən başqa heç bir ilah olmayan, Məlik (göylərin və yerin mülkünün sahibi), Qüddus (bütün qüsurlardan pak), Salam (bütün eyib və naqis sifətlərdən uzaq), Mömin (haqqı təsdiq edən və qullarına əmin-amanlıq bəxş edən), Muhəymin (hər bir şeyə müşahidə edən), Əziz

(yenilməz güc-qüvvət sahibi), Cabbar (istədiyi hər hansı bir şeyə məcbur etməyə qadir olan), Mutəkəbbir (əzəmətli, təkəbbürlü və məxluqata aid sifətlərdən uzaq) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır" (əl-Həşr, 23).

"Əl-Mutəkəbbir" adı Uca Allahın böyüklük və əzəmət (kibriya) sifəti ilə vəsf olunduğunu bildirir. **"əl-Mutəkəbbir"** sözündəki "tə" hərfi (təfəul babı) özünü zorla böyük göstərmək və ya bu sifəti sonradan qazanmaq mənasında deyil. Əksinə, bu, böyüklük və əzəmətin yalnız Uca Allaha məxsus olduğunu və bu sifətdə Onun tək və misilsiz olduğunu ifadə edir. Çünki kibriya yalnız Uca Allaha layiq olan bir sifətdir və Ondan başqasına yaraşmaz.

Qatadə demişdir: "**O, hər bir pislikdən uca olandır", həmçinin: "Günahlardan uca olandır" və "Hər bir şərdən uca olandır" deyə buyurmuşdur.**

Muqatil isə belə demişdir: **"Hər bir pislikdən uzaq və uca olandır".**

Əbu İshaq əs-Səbii demişdir: **"Bəndələrinə zülm etməkdən uca və uzaq olandır"**.

Meymun ibn Mihran isə belə demişdir:
“Pisliklərdən və günahlardan uca tutulmuşdur, buna görə də Ondan yalnız xeyir lütf olunar”.

Xülasə olaraq, bu ad Uca Allahın məxluqatın vəsflərindən uca olduğuna, bəndələrinə bənzəməkdən və ya onların Ona bənzəməsindən pak olduğuna, hər cür naqislik və eyibdən uzaqlığına dəlalət edir. O, şərdən, pislikdən, zülmdən və hər bir çatışmazlıqdan ucadır. Bu isə Uca Allahın adlarında, sifətlərində və fellərində mütləq kamilliyinin sübutudur.

Yaradılmış bir bəndənin məqamı isə yalnız qulluq, itaət, təvazökarlıq, boyun əymək, həmçinin Uca, Böyük və Cəlal sahibi olan Allaha rüku və səcdə etməkdir. Bəlkə də namazda rükuya və səcdəyə əyilərkən Allahı təkbir gətirərək (“Allahu Əkbər” deyərək) zikr etməyin, rüku və səcdə halında Onun əzəmətini və böyüklüyünü xatırlamağın gizli hikmətlərindən biri də məhz budur.

Əgər bəndə, xüsusən də yaradılış qayəsi olan Allaha qulluq etmək, yalnız Ona boyun əymək və təvazökarlıq göstərmək vəzifəsindən boyun qaçırıb

təkəbbürlük edərsə, Allah onu ən ağır şəkildə cəzalandırar, dünyada və axirətdə zəlil edər.

Uca Allah Öz Kitabında keçmişdə yaşamış təkəbbürlü şəxslər və ümmətlər barədə bir çox nümunələr çəkmiş, dünyada onların başına gələn cəzaları və axirətdə onlar üçün hazırlanmış əzabı bəyan etmişdir. Bu, günahkarların yolunun aydın görünməsi, öyüd alanlar üçün bir nəsihət və ibrət götürənlər üçün bir örnək olsun deyə edilmişdir.

Uca Allahdan bizə Öz hüzurunda təvazökarlıq nəsib etməsini və bizi təkəbbürlülərin yolundan qorumasını diləyirik. Həqiqətən, lütf edən və kömək edən yalnız Odur!

Əl-Mumin (المؤمن)

Allahın "əl-Mumin" adı Qurani-Kərimdə yalnız bir ayədə keçir. Uca Allah belə buyurur:

"O, Özündən başqa heç bir ilah olmayan, Məlik (göylərin və yerin mülkünün sahibi), Qüddus (bütün qüsurlardan pak), Salam (bütün eyib və naqis sifətlərdən uzaq), Mömin (haqqı təsdiq edən və qullarına əmin-amanlıq bəxş edən),

Muhəymin (hər bir şeyə müşahidə edən), Əziz (yenilməz güc-qüvvət sahibi), Cabbar (istədiyi hər hansı bir şeyə məcbur etməyə qadir olan), Mutəkəbbir (əzəmətli, təkəbbürlü və məxluqata aid sifətlərdən uzaq) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır.!" (əl-Həşr, 23).

Allahın **"əl-Mumin"** adı özündə olduqca əzəmətli və uca mənaları ehtiva edir. Bu adın daşıdığı əsas mənalar və dəlillər aşağıdakılardır:

1. Allahın Öz Təkliyinə Şahidlik Etməsi

Bu, ən böyük Şahidin , ən əzəmətli həqiqətə (Tövhidə) aid olan ən böyük şahidliyidir.

Mücahid (rahimahullah) demişdir:

"Əl-Mumin — «Allah Özündən başqa heç bir məbud olmadığına şahidlik etdi» (Ali-İmran, 18) buyuraraq Öz təkliyini bəyan edəndir."

2. Elçilərini və Peyğəmbərlərini Təsdiq Edən.

O, göndərdiyi peyğəmbərlərin gətirdiyi dəlilləri, möcüzələri və onların təbliğ etdiklərinin şübhəsiz bir həqiqət olduğunu təsdiqləyəndir.

Qatadə (rahimahullah) bu barədə belə demişdir:

"Əl-Mumin — Öz sözünün haqq olduğunu təsdiq edəndir."

3. Tövhid Əhlini Təsdiqləyən

Uca Allah Onun təkliyinə şahidlik edən bəndələrini təsdiqləyir və onların dediklərinin doğru olduğunu bəyan edir.

İmam ət-Tirmizi və İbn Macənin Əl-Əğarr Əbu Müslimdən rəvayət etdikləri hədisdə o, Əbu Hüreyrə və Əbu Səid əl-Xudrinin (Allah onlardan razı olsun) Peyğəmbərin ﷺ belə buyurduğuna şahidlik etdiklərini nəql edir:

"Bəndə: «Lə iləhə illallah, vallahu Əkbər» (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və Allah ən böyükdür) dedikdə, Uca Allah buyurar:

— **«Bəndəm doğru söylədi, Məndən başqa ibadətə layiq haqq məbud yoxdur və Mən ən böyüyəm».**

Bəndə: «Lə iləhə illallahu vəhdəhu» (Tək olan Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) dedikdə, Allah buyurar:

— «Bəndəm doğru söylədi, Məndən başqa ibadətə layiq haqq məbud yoxdur mən təkəm».

Bəndə: «Lə iləhə illallahu vəhdəhu lə şərikə ləhu» (Şəriki olmayan, tək olan Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) dedikdə, Allah buyurar:

— «Bəndəm doğru söylədi, Məndən başqa ibadətə layiq haqq məbud yoxdur və Mənim heç bir şərikim yoxdur».

Bəndə: «Lə iləhə illallah, ləhul-mulku və ləhul-həmdu» (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, mülk də, həmd-səna da Ona məxsusdur) dedikdə, Allah buyurar:

— «Bəndəm doğru söylədi, Məndən başqa ibadətə layiq haqq məbud yoxdur, mülk də, həmd də Mənə məxsusdur».

Bəndə: «Lə iləhə illallah, və lə havlə və lə quvvətə illə billəh» (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, güc və qüdrət yalnız Allahdadır) dedikdə, Allah buyurar:

— «Bəndəm doğru söylədi, Məndən başqa ibadətə layiq haqq məbud yoxdur, güc və qüdrət yalnız Məndədir».”

4. Əl-Mömin bəndələrini əzabdan qoruyan

Uca Allah iman gətirən və təqvalı olan bəndələrini Öz əzabından və cəzasından qoruyub əmin-amanlığa qovuşdurur. Uca Allah belə buyurub:

“İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanlar əmin-amanlıq içində olarlar. Doğru yola yönələnlər də (elə) məhz onlardır.” (əl-Ənam, 82)

5. Qorxu içində olanlara təhlükəsizlik bəxş edən

Uca Allah qorxunu aradan qaldıraraq bəndələrinə əmin-amanlıq bəxş edir. Necə ki, ayədə buyurulur:

“O Allah ki, onlara aclıqdan (sonra) yemək verdi və qorxudan (sonra) əmin-amanlıq bəxş etdi..” (Qureyş, 4)

İbn Abbas (Allah onlardan razı olsun) bu mənada belə demişdir:

“Əl-Mumin” — Yaratdıqlarına zülm etməyəcəyindən onları əmin etmişdir (yəni Allah heç vaxt zülm etməz).”

Səmimi qəlbdən Allaha sığınan hər bir qorxu içindəki bəndə, Allahı özü üçün sığınacaq və qoruyucu tapar. Çünki bəndələrin də, məmləkətlərin də təhlükəsizliyi və əmin-amanlığı yalnız Uca Allahın əlindədir.

Əs-Sadiq (الصادق)

Allahın “əs-Sadiq” adı Qurani Kərimdə yalnız bir ayədə zikr olunmuşdur. Uca Allah buyurur:

“Yəhudilərə dırnaqlı heyvanların hamısını haram etdik. İnək və qoyunun bel sütunlarına və ya bağırsaqlarına yapışan, yaxud sümüklərə qarışan yağlar müstəsna olmaqla, onların piylərini də haram etdik. Bu, həddi aşdıqlarına görə onlara verdiyimiz cəzadır. Şübhəsiz ki, Biz doğru danışanlarıq.” (əl-Ənam, 146).

Yəni, O Öz vədində, təhdidində və xəbər verdiyi hər bir şeydə sadiqdir.

O, qullarına vəd etdiyi qələbə və güc-qüdrət vədini doğrultmuşdur. Uca Allah buyurur:

“Sonra isə, onlara verdiyimiz vədi yerinə yetirdik. Biz həm onları, həm də istədiyimiz kəsləri xilas edib, həddi aşanları məhvə uğratdıq....” (əl-Ənbiya, 9).

Yenə buyurur:

“Allah sizlərdən iman gətirib saleh əməllər edənlərə, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcəyinə, möminlər üçün Özünün bəyəndiyi dinini möhkəmləndirəcəyinə və onların qorxusunu sonra əminliklə əvəz edəcəyinə vəd vermişdir. Onlar Mənə ibadət edər və heç bir şeyi Mənə şərik qoşmazlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir.” (an-Nur, 55).

O, mömin qullarına vəd etdiyi böyük qurtuluş və nəim cənnətlərinə daxil olmaq vədini də doğrultmuşdur. Uca Allah buyurur:

“Onlar: “Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allaha həmd olsun! Biz Cənnətdə istədiyimiz yerdə sakin oluruq. (Yaxşı)

əməl sahiblərinin mükafatı necə də gözəldir!”– deyəcəklər!’” (az-Zümər, 74).

O, vədinə heç vaxt xilaf çıxmayan nöqsansız Sadiqdir. Uca Allah buyurur:

“...Allahın vədi haqdır. Sözündə Allahdan daha doğruçu kim ola bilər?!” (an-Nisa, 122).

Bu ada iman gətirməyin təzahürlərindən biri də odur ki, yaxşılıq edən kəs Rəbbinin yanında zülmə məruz qalmaqdan, haqqının azaldılmasından, əməyinin boşa çıxmasından və ya zərrə qədər belə bir yaxşılığının itirilməsindən qorxmaz.

Çünki Uca Allah sadiqdir əməl edənlərin mükafatlarını tam ödəyəcəyini vəd etmişdir. Əgər zərrə qədər bir yaxşılıq olarsa, onun qarşılığını verər, onu itirməz, əksinə, istədiyi kəs üçün onu qat-qat artırar və Öz tərəfindən böyük bir mükafat bəxş edər.

Günah edən kəsə gəlincə, Allah ona etdiyi günahın misli qədər cəza verər. Lakin tövbə, peşmançılıq, bağışlanma diləmək, yaxşı əməllər və başına gələn müsibətlər vasitəsilə həmin günahı ondan silər.. Uca Allah buyurur: **“Belələri əməllərinin ən**

yaxşısını qəbul edəcəyimiz, günahlarından keçəcəyimiz və Cənnət əhli içərisinə daxil edəcəyimiz kimsələrdir. Bu, onlara verilmiş doğru vəddir..” (əl-Əhqaf, 16).

Ən-Nur (النور)

Bu ad Qurani-Kərimdə Uca Allahın bu ayəsində qeyd olunmuşdur:

“Allah göylərin və yerin nurudur. Onun nurunun misalı, içində çıraq olan bir taxçaya bənzəyir; o çıraq bir şüşənin içindədir, o şüşə isə sanki parlaq bir ulduzdur. O (çıraq) nə şərqdə, nə də qərbdə olan mübarək bir zeytun ağacından yandırılır. Onun yağı, ona od toxunmasa belə, sanki işıq saçır. Bu, nur üstündə nurdur. Allah dilədiyi kəsi Öz nuruna yönəldər. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir.” (ən-Nur surəsi, 35)

Şeyx Abdurrahmən ibn Sədi (Allah ona rəhmət etsin) bu adın mənasını izah edərkən belə demişdir:

“Ən-Nur Allahın sifətlərindən biridir və iki növdür:

1. Hissi (həqiqi) nur

Bu, Allahın vəsf olunduğu əzəmətli nurdur. Əgər O, Öz üzündən pərdəni qaldırsaydı, üzünün parlaqlığı və cəlalının nuru Onun baxışının çatdığı bütün məxluqatı yandırardı.

Bu nuru tam şəkildə ifadə etmək mümkün deyildir. Onu yalnız Peyğəmbərin (sallallahu əleyhi və səlləm) buyurduğu ifadələrlə izah etmək olar. Bütün məxluqlar Allahın üzünün nuruna birbaşa tab gətirə bilməzlər.

Əgər Cənnət əhlinə Allah kamil bir həyat bəxş etməsə və onları buna qadir etməsəydi, onlar Uca Rəbblərini görməyə güc yetirə bilməzdilər.

Uca aləmlərdə olan bütün nurlar Onun nurundandır. Hətta eni göylər və yer qədər olan – genişliyini yalnız Allahın bildiyi Cənnətlərin nuru da Onun nurundandır. Ərşin, Kürsünün nuru Onun nurundandır. Günəşin, Ayın və ulduzların nuru isə buna nisbətdə daha aşağıdır.

2. Mənəvi nur

Bu isə Allahın peyğəmbərlərinin, seçilmiş qullarının, saleh dostlarının və mələklərinin

qəlblərini Özünü tanıma nuru və Öz məhəbbətinin nuru ilə işıqlandırdığı nurdur.

Mömin övliyaların qəlblərində Allahı tanıma nuru, Onu nə qədər tanımalarına, cəlal sifətlərini nə qədər dərk etmələrinə və camal sifətlərinə nə qədər iman gətirmələrinə görə fərqlənir.

Allahın hər bir sifətini tanıma onların qəlblərində öz təsirini göstərir. Çünki Rəbbi tanımaq bütün biliklərin ən böyüyüdür. Allah haqqında elm bütün elmlərin ən şərəflisidir. Faydalı elm bütövlükdə qəlblər üçün nurdur. Elə isə bütün elmlərin ən üstünü, ən şərəflisi, əsası və təməli olan Allahı tanıma elminin nuru necə böyük olar!?

Allahın adlarından və sifətlərindən biri ən-Nur olduğu üçün, Onun dini də nurdur, Rəsulu da nurdur, kəlamı (Quran) da nurdur. Mömin qulları üçün hazırladığı Cənnət də parlaq nur içindədir. Nur möminlərin qəlblərində yerləşir, dillərində təzahür edir, üzlərində görünür.

Uca Allah Qiyamət günü onların nurunu tamamlayacaqdır. Necə ki, buyurur:

“Onların nuru önlərindən və sağ tərəflərində gedərkən onlar: “Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamamla və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!”– deyəcəklər.»” (ət-Təhrim, 66:8)

Əl-Muhsin (المحسن)

Əl-Muhsin Qurani Kərimdə ad olaraq varid olmamışdır, lakin feil olaraq varid olmuşdur. Necə ki, Uca Allahın bu ayəsində olduğu kimi:

“Allah sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et”

Eləcə də başqa ayədə buyurur:

“O mənə lütf etdi. (Belə ki,) məni zindandan çıxartdı və şeytan mənimlə qardaşlarımın arasına ədavət saldıqdan sonra sizi səhradan (yanıma) gətirdi. Şübhəsiz ki, Rəbbim istədiyinə qarşı lütfkardır..”

Sünnə isə bu adın Uca Allaha aid olduğunu təsdiqləmişdir. Allah Elçisi (sallallahu aleyhi və sələm) demişdir:

“Hökm verdiyiniz zaman ədalətli olun, (heyvanı) öldürdüyünüz zaman isə yaxşılıq edin (gözəl şəkildə öldürün). Çünki Allah Əl-Muhsindir (yaxşılıq edəndir), yaxşılıq edənləri sevir.”
(Təbərani və Əbu Nuaym həsən isnadla rəvayət etmişlər).

Allahın **“əl-Muhsin”** adının mənası fəzilətə, nemət verməyə, comərdliyə, ikram etməyə, lütfə və bəxşişə qayıdır. İhsan (yaxşılıq etmək) Onun üçün vacib (ayrılmaz) bir vəsfdir. Yaradılmış heç bir varlıq var edilmək, nemətləndirilmək və dəstəklənmək baxımından bir göz qırpımı qədər belə Onun ehsanından uzaq qala bilməz. Uca Allah buyurur:

“O, hər şeyi gözəl yaradan və insanı ilk olaraq palçıqdan xəlq edəndir”

Və Uca Allah buyurur:

“sizə surət verdi, surətlərinizi də gözəl şəklə saldı. Dönüş də Onadır.”

Ən böyük ehsan isə bu dinə müvəffəq edilmək, aləmlərin Rəbbinə itaət etməyə qəlbin genişlənməsi, ölümə qədər haqq və hidayət

üzərində sabit qalmaqdır. Nəhayət bu, qiyamət günü cənnətə girmək və Kərim, Rəhman, Muhsin, Mənnan olan Allahı görmək kimi ən böyük kəramət və ən uca ehsan ilə tamamlanır. Onun uca fəzilətindən və bol ehsanından diləyirik.

Sonra, şübhəsiz ki, Allah bəndələrinin Onun adlarının mənalarının tələbinə uyğun olaraq Ona yaxınlaşmalarını sevir. O, Rəhmandır – rəhmli olanları sevir; Kərimdir comərd olanları sevir, Muhsindir (yaxşılıq edəndir) yaxşılıq edənləri sevir. Uca Allah buyurur:

“Yaxşılıq edin! Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevir.”

Yaxşılıq etmək ehsandan sayılır: Allahın bəndələrinə yaxşılıq etmək, valideynlərlə yaxşı davranmaq, qohumluq əlaqələrini birləşdirmək (qorumaq), haqları tam ödəmək, ehtiyac sahiblərinə kömək etmək, insanlardan əziyyəti uzaq tutmaq və xeyri onlara çatdırmaq üçün çalışmaq, habelə Allahın bəndələrinə qarşı edilən digər yaxşılıqlar.

Allah bir çox ayələrdə bunun müqabilində həm dünyada tez verilən, həm də axirətdə təxirə

salınan böyük savab vəd etmiş və yaxşılıq edənlər üçün bu iki savabı bu ayəsində bir araya gətirmişdir:

“Beləliklə, Allah onlara dünya savabını və axirət savabının gözəlliyini verdi. Allah yaxşılıq edənləri sevir.”

Allah Öz lütfü və kərəmi ilə bizi onlardan etsin.

Əd-Dəyyən (الديان)

Bu, Allahın, Peyğəmbərin ﷺ sünnəsində sabit olan adlarından biridir. İmam Əhməd “Musnəd” əsərində, Buxari “əl-Ədəbul-Mufrad”də, İbn Əbi Asim “əs-Sünnə”də, Hakim isə “əl-Mustədrak”də və digərləri Cabir bin Abdullahdan (radiyallahu anhu) rəvayət edirlər ki, o belə demişdir:

“Mənə bir nəfərin Rəsulullahdan (sallallahu əleyhi vəsəlləm) eşitdiyi bir hədis çatdı. Dərhal bir dəvə satın aldım, yükümü bağladım və Şama tərəf bir ay yol getdim. Nəhayət, onun yanına gəlib çatdım. Sən demə, o şəxs Abdullah bin Uneys (radiyallahu anhu) imiş. Qapıçıya dedim:

Ona de ki, Cabir qapıdadır. O (Abdullah): İbn Abdullahdır (Cabir bin Abdullah)? deyə soruşdu. Mən: Bəli, dedim. O, tələsik, paltarını sürüyərək çıxdı, qucaqlaşdıq.

Ona dedim: Eşitdim ki, sən Rəsulullahdan (sallallahu əleyhi vəsəlləm) qisas haqqında bir hədis eşitmisən. Sən ölmədən və ya mən ölmədən öncə onu şəxsən səndən eşitməməkdən qorxdum.

Abdullah dedi: 'Rəsulullahın (sallallahu əleyhi vəsəlləm) belə buyurduğunu eşitdim: «İnsanlar – və ya qullar – Qiyamət günü çılpaq, sünnət olunmamış və "buhmən" olaraq dirildiləcəklər.» Biz soruşduq: 'Buhmən nədir? Buyurdu: «Yanlarında heç bir şey olmayan halda. Sonra (Allah) onlara yaxındakının da, uzaqdakının da eyni dərəcədə eşidəcəyi bir səslə nida edəcək: Mən Məlikəm (Hökmdaram), Mən Dəyyanam! Cəhənnəm əhlindən olan heç kəs, Cənnət əhlindən birinin üzərində haqqı olduğu halda, mən o haqqı ondan almayana qədər Cəhənnəmə girməyəcək. Eynilə, Cənnət əhlindən olan heç kəs də, Cəhənnəm əhlindən birinin üzərində haqqı olduğu halda, mən o haqqı ondan almayana

qədər Cənnətə girməyəcək – hətta bu bir şillə olsa belə.»

Biz dedik: Axı biz Allahın hüzuruna çılpaq, sünnət olunmamış və yanımızda heç bir şey olmadan gələcəyiksə, bu necə olacaq? O, Buyurdu: «Yaxşılıqlar və günahlar (savablar və günahlar mübadiləsi) ilə.» İmam Hakimin rəvayətində bu əlavə də var: Rəsulullah (sallallahu əleyhi vəsəlləm) bu ayəni oxudu: ***«Bu gün hər kəsə qazandığının əvəzi veriləcəkdir. Bu gün haqsızlıq yoxdur!» (Ğafir surəsi, 17).”***

Əd-Dəyyan adının mənası: Əvəzini verən, hesaba çəkən deməkdir. Uca Allah Qiyamət günü əvvəlkiləri və sonrakıları bir yerə yığacaq. Onlar əyinlərində paltar olmadan (çılpaq), ayaqlarında ayaqqabı olmadan (yalınayaq), sünnət olunmamış və yanlarında dünya malından heç bir şey olmadan toplanacaqlar. Sonra Allah bu dünyada etdikləri əməllərə görə onları hesaba çəkəcək və əvəzini verəcəkdir. Xeyrin əvəzi xeyir, şərin əvəzi isə şər olacaqdır.

Ağıllı insan Rəbbinin Dəyyan olduğunu, Qiyamət gününün cəza, mükafat və hesab günü olduğunu, mütləq o gün Allahla qarşılaşacağını və həmin gün yaxşı-yaman, böyük-kiçik bütün əməllərinin qarşısına çıxarılacağını bilsə, o gün üçün hazırlıq görər və hesabını edər.

Ağıllı kəs hələ möhlət və əməl diyarında (dünyada) ikən nəfsini hesaba çəkən və onu idarə edəndir. Aciz kəs isə nəfsini özbaşına buraxıb onun istəklərinin arxasınca gedən və nəhayət, qəfil peşmançılıqla qarşılaşan kəsdir.

Şair bu mənada belə demişdir:

Bilin ki, zülmün sonu rüsvayçılıq və peşmançılıqdır,

Günahkar isə hər zaman zalım olaraq qalacaqdır.

Din gününün sahibi olan Dəyyanın hüzuruna gedəcəyik,

Və Allahın hüzurunda bütün iddiaçılar bir araya gələcəkdir.

Rəşidi xəlifəsi Ömər ibn əl-Xəttab (radiyallahu anhu) belə buyurmuşdur:

“Hesaba çəkilməmişdən öncə özünüzü hesaba çəkin, əməlləriniz tərəziyə qoyulmamışdan öncə onları özünüz çəkin. Çünki bu gün özünüzü hesaba çəkməyiniz, sabahkı (böyük) hesabınızı yüngülləşdirər. Ən böyük hüzura çıxmaq üçün (indidən) hazırlaşın. Həmin gün siz (Allaha) ərz olunacaqsınız və heç bir sirriniz gizli qalmayacaq.”

Əl-Muqaddim, Əl-Muaxxir (المقدم، المؤخر)

Bu iki ad Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) sabit olan bəzi səhih hədislərində varid olmuşdur. Belə ki, o, bu dua ilə dua edərdi:

اللهم اغفر لي خطيئتي وجهلي، وإسرافي في أمري، وما أنت " أعلم به مني، اللهم اغفر لي جدي وهزلي، وخطأي وعمدي، وكل ذلك عندي، اللهم اغفر لي ما قدمت وما أخرت، وما أسررت وما أعلنت، وما أنت أعلم به مني، أنت المقدم وأنت المؤخر، وأنت على كل شيء قدير»"

(Allahım! Mənim xətalarımı, cahilliyimi, işimdə etdiyim israfı və Məndən daha yaxşı bildiyin günahlarımı bağışla! Allahım! Mənim zarafatla və ciddi surətdə, bilmədən və bilərəkdən etdiyim

günahlarımı bağışla! Bunların hamısı məndə vardır. Allahım! Mənim əvvəl etdiyim və sonra edəcəyim, gizli saxladığım və aşkar etdiyim, həmçinin Məndən daha yaxşı bildiyin günahlarımı bağışla! Önə çəkən də Sən, geriyə buraxan də Sənsən! Sən hər şeyə qadirsən!)
(Buxari və Müslim rəvayət etmişdir).

Bu iki ad Allahın yalnız birlikdə işlədilən, bir-birini tamamlayan və qarşılıqlı olan adlarındandır. Onlardan heç biri təkbaşına Allaha ad kimi aid edilməz, mütləq digəri ilə birlikdə zikr olunur. Çünki mükəmməllik onların bir yerdə olmasındadır. Önə çəkmək və geriyə buraxmaq Uca Allahın elə iki vəsfidir ki, Onun kamil qüdrətinə, istəyinin mütləq baş verməsinə və kamil hikmətinə dəlalət edir. Bu iki ad həm zati sifətlərdəndir çünki onlar Allahın zatı ilə bağlıdır və Allah bu vəsflərə sahibdir, həm də feili sifətlərdəndir. Çünki önə çəkmək və geriyə buraxmaq məxluqatın özləri, feilləri və vəsfləri ilə bağlıdır.

Önə çəkmə və geriyə buraxma iki növdür:

Kovni (Yaradılış etibarilə): Bu önə keçirmə (təqdim) və geri qoyma (təxir) bəzən kainatdakı qanunlar çərçivəsində olur. Məsələn, Allah bəzi məxluqları digərlərindən üstün və ya əvvəl yaradır, bəzilərini isə sonra yaradır. Səbəbləri nəticələrdən əvvəl, şərtləri isə onlardan asılı olan şeylərdən öncə qərar verir. Yaradılış və ilahi təqdir sahəsindəki bütün bu irəli çəkmə və geri qoymalar buna daxildir.

Şəri cəhətdən: Peyğəmbərlərin digər məxluqlardan üstün edilməsi və onların da öz aralarında bir-birindən üstün tutulması, həmçinin Allahın Öz qullarından bəzilərini digərlərindən üstün etməsi, onları elmdə, imanda, əməldə, əxlaqda və digər vəsflərdə önə çəkməsi, bəzilərini isə bu keyfiyyətlərdə geriyə buraxması kimi. Bütün bunlar Uca Allahın hikmətinə tabedir. O, bəndələrindən istədiyini Öz müvəffəqiyyəti və lütfü ilə rəhmətinə doğru önə çəkir, istədiyini isə Öz ədaləti ilə bundan geriyə buraxır.

Bu iki ad bütün günahların, istər əvvəlki istər sonrakı, gizli və aşkar, xəta üzündən və qəsdən

edilənlərin bağışlanması mənasında və başqa kontekstdə varid olmuşdur. Buradan anlaşılır ki, günahlar qulu uçuruma aparır və geriyə salır. Allahın Öz qulunu əfv etməsi və bağışlaması isə onu önə çəkir və ucaldır.

Hər bir iş Allahın əlindədir. O, istədiyini alçaldır, istədiyini ucaldır, istədiyini izzətli edir, istədiyini zəlil edir, istədiyinə verir, istədiyinə isə mane olur. Allah kimin üçün bir izzət, ucalıq və öndə olmaq yazıbsa, heç kəs onu bundan məhrum edə bilməz. Kimin üçün də bir zəlillik, aşağılıq və geridə qalmaq yazıbsa, heç kəs ondan xilas olmaq üçün ona kömək edə bilməz.

Bu ada iman etməyin bəhrələrindən biri də Allahın önə çəkdiyini önə çəkməyə, geriyə buraxdığını isə geriyə buraxmağa həris olmaqdır. Peyğəmbər ﷺ Allahın önə çəkdiyi şeyi önə çəkməyə və Onun başladığı şeylə başlamağa çox diqqət yetirərdi. Bu səbəbdən də səy edərkən Səfa təpəsindən başlamış və belə buyurmuşdur:

“Allahın başladığı ilə başlayıram”.

Həmçinin dəstəmaz alarkən öncə üzünü, sonra əllərini, daha sonra isə başına məsh etməyi əsas götürmüş və bunu heç bir vaxt pozmamışdır.

Dinin bütün digər işlərində də vəziyyət belədir. Eyni şəkildə, Allahın önə çəkdiyi kimsəni önə çəkmək, geriyə buraxdığını geriyə buraxmaq, Allahın sevdiyini sevmək və Onun nifrət etdiyinə nifrət etmək vacibdir. Çünki bu, imanın ən möhkəm dəstəyidir

.

Ət-Tayyib (الطيب)

Bu ad Əbu Hüreyranin (radiyallahu anhu) rəvayət etdiyi hədisdə varid olmuşdur. O, dedi: Rəsulullah (sallallahu aleyhi və səlləm) buyurdu: ***«Ey insanlar, şübhəsiz ki, Allah tayyibdir (pakdır), yalnız tayyib (pak) olanı qəbul edər. Və şübhəsiz ki, Allah elçilərə əmr etdiyini möminlərə də əmr etmiş və belə buyurmuşdur: «Ey elçilər! Pak nemətlərdən yeyin və saleh əməl edin. Həqiqətən, Mən nə etdiklərinizi bilirəm», və buyurmuşdur: «Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin pak***

olanlarından yeyin». Sonra uzun səfərə çıxmış, saçı-saqqalı dağınıq, toza batmış, əllərini göyə uzadaraq: «Ya Rəbb, ya Rəbb!» deyən bir kişini zikr etdi; halbuki onun yeməyi haram, içməyi haram, geyimi haramdır və haramla qidalanmışdır, elə isə buna necə cavab verilsin (duası necə qəbul olunsun)?» Müslim rəvayət etmişdir.

Bu ad Uca Allahın bütün nöqsanlardan və eyiblərdən uzaq, müqəddəs və pak olduğu anlamına gəlir. Çünki **"tayyib"** sözünün kökü təmizlik, paklıq və hər cür pislikdən uzaq olmaq deməkdir. Uca Allah Öz zatı və sifətləri ilə kamildir. Onun bütün feilləri və sözləri də uca kamilliyindən doğur. O, Öz ucalığına yaraşan şəkildə hər şeyi mükəmməl etmişdir.

Buradan aydın olur ki, Allahın gözəl adları və uca sifətləri Onun etdiyi və dediyi, həmçinin etmədiyi və demədiyi hər şeyə bir sübutdur. Uca Allah yalnız Öz kamillik və əzəmətinə uyğun olanı edər və söyləyər. Buna zidd olan hər şeydən uzaqdır.

O, Tayyibdir, feilləri də pak və gözəldir.

Sifətləri ən gözəl sifətlər, adları isə ən pak adlardır.

Ondan yalnız pak olan şeylər meydana gələr, Ona tərəf yalnız pak olanlar ucalar və Ona yalnız pak olanlar yaxınlaşa bilər.

Onun sözü pakdır və **“gözəl sözlər Ona tərəf ucalar”.** Feili pakdır və saleh əməllər Onun dərgahına qalxar.

Beləliklə, bütün gözəlliklər və paklıqlar Ona məxsusdur, Ona isnad edilir, Ondan başlayır və yenə Ona qayıdır.

Hədisdə keçən **“Allah pakdır və yalnız pak olanı qəbul edər”** ifadəsi göstərir ki, Uca Allah söz və əməllərdən yalnız pak, səmimi və təmiz olanları qəbul edir. Bu qayda bütün əməl və sözlərə şamil olunur. Mömin insan yalnız saleh işlər görməli, yalnız xeyirli sözlər danışmalı, yalnız təmiz yolla qazanmalı və halal olandan xərcləməlidir. Çünki əməllər, sözlər və inanclar da “pak” və “çirkin” olmaqla iki yerə ayrılır. Necə ki, Uca Allah buyurur:

“De: “Murdar şeyin çox olması sənin xoşuna gəlsə belə, murdarla təmiz eyni ola bilməz”. Ey ağıl sahibləri! Allahdan qorxun ki, bəlkə nicat tapasınız.»” (əl-Maidə, 100).

Həqiqi İslam dini öz əqidəsi, hökmləri və əxlaqı ilə bütövlükdə pak bir dindir. Allahın varlığına, mələklərinə, kitablarına, elçilərinə, axirət gününə, xeyir və şərin qədərdən olduğuna iman gətirməyə əsaslanan İslam əqidəsi, qəlblərə rahatlıq verən, nəfsləri saflaşdıran doğru bir inanc sistemidir. Bu əqidəyə bağlanan insan ən uca qayəyə və ən gözəl hədəfə çatır. İslamın hökmləri və əxlaqı da ən pak qaydalardır ki, dinin, dünyanın və axirətin islahı (düzəlməsi) məhz bunlarla bağlıdır. Bunlar itirilərsə, bütün xeyirlər də itmiş olar.

Mömin bu dünyada əqidəsi, əməlləri və sözləri ilə paklaşdığı üçün, Uca Allah axirət yurdunda onu yalnız pak insanların daxil ola biləcəyi Əbədi Ehtiram Yurdu (Cənnət) ilə mükafatlandıracaqdır. Uca Allah buyurur:

“Rəbbindən qorxanlar isə dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: “Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!”!»” (əz-Zümər, 73).

Bu ayədə Cənnətə daxil olmaq əmri “fə” (ərəb dilində nəticə və səbəb bildirən bağlayıcı) hərfi ilə bağlanmışdır. Bu isə o deməkdir ki, Cənnətə girməyin bilavasitə səbəbi insanın paklığıdır. Yəni: **“Pak olduğunuza görə bura daxil olun”** deyilir.

Allahım! Bizi də qiyamət günü özlərinə: “Cənnətə daxil olun, sizə heç bir qorxu yoxdur və siz kədərlənməyəcəksiniz!” — deyilən o pak bəndələrindən eylə! Amin.

Əş-Şəfi (الشافي)

Bu ad, Sünnədə sabit olan adlardandır. “Səhiheyn”də (Buxari və Muslim) Aişədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə, Peyğəmbər ﷺ ailəsindən bəzilərinə sığınmaq duası edərək sağ əli ilə məsh edir və belə deyirdi:

«اللهم رب الناس، أذهب الباس، واشفه وأنت الشافي، لا شفاء إلا شفاؤك، شفاءً لا يغادر سقماً».

“Allahım, ey insanların Rəbbi! Bu xəstəliyi apar, ona şəfa ver, Şəfa verən Sənsən. Sənin şəfandan

başqa şəfa yoxdur. Elə bir şəfa ver ki, heç bir xəstəliyi yaxın buraxmasın.”

Əş-Şəfi adının mənası budur ki, şəfa Ondandır. O, qəlbləri şübhələrdən, tərəddüdlərdən, həsəddən, kin-küdurətdən və digər qəlb xəstəliklərindən sağaldır. Həmçinin bədənlərə xəstəliklərdən və müxtəlif bəlalardan şəfa verən də Odur. Buna Ondan başqa heç kəs qadir deyildir. Buna görə də həqiqi şəfa yalnız Onun şəfasıdır və həqiqi Şəfi (Şəfa verən) yalnız Odur.” İbrahim Xəlilullah (əleyhissalam) dediyi kimi: **“Xəstələndiyim zaman mənə şəfa verən Odur.”** Yəni, şəfa verməkdə heç bir şəriki olmayan, tək şəfa verən Odur. Bu səbəbdən hər bir mükəlləf insanın, Allahdan başqa heç bir şəfa verənin olmadığına qəti şəkildə inanması vacibdir.

Beləliklə, xəstəlik və dərdlərdən şəfa tapmaq üçün Uca Allaha yönəlməyin ən gözəl vəsilələrindən biri Onun Rəbbliyində tək olduğunu, şəfanın yalnız Onun əlində cəm olduğunu və Onun izni olmadan heç kimin şəfa tapa bilməyəcəyini iqrar etməkdir. Çünki əmr də, xəlq etmək də Ona məxsusdur. Hər şey Onun idarəsi və tədbiri ilə baş verir. O, nəyi

istəsə, o olar, nəyi istəməsə, olmaz. Güc və qüdrət yalnız Allaha məxsusdur.

Bununla yanaşı, qulun Şəfa verənin yalnız Allah olduğuna, şəfanın Onun əlində olduğuna inanması və iman gətirməsi faydalı vasitələrdən yapışmağa, yəni müalicə olunmağa, həkimə müraciət etməyə və faydalı dərmanlar qəbul etməyə mane deyildir. Peyğəmbərdən ﷺ müalicə olunmağı əmr edən və müxtəlif faydalı dərman növlərini zikr edən bir çox hədislər rəvayət olunmuşdur ki, bu da Allaha təvəkkül etməyə və şəfanın Onun əlində olduğuna inanmağa zidd deyildir.

Buxari öz "Səhih"ində Əbu Hüreyrədən (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: **"Allah elə bir dərd endirməmişdir ki, onun şəfasını da endirməmiş olsun."**

"Müsnəd"də isə Usamə bin Şərikdən (Allah ondan razı olsun) rəvayət olunur ki, Rəsulullah ﷺ belə buyurmuşdur: **"Şübhəsiz ki, Allah elə bir dərd endirməmişdir ki, onun şəfasını da endirməmiş olsun. Bunu bilən bildi, bilməyən isə bilmədi."**

Uca Allahdan, insanların Rəbbindən, xəstəlikləri aparan, şəfasından başqa şəfa olmayan Əş-Şəfidən diləyirəm ki, bizlərin və bütün müsəlmanların xəstələrinə şəfa versin.

Əl-Cəmil (الجميل)

Bu, Peyğəmbərin (sallallahu əleyhi və səlləm) sünnəsində sabit olan bir addır. Müslim öz "Səhih"ində Abdullah bin Məsuddan (radiyallahu anhu) rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur:

«Qəlbində zərrə qədər təkəbbür olan kəs cənnətə girməz». Bir kişi dedi: «İnsan öz libasının gözəl, ayaqqabısının da gözəl olmasını xoşlayır». Peyğəmbər buyurdu: «Şübhəsiz ki, Allah gözəldir və gözəlliyi sevir. Təkəbbür isə haqqı inkar etmək və insanlara xor baxmaqdır».

Bu ad Uca Allahın adlarında, sifətlərində, zatında və feillərində gözəlliyin sabit olmasına dəlalət edir.

İbn əl-Qeyyim (rahmətullahi aleyhi) buyurmuşdur:

«Onun gözəlliyi dörd mərtəbədən ibarətdir: Zatının gözəlliyi, sifətlərinin gözəlliyi, feillərinin

gözəlliyi və adlarının gözəlliyi. Onun adlarının hamısı ən gözəldir, sifətlərinin hamısı kamil sifətlərdir, feillərinin hamısı isə hikmət, məsləhət, ədalət və rəhmətdir. Zatının gözəlliyinə və Onun necəliyinə gəldikdə isə, bu, Ondan başqasının dərk edə bilməyəcəyi və Ondan qeyrisinin bilməyəcəyi bir şeydir. Yaradılmışların bu barədə bildiyi tək şey, Allahın Öz qullarından kəramət bəxş etdiyi kəslərə Özünü tanıtdığı tərifl ərdir. Çünki bu gözəllik başqalarından qorunmuş, rida və izar örtüyu ilə örtülmüşdür. Necə ki, Rəsulu Onun adından rəvayət edərək buyurur: **«Təkəbbürlük Mənim ridam, əzəmət isə Mənim izarımdır...»** Elə isə kamillik vəsfləri ilə bürünmüş, əzəmət və cəlal örtüyü ilə örtülmüş bir gözəllik haqqında nə düşünürsən?

Bu mənadan Allahın Zatının gözəlliyinə aid bəzi mənalar da anlaşılır. Çünki bəndə Allahın fellərini tanıdiqca sifətlərini tanımağa can atır, sifətləri tanıdıqca isə Zatını tanımağa can atır. O, Allahın fellərinin (əməllərinin) gözəlliyindən bir şey müşahidə etdikdə, bundan sifətlərinin gözəlliyinə

dəlil gətirir. Sonra da sifətlərinin gözəlliyindən Zatının gözəlliyinə dəlil gətirir...

Bununla bərabər cənnət əhlinə verilən nemətin tamamı və ən böyük nemət, onların öz İlahlarını, Rəbblərini və Mövlalarını, Cəmil və Cəlil olan Uca Allahı görmələridir. Çünki bu, onlara verilən ən böyük və nail olduqları ən uca şeydir. O, gözlərin nuru, nəfslərin fərəhi, qəlblərin sevinci, üzlərin nuraniliyi və ən böyük ikramdır. "Səhih Müslim"də Suheybdən (radiyallahu anhu) rəvayət olunur ki, Peyğəmbərdən ﷺ belə buyurmuşdur:

«Cənnət əhli cənnətə daxil olduqda, Allah Təbərakə və Təala buyuracaq: "Sizin üçün artırmağımı istədiyiniz bir şey varmı?" Onlar deyəcəklər: "Məgər Sən bizim üzümüzü ağartmadınmı? Məgər bizi cənnətə daxil edib, cəhənnəm odundan xilas etmədinmi?" Peyğəmbər buyurdu: "Sonra hicab (pərdə) açılacaq və onlara Rəbblərinə (Azzə və Cəllə) baxmaqdan daha sevimli olan heç bir şey verilmiş olmayacaq"».

Allahım! Səndən Sənin kəramətli Camalına baxmağın ləzzətini və Sənə qovuşmağın şövqünü

diləyirik. Elə bir şövq ki, nə bir zərərverici sıxıntı, nə də azdırıcı bir fitnə ilə olmasın.

Əl-Qabid, Əl-Basit (القابض، الباسط)

Bu iki ad sünnədə varid olmuşdur. «Sünən» əsərlərində və «İmam Əhmədin Müsnədində» Ənəs bin Məlikdən (radiyallahu anhu) rəvayət olunur ki, o belə demişdir: **«Rəsulullahın (sallallahu əleyhi və səlləm) dövründə qiymətlər bahalaşdı. İnsanlar dedilər: "Ey Allahın Rəsulu, kaş ki, bizim üçün qiymət qoyardın (tənzimləyərdin)". O buyurdu: "Şübhəsiz ki, Xaliq (Yaradan), Qabid (Daraldan), Basit (Genişləndirən), Raziq (Ruzi verən) və Musəir (Qiymətləri təyin edən) Allahdır. Mən Rəbbimə qovuşanda sizdən heç kimin qan və ya mal mövzusunda məndən bir haqsızlıq (məzlumluq) tələb etməsini istəmirəm"».**

«Əl-Basit» — yəni bəndələrindən dilədiyinə ruzisini genişləndirən, **«Əl-Qabid»** isə — yəni bəndələrindən dilədiyinin ruzisini daraldan və ya onu ruzidən məhrum edəndir. Çünki Uca Allah

bunda onlar üçün bir məsləhət (xeyir) görür. Uca Allah buyurur: **«Əgər Allah qullarına bol bol ruzi versəydi, onlar yer üzündə həddi aşardılar. Lakin O, (ruzini) istədiyi qədər göndərir. Həqiqətən, O, qullarından xəbərdardır, görəndir.» (əş-Şura, 27).**

Qabd kəliməsi sıxmaq, daraltmaq mənasındadır: Ruzidə darlıq etmək, Bəst kəliməsi isə açmaq, genişləndirməkdir. Ruzini genişləndirmək və onu çoxaltmaqdır. Bütün bunlar Aziz və Cəlil olan Allahın əlindədir. O,Daraldandır, Genişləndirəndir, Alçaldandır, Ucaldandır, Verəndir, Məhrum edəndir, İzzətləndirəndir və Zəlil edəndir. Onun heç bir şəriki yoxdur.

Genişləndirmək (bast) və daraltmaq (qabd) anlayışlarının Uca Allaha aid edilməsi Kitab və Sünnədən olan bir çox dəlillərdə zikr edilmişdir. Uca Allah buyurur: **«Allah istədiyi kimsənin ruzisini bol edər, (istədiyinin) də azaldar. (Kafirlər) dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür.» (ər-Rəd, 26)**. Həmçinin Uca Allah buyurur: **«Həqiqətən, Rəbbin istədiyinin ruzisini bol edər, (istədiyininkini də) azaldar. Şübhəsiz ki,**

O, (Öz qullarının halından) xəbərdardır, görəndir.» (əl-İsra, 30).

Bu nasslar və onların bənzərləri dəlalət edir ki, daraltmaq da, genişləndirmək də bütövlükdə Təbərəkə və Təala olan Allahın əlindədir. Onun yönləndirməsi və tədbiri ilə bəndələrindən dilədiyinin malını, sağlığını, ömrünü, elmini və ya həyatını genişləndirər, dilədiyininkini isə daraldar. O, Hakimdir (Hikmət sahibidir), Xabirdir (Hər şeydən xəbərdardır).

Allahım! Bizə Öz bərəkətindən, rəhmətindən, lütfündən və ruzindən bol-bol (genişliklə) nəsib et.

Əl-Mənnan (المنان)

Bu ad hörmətli Peyğəmbərimizin (sallallahu əleyhi və səlləm) sünnəsində sabit olmuşdur. İmam Əhməd və başqaları Ənəs bin Məlikdən (radiyallahu anhu) rəvayət edirlər ki, Peyğəmbər ﷺ bir kişinin belə dediyini eşitdi:

“Allahım! Həmdin Yalnız Sənə məxsus olması vəsiləsi ilə Səndən istəyirəm. Səndən başqa heç bir ilah yoxdur, Sən təksən, şərikin yoxdur. Əl-

Mənnən (lütf sahibisən), göyləri və yeri yoxdan var edənsən, Cəlal və İkram sahibisən.”

Bunun üzərinə Peyğəmbər ﷺ buyurdu:

«Sən Allaha Onun elə bir əzəmətli adı ilə ən uca adı ilə dua etdin ki, o adla dua edildikdə qəbul edər, istənildikdə isə verər».

Əl-Mənnən: Lütfü çox olan, böyük töhfələr verən, ehsanı geniş olan, bəndələrinə ardı-arası kəsilmədən ruzi yetirən, Öz lütf və kəraməti ilə onlara nemətləri ardıcıl bəxş edəndir. Mütləq mənada Allahdan başqa heç əsl lütf sahibi yoxdur. O, bəndələrinə hələ istəmədən öncə verməyə başlayandır. Bəndələri üzərində lütf yalnız Ona məxsusdur. Həç bir bəndənin isə Uca Allaha qarşı heç bir minnəti (haqqı) ola bilməz. Allah ona aid edilən naqisliklərdən olduqca ucadır.

Bu adın təzahürü yaxşı və pis fərq etmədən bütün məxluqat üçün aşkar surətdə görünməkdədir: Onun bol-bol bəxşişləri, geniş ətaları, kəramətli yardımları, gözəl lütfləri, geniş rəhməti, xeyirxahlığı və mehribanlığı... Həmçinin, çarəsiz qalanların dualarını qəbul etməsi, sıxıntıda olanların dərdini yüngülləşdirməsi, kömək

diləyənlərin dadına çatması, səbəbləri yarandıqdan sonra bəlaları dəf etməsi və baş verdikdən sonra onları uzaqlaşdırması da bundandır. Uca Allahın bu məsələdəki lütfkarlığı arzuların belə çatmayacağı bir məqamdadır.

Onun böyük lütflərindən biri də Uca Allahın sevdiyi bəndələrini salamatlıq yurduna (Cənnətə) yönəltməsi, onları ən gözəl şəkildə müdafiə etməsi və günahlara düşməkdən qorumasıdır. O, imanı onlara sevdirmiş, onu qəlblərində bəzəmiş, küfrü, fasiqliyi və üsyanı isə onlara pis göstərmiş və onları doğru yolda olanlardan etmişdir... Və daha neçə-neçə nemət növləri və lütf çeşidləri vardır ki, Uca Allah belə buyurur:

“Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz..” Nəhl 18

Və Uca Allah yenə buyurur:

“Sizə verilən hər bir nemət Allahdandır.” Nəhl 53

Kim nemətlərin əsl qaynağını görmək istəyirsə, nəzərlərini Quranı-Kərimin bağlarında gəzdirsin və Allahın orada sadaladığı böyük nemətlərini, uca ətalarını və bol lütflərini dərindən düşünsün.

Rəbbini bu uca adla tanıyan, lütf və bəxşişin yeganə Sahibinin, töhfə və nemətlərin tək Sahibinin O olduğunu dərk edən şəxs – Rəbbinə nemətlərinə görə həmd etməli, fəzilətinə və bəxşişinə görə Ona şükür etməlidir.

“(Süleyman) qarışqanın bu sözünə gülümsədi və dedi: “Ey Rəbbim! Mənə, həm mənim özümə, həm də valideynlərimə ata etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməli etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!”. Nəml 19

Allahım! Buna görə Sənə çoxlu, pak və mübarək həmdlər olsun! Allahım! Sən razı olana qədər Sənə həmd olsun və razı olduğun zaman da Sənə həmd olsun, ey Rəbbimiz!

Əl-Həyiyy (الحيي)

Həya sözü Qurani-Kərimdə Uca Allaha nisbət edilərək fel formasında zikr edilmişdir. Uca Allah buyurur: **«Şübhəsiz ki, Allah ağcaqanadı (istər böyüklükdə, istərsə də kiçiklikdə) və ondan üstün**

olanı məsəl çəkməkdən həya etməz...» (əl-Bəqərə, 26).

Ad formasında isə iki hədisdə varid olmuşdur:

Birincisi: Yəalə ibn Umeyyənin (Allah ondan razı olsun) hədisidir ki, Rəsulullah ﷺ bir nəfərin açıq sahədə izarsız (belindən aşağısını örtmədən) çimdiyini gördü. Minbərə qalxıb Allaha həmd-səna etdikdən sonra buyurdu: ***«Şübhəsiz ki, Uca Allah Həyiyy (çox həyalı) və Sittirdir (qüsurları örtəndir); həyanı və örtünməyi sevər. Sizdən biri çimdikdə örtünsün ». (Əbu Davud və ən-Nəsai rəvayət etmişdir).***

İkincisi: Səlman əl-Farisinin (Allah ondan razı olsun) hədisidir ki, Rəsulullah ﷺ buyurub: ***«Rəbbiniz Təbarəkə və Təala Həyiyydir (çox həyalıdır), Kərimdir (səxavətlidir). Bəndəsi əllərini Ona tərəf qaldırdıqda, onları boş qaytarmaqdan həya edər». (Əbu Davud və İbn Macə rəvayət etmişdir).***

Bu mübarək ad Uca Allahın Öz əzəmət və cəlalına layiq şəkildə həya sifətinə sahib olduğuna dəlalət edir. O, bütün sifətlərində yaratdıqlarından heç birinə bənzəmir və yaratdıqlarından heç biri də

Ona bənzəmir. Necə ki, Uca Allah buyurmuşdur: **«Onun mislində heç bir şey yoxdur. O, Eşidəndir, Görəndir» (əş-Şura, 11)** və Uca Allah buyurmuşdur: **«Heç Ona bənzəyən birini tanıyırsanmı?!» (Məryəm, 65).** Buna görə də, Onun həyası Özünə yaraşan bir sifətdir, məxluqların həyası kimi deyildir.

Bu sifət haqqında deyilən söz, Uca Rəbbin digər bütün sifətləri haqqında deyilən söz kimidir. Biz Uca Allah üçün bizim elmimizə bənzəməyən bir elm, bizim görməyimizə bənzəməyən bir görmə, bizim eşitməyimizə bənzəməyən bir eşitmə və bizim iradəmizə bənzəməyən bir iradə isbat etdiyimiz kimi, Onun üçün bizim həyamıza bənzəməyən bir həya da isbat edirik. Çünki Onun Özü üçün isbat etdiyi və Peyğəmbərinin Onun üçün isbat etdiyi hər bir şey şübhəsiz ki, haqdır.

Uca Allah Həyiyydir, həyanı və həya əhlini sevir. Həyanı əmr edən, ona təşviq edən, ona rəğbətləndirən, onu imanın şöbələrindən sayan, onun əzəmətli bəhrələrini, mübarək təsirlərini və onun tamamilə xeyir olduğunu bəyan edən dəllilər çoxdur.

Həyanın ən əzəmətlisi və vacib olanı Uca Allahdan həya etməkdir. Abdullat ibn Məsuddan (Allah ondan razı olsun) rəvayət olunur ki, Rəsulullah ﷺ buyurdu: ***«Allahdan haqqlı olaraq həya edin!» Biz dedik: «Ey Allahın Rəsulu, həmd olsun Allaha ki, biz həya edirik.» Buyurdu: «Məsələ bu (sizin düşündüyünüz) deyildir. Lakin Allahdan haqqlı olaraq həya etmək: başı və onda olanları (qulaq, göz, dil və s.) qorumaq, qarnı və onun əhatə etdiklərini (mədə, övrət yeri və s.) qorumaq, ölümü və çürüyüb torpaq olmağı xatırlamaqdır. Kim axirəti istəyərsə, dünya ziynətini tərk edər. Kim bunları edərsə, Allahdan haqqlı olaraq həya etmiş olar». (Əhməd və ət-Tirmizi rəvayət etmişdir).***

Allah bizə Özündən haqqı ilə həya etməyi nəsib etsin, qeybdə də, aşkarda da Özündən qorxmağa müvəffəq eləsin!

Əs-Sittir (الستير)

Bu ad yuxarıda qeyd olunan Yəalə ibn Umeyyənin (Allah ondan razı olsun) hədisində varid olmuşdur.

İbn Əbi Hətim öz təfsirində, əl-Beyhəqi isə **«əs-Sunənul-Kubra»** əsərində İkrimədən, o da İbn Abbasdan (Allah onların hər ikisindən razı olsun) rəvayət etmişdir ki, iki nəfər ondan Qurani Kərimdə Allahın əmr etdiyi üç xəlvət vaxtında izin istəmək barədə soruşdu. İbn Abbas dedi: ***«Şübhəsiz ki, Allah Sittirdir (ayıbları örtəndir), və örtməyi sevər. Əvvəllər insanların qapılarında pərdələri, evlərində isə ayrıcı örtükləri yox idi. Bəzən adam zövcəsi ilə birgə olarkən xidmətçisi, övladı və ya himayəsində olan yetim qəfildən onun yanına girirdi. Buna görə də Allah onlara Quranda adını çəkdiyi həmin üç məhrəm vaxtda (otağa girməzdən əvvəl) izin istəməyi əmr etdi.***

Daha sonra Allah insanlara bol ruzi bəxş etdikdən sonra onlar evlərinə və qapılarina pərdələr, örtüklər vurdular. Bundan sonra insanlar elə düşündülər ki, artıq bu pərdələr onları əmr olunduqları izin istəmək öhdəliyindən azad edir

(yəni pərdə olduğuna görə daha icazə almağa ehtiyac yoxdur).»**

(İbn Kəsir öz təfsirində bu rəvayətin isnadının səhih olduğunu bildirmişdir).

«Əs-Sittir» – yəni bəndələrinin günahlarını çox örtən, onları camaat arasında rüsvay etməyən, bəndələrindən də özlərini rüsvay edəcək və utanc gətirəcək əməllərdən örtünmələrini (gizlətmələrini) sevəndir. Bu, Allahın bir lütfü, rəhməti, həlimliyi və cömərdliyidir. Bəndə Rəbbinə son dərəcə möhtac olduğu halda bəzən bəzi günah və xətalara yol verir. Uca Rəbbimiz isə bütün yaratdıqlarından, onların itaət və ibadətindən tamamilə ehtiyacsız olduğu halda bəndəsinə ikram edir, onu örtür, onun həyat pərdəsinin cırılmasından, rüsvay olmasından və ona cəza verməkdən həya edir. Onun üçün örtünmə səbəblərini hazırlayır, onu peşmançılıq və tövbəyə müvəffəq edir, onu bağışlayır və əfv edir. Bu, Onun yaratdıqlarına olan lütfü və bəndələrinə olan rəhmətindəndir. Uca Allah buyurur:

«Bəndələrindən tövbəni qəbul edən, günahları

bağışlayan və sizin nə etdiyinizi bilən Odur!» (əş-Şura, 25).

Buna görə də O, bəndəsi bir günaha düşdükdə onu yaymasını və insanlara bəyan etməsini xoşlamaz. Əksinə, Allahın örtüyü onun üzərində olduğu halda, özü ilə Allah arasında tövbə etməyə çağırır. Günahını insanlardan heç kəsə göstərməməsini istəyir. Allahın ən çox nifrət etdiyi insanlardan biri də o kəsdir ki, gecəni günahkar olaraq keçirər, Allah onun günahını örtər, səhər açıldıqda isə Allahın onun üzərindəki örtüyünü açar (günahını insanlara danışar).

Səhiheyn-də (Buxari və Müslimdə) Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, o, Allah Rəsulunun ﷺ belə buyurduğunu eşitmişdir: ***«Ümmətimin hamısı bağışlanacaqdır , günahını aşkar edənlərdən başqa. Günahı aşkarlamağın bir növü də budur ki, bir nəfər gecə bir əməl (günah) edər, Allah da onu örtər. Səhər açıldıqda isə o deyər: «Ey filankəs, dünən gecə belə-belə iş görmüşəm». Rəbbi gecəni onun günahını örtərək keçirmişdi, o***

isə səhər açılan kimi Allahın onun üzərindəki örtüyünü açır».

Bu mənadan biri də Allahın bəndələrinin ayıblarını örtmək, onların həya pərdələrini cırmaqdan və gizli halları arxasınca düşməkdən çəkinməkdir. Səhihəyn-də İbn Ömərin (Allah onların hər ikisindən razı olsun) hədisində Peyğəmbər ﷺ buyurmuşdur: ***«Kim bir müsəlmanın ayıbını örtərsə, Allah da Qiyamət günü onun ayıbını örtər».***

Allahım, bizim də qusurlarımızı və ayıblarımızı ört, günahlarımızı və xətalarımızı bağışla, əməllərimizi və ömrümüzü saleh işlərlə tamamla!

Əs-Seyyid (السيد)

Bu, Rəsulullahdan ﷺ səhih hədisdə rəvayət olunan bir addır. Əbu Davud yaxşı bir sənədlə Abdulla ibn əş-Şixxirdən (Allah ondan razı olsun) rəvayət etmişdir ki, o belə demişdir: «***Bəni Amir qəbiləsinin nümayəndə heyəti ilə birlikdə Rəsulullahın ﷺ yanına getdim və biz dedik: "Sən***

bizim seyyidimizsən (ağamızsan)". O buyurdu: "əs-Seyyid (əsl ağa) Uca olan Allah təbərak və təaladır". Biz dedik: "Ən fəzilətimiz və üstünlük baxımından əzəmətlimizsən". O buyurdu: "Deyəcəyinizi və ya sözünüzün bir hissəsini deyin və şeytan sizi ardınca aparmasın"».

İbn Abbasdan (Allah onların hər ikisindən razı olsun) **Uca Allahın: Allah əs-Saməddir ayəsi haqqında belə dediyi rəvayət olunmuşdur: *«O, ağalığında (ağalıq sifətində) kamilləşmiş Seyyiddir».***

Peyğəmbərin ﷺ **«Əs-Səyyid Allahdır»** sözündəki məqsədi budur ki, həqiqi ağalıq və hökmranlıq yalnız Uca və Bərəkəti bol olan Allaha məxsusdur. Ağalıq da, mülk də, yaratmaq da və hər şeyi idarə etmək də ona məxsusdur , həmçinin qarşısında zəlil olmağa, təslim olmağa, itaət etməyə və boyun əyməyə layiq olan yalnız Odur."

O, bu kainatda mütləq iradə və idarə etmə sahibidir, Onun heç bir tayı-bərabəri yoxdur. O, itaətin, zəlilliyin və xuşunun yalnız və yalnız Şəriksiz olaraq Ona yönəldilməli olduğu Seyyiddir. Necə ki, O, Sübhənəhu və Təala, məxluqatı idarə

edən və tayı-bərabəri olmayan Seyyiddir, eynilə də şərikisiz olaraq ibadət olunan Seyyid olmalıdır. Necə ki, Uca Allah buyurmuşdur: **«De: "Allah hər şeyin Rəbbi olduğu halda, mən Ondan başqa Rəbbmi axtaracağam?"».** İbn Abbas (Allah onların hər ikisindən razı olsun) **«Rəbb axtaracağam» kəlməsinin mənasında demişdir: «Yəni seyyid (ağa) olan bir ilah».**

İbn Cərir ət-Təbəri isə **«O, hər şeyin Rəbbidir»** ayəsi haqqında demişdir: **«Yəni O, hər şeyin seyyidi (ağası), idarə edəni və islah edənidir».**

Bu, şirkin və tay-bərabər tutmağın batil olmasına ən böyük dəlil və ən aydın sübutdur. Kim Allahdan başqa istər qəbirdə olanlardan, istərsə də dirilərdən birini seyyid (ağa) tutaraq onun fayda gətirəcəyinə və ya zərəri dəf edəcəyinə inanarsa, yaxud ehtiyacını ona bağlayarsa, və ya qəm və kədərinin aradan qaldırılmasını ondan istəyərsə və buna bənzər işlər edərsə, artıq Əzəmətli Allaha şərik qoşmuş olar. Bəzi insanlar qəbirdə olan bəzi kəslərə bu ləqəbi verərək, onlara inanmaqla, onlara sığınmaqla, onların qarşısında boyun əyib zəlil olmaqla, bununla da tövhidlərini pozaraq ona

zidd və əks olan şeylərlə çirklənməklə bəlaya düçar olmuşlar.

Yuxarıdakı hədisdə Peyğəmbərin ﷺ tövhidi necə mühafizə etdiyinə, onun uca məqamını qoruduğuna və şirk yollarını bağladığına diqqət et! Onlar ona: **«Sən bizim seyyidimizsən» dedikdə, O: «Seyyid Bərəkətli və Uca olan Allahdır»** dedi və sonra onlara: **«Şeytan sizi özünə nökər etməsin (ardınca aparmasın)»** buyurdu. Halbuki onlar həqiqətdən başqa bir şey deməmişdilər.

Çünki o (əleyhissəlatu vəssalam) Adəm övladının seyyidi (ağası), Allahın bəndələrinin ən fəzilətlisi və müttəqilərin imamıdır.

Lakin Allah onun üçün qulluq (ubudiyyət) məqamını kamilləşdirdiyi zaman, o, bu məqamı qorumaq üçün üzünə qarşı tərifləmməyi xoşlamazdı. Bu, ümmətə nəsihət edərək onları bundan çəkindirməsi, tövhid məqamını ona fəsad vuracaq və ya onu zəiflədəcək şirkdən və onun vəsilələrindən, yəni qəlbin məxluqata yönəlib onlara bağlanmasından, zəlil olub sınmasından qorumaq üçün idi. O zillət və sınma ki, tək və

Qahhar olan Allahdan başqasına yönəldilməsi halal və caiz deyildir.

Ər-Rafiq (الرفيق)

Bu, Sünnədə sabit olan gözəl adlardan biridir. Buxari öz "Səhih"ində Urvədən, o da Aişədən (Allah ondan razı olsun) rəvayət edir ki, o belə demişdir: ***«Bir qrup yəhudi Peyğəmbərdən ﷺ icazə istəyib (yanına gəldilər) və dedilər: "Əs-Samu əleykum (Sizə ölüm olsun)". Mən dedim: "Bəlkə ölüm və lənət sizin üzərinizə olsun!" Peyğəmbər ﷺ buyurdu: "Ey Aişə! Şübhəsiz ki, Allah Rafiqdir (mülayimdir, lütfkardır), hər bir işdə mülayimliyi və nəzakəti sevər". Mən dedim: "Məgər onların nə dediyini eşitmədinizmi?" Buyurdu: "Mən də (va aleykum) 'Sizin öz üzərinizə' dedim"».***

Bu hədisdə Allahın **«ər-Rəfiq»** adı ilə adlandırılması və rifq (yumşaqlıq, mülayimlik) sifəti ilə vəsf edilməsi açıq şəkildə bildirilir. Həmçinin, bu sifətin Onun Cəlalına və Kamalına yaraşan ən uca və ən kamil şəkildə olduğu ifadə edilir.

“Rifq” (mülayimlik) – işlərdə yumşaqlıq, asanlıq, təmkin və tələsməmək deməkdir. Əksi isə zorakılıq, sərtlik və təzyiqdir. Bu söz işlərdə səbirli olmaq və mərhələli şəkildə hərəkət etmək mənasını verən **“rifq”** kəlməsindən götürülmüşdür. Uca Allah Öz qədərində, qəzasında və əməllərində Rafiqdir (mülayimdir). Əmrlərində, hökmlərində, dinində və şəriətində də Rafiqdir.

Rəbbimizin Öz əməllərindəki mülayimliyindən biri odur ki, O, “Ol” kəlməsi ilə hər şeyi bir anda yaratmağa qadir olduğu halda, bütün məxluqatı Öz hikməti və lütfünə uyğun olaraq tədricən, mərhələ ilə yaratmışdır.

Allahın bəndələrinə olan mülayimliyinin digər təzahürü Onun hökmlərində, əmr və qadağalarında görünür. O, bəndələrinə gücləri çatmayan şeyi yükləməz, əmrlərin icrasını imkan daxilində saxlamış, sadəcə çətinlik yarandıqda bəndələrinə rəhm edərək və onlara güzəşt olaraq bir çox əməlləri onlardan qaldırmışdır. Həmçinin, dini öhdəlikləri bəndələrə birbaşa deyil, tədricən

yükləmişdir ki, nəfslər buna alışsın, təbiətlər mülayimləşsin və tam itaət təmin olunsun.

Uca Allahın mülayimliyindən biri də günah edən və xətaya yol verən bəndəsinə cəzanı təxirə salması, rəbbinə qayıtması, tövbə etməsi və doğru yola dönməsi üçün ona möhlət verməsidir.

Onun mülayimliyinin bir dəlili də dininin tamamilə asanlıq, rəhmət və yumşaqlıq üzərində qurulmasıdır. O, bəndələrinə mülayim olmağı əmr etmişdir. Mülayimliyə görə verdiyi savab və xeyri sərtliyə görə verməz. Mülayimlik hansı işdə olarsa, onu bəzəyər, hansı iş ondan məhrum olarsa onu qüsurlu edər. Buna görə də hər bir müsəlman bütün işlərində və hallarında tələskənlikdən, coşqunluqdan və təhlükəli addımlardan uzaq duraraq mülayim olmalıdır. Çünki tələskənlik şeytandandır və sahibinə xəyal qırıqlığı ilə zərərdən başqa bir şey gətirməz. Mülayimliyin şərəf və fəzilət olaraq Mərhəmətli olan Allahın sevgisini qazandırması kifayətdir, çünki O, Rafiqdir və mülayimliyi sevər. Bizim borcumuz bütün işlərimizdə mülayimlik göstərməkdir. Müvəffəqiyyət verən yalnız tək olan Allahdır.

Əl-Vitr (الوتر)

Bu ad sünnədə sabit olan adlardandır. Səhiheyndə (Buxari və Müslüm) Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunan hədisdə Peyğəmbər ﷺ buyurmuşdur: ***«Allahın doxsan doqquz – yüzdən bir əskik – adı vardır. Kim onları sayarsa (əzbərləyib mənası ilə əməl edərsə), Cənnətə girər. O, Vitrdir (Təkdir), vitri (tək olanı) sevir».***

"Əl-Vitr": Şəriki və bənzəri olmayan tək deməkdir. Bu ad Allahın Öz kamal sifətlərində və əzəmət vəsfərində tək olmasına, bunların heç birində Onun şəriki və bənzərinin olmamasına dəlalət edir. Qurani-Kərimdə Allahın tayı, bənzəri, bərabəri və şəriki olmağını inkar edən çoxlu dəllilər buna dəlalət edir və bunu ən aydın şəkildə bəyan edir.

Allaha **əl-Vitr** (Tək) olmasına iman etmək, hər baxımdan zatında, sifətlərində və fellərində Ona şərik qoşulmasını inkar etməyi ifadə edir. Həmçinin bu, əzəmət, kamillik, şan-şərəf, kibriya və cəlal baxımından yalnız Onun misilsiz və bənzərsiz olduğunu qəbul etməkdir. Eləcə də bu, bütün varlıqları yaratmaqda, məxluqatı yoxdan var

etməkdə və yaratdıqlarını istədiyi kimi idarə etməkdə Allahın tək və misilsiz olduğunu qəbul etməkdir. Onun heç bir şəriki, bənzəri, tayı və misli yoxdur.

Bu etiqad isə insanın yalnız Allaha qarşı zillət və itaət göstərməsini, məhəbbət bəsləməsini, Ona ümid etməsini, təvəkkül etməsini, Ona yönəlməsini və ibadətin bütün növlərini yalnız Ona məxsus etməsini zəruri edir.

Əbul-Abbas əl-Qurtubi (Allah ona rəhmət eləsin) demişdir: ***«Vitr dedikdə tövhid qəsd edilir. Mənası belə olur: Şübhəsiz ki, Allah Öz Zatında, kamilliyində və feillərində Təkdir və tövhidi sevir. Yəni Onun təkliyinə və məxluqatından ayrı olaraq yalnız Özünün tək olduğuna etiqad edilir. Beləliklə, hədisin əvvəli ilə sonu, zahiri ilə batini uzlaşır».***

Hədisin əvvəli Allahın təkliyi, əzəmət, kamillik, xəlq etmə və idarəetmədə tək olması barədə xəbərdir. Sonu isə tövhidə rəğbətləndirmək və Allahın buna riayət edən, onu qoruyan tövhid əhlini sevdiyini bəyan edərək ona təşviq etməkdir.

Allah Qurani-Kərimdə bəyan etmişdir ki, özlərinə şəfaətçi götürənlər onları Allaha şərik qoşmuşdur və həmin şəfaətçilər onlara ibadət edənlər üçün heç bir xeyir və ya fayda verməyə malik deyillər. Uca Allah belə buyurub:

“Onlar Allahdan başqa, özlərinə nə zərər, nə də fayda verə bilən şeylərə ibadət edir və deyirlər: ‘Bunlar Allah yanında bizim şəfaətçilərimizdir. De: ‘Siz Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz?’ O, pakdır və onların şərik qoşduqlarından ucadır.” (Yunus, 18)

Beləliklə, özünə şəfaətçi götürən şəxs müşrikdir və onun şəfaəti ona fayda verməz və onun üçün şəfaət edilməz.

Rəbbini tək məbudu, ibadət etdiyi, sevdiyi, ümid bəslədiyi və qorxduğu yeganə İlah olaraq qəbul edən və yalnız Ona yaxınlaşan, Onun razılığını axtaran və Onun qəzəbindən uzaq duran şəxs isə mömin və tövhid əhlidir. Belə bir insan üçün həm dünyada, həm də axirətdə gözəl aqibət, səadət və nicat vardır.

Allah bizi bunları gerçəkləşdirməyə müvəffəq etsin və Öz lütfü və kərəmi ilə bizi nəim cənnətlərinin əhlindən etsin.

Əl-Mu'ti, Əl-Cəvad (المعطي، الجواد)

Uca Allahın **«əl-Muʿti»** adı Səhih əl-Buxaridə Müaviyə (Allah ondan razı olsun) tərəfindən rəvayət edilən hədisdə sabit olmuşdur. Rəsulullah ﷺ buyurmuşdur:

"Allah kimin xeyrini istəyərsə, onu dində fəqih edər. Allah (qənimətləri) Verəndir, mən isə onları bölənəm. Bu ümmət Allahın əmri gələnədək onlara müxalif olanlara qarşı qalib olaraq qalacaq və onlar üstün olacaqlar."

əl-Cəvad adı isə Əbu Zərr (Allah ondan razı olsun) rəvayət etdiyi qüdsü hədisdə qeyd edilmişdir. Rəsulullah ﷺ buyurmuşdur:

Uca Allah buyurur: ***«"Ey bəndələrim, Mənim hidayət etdiklərimdən başqa hamınız azğınlıqdasınız....."*** Bu hədisi Əl-Tirmizi və İbn Macə rəvayət etmişdir. Hədisin sonunda buyurulur: ***«Bu, Mənim Cömərd (əl-Cəvəd) və***

Şanlı (əl-Məcid) olmağımdandır; istədiyimi edərəm. Mənim bəxş etməyim bir sözdür, əzab verməyim də bir sözdür. Mən bir şeyi istədiyim zaman ona sadəcə: «Ol!» deyirəm və o da olur."

əl-Muʿṭi — həqiqi mənada yalnız tək verən Odur. Onun verdiyinə mane olacaq heç kəs yoxdur və Onun mane olduğu şeyi verə biləcək də heç kəs yoxdur. Onun bəxş etməsi bir sözdür, mane olması də bir sözdür. O, bir şeyi istədiyi zaman yalnız **"Ol!"** deyir və həmin şey dərhal olur.

Qulların sahib olduğu bütün nemətlər Onun lütfü və bəxş etməsindəndir. Onun bəxşişi bütün qullarını əhatə etmişdir. Mömini də, kafiri də, itaətkarı da, günahkarı da. Bu, dünya həyatında belədir. Axirət günündə isə Allah bu bəxşişi yalnız mömin olan dostlarına məxsus edəcəkdir.

Uca Allah buyurur:

"De: «Allahın Öz qulları üçün yaratdığı zinəti və ruzidən olan pak nemətləri kim haram etmişdir?» De: «Bunlar dünya həyatında iman gətirənlər üçündür, Qiyamət günü isə yalnız onlara məxsus olacaqdır.» Biz ayələri bilən insanlar üçün belə ətraflı açıqlayırıq." (əl-Əraf, 32)

əl-Cəvad adının mənası: çox bəxş edən, öz səxavəti ilə bütün məxluqatı əhatə edən, onları Öz lütfi ilə, kərəmi və müxtəlif nemətləri ilə dolduran deməkdir. Heç bir məxluq bir göz qırpımı qədər belə Onun ehsanından kənarda qalmır.

İbn əl-Qeyyim (Allah ona rəhmət etsin) demişdir:

"Uca Allah qullarının Ona ümid etmələrini, Ona ümid bağlamalarını və Onun lütfündən istəmələrini sevir. Çünki O, həqiqi Məlik və Cəvaddır (çox səxavətlidir). Ondan istənilənlərin ən səxavətlisi, bəxş edənlərin ən geniş bəxşiş sahibidir. Cəvad üçün ən sevimli şey Ondan ümid edilməsi, Ondan gözlənilməsi və Ondan istənilməsidir. Hədisdə də belə buyurulmuşdur: ***«Kim Allahdan istəməzsə, Allah ona qəzəblənər.»"***

Kərəm sahibi və Səxavətli Allahdan diləyimiz budur ki, Öz səxavət və kərəminə nail olmağa səbəb olan əməlləri hamımıza nəsib etsin və bizi Onun qəzəbinə, cəzasına və intiqamına aparan səbəblərdən qorusun.

Çünki səxavət və bəxşiş yalnız Ona məxsusdur, nemət və lütf Ondandır və bütün işlərin əvvəli də, sonu da Ona aiddir. Onun heç bir şəriki yoxdur.

Zu-l-Cəlali və-l-İkram (ذو الجلال و الإكرام)

Bu ad ər-Rəhman surəsində Uca Allahın bu ayəsində keçir: **"Cəlal və ikram sahibi olan Rəbbinin adı nə qədər mübarəkdir!"** Sünnədə də bu adla dua etməyin fəziləti varid olmuşdur. "Əl-Musnəd" əsərində Rəbiə bin Amir (Allah ondan razı olsun) rəvayət edilir ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: ***"«Yə Zəl-Cələli vəl-İkrām» (Ey əzəmət və kərəm sahibi) zikrinə sarılın"*** — yəni ona davamı edin, ondan möhkəm yapışın və dualarınızda bu sözü çoxlu tələffüz edin.

"Səhih Muslim"də Sovbən radıyallahu anhudan rəvayət olunur ki, o demişdir: ***"Rəsulullah ﷺ namazını bitirdikdə üç dəfə bağışlanma diləyər (istiğfar edər) və belə deyərdi: «Allahummə əntəs-səlam və minkəs-səlam, təbərəktə yə zəl-cələli vəl-ikrām» (Allahım! Sən Salamsan-***

salamatlıq verənsən, salamatlıq da Səndəndir. Ey əzəmət və kərəm sahibi, Sən xeyirxahsan!)"

Bu ad izafəli (birləşmə şəklində olan) adlardandır və bir çox elm əhlinin rəyinə görə Allahın ən gözəl adları (Əsmaul-Husna) sırasına daxildir.

Şeyxulisləm İbn Teymiyyə (rəhiməhullah) demişdir: ***"Eləcə də Onun izafəli adlarından məsələn: Ərhəmur-Rahimin (Rəhimlilərin ən rəhimlisi), Xayrul-Ğafirin (Bağışlayanların ən xeyirlisi), Rabbul-Aləmin (Aləmlərin Rəbbi), Məliki Yəumiddin (Haqq-hesab gününün sahibi), Əhsənul-Xaliqin (Yaradanların ən gözəli), Cəmiun-Nəsi li-Yəvmin lə Raybə Fih (Şübhə edilməyən bir gündə insanları toplayan), Muqallibul-Qulub (Qəlbləri çevirən) və Kitab ilə Sünnədə sabit olan, həmçinin müsəlmanların icması ilə dua edilməsi qəbul olunan digər adlar buna misaldır."***

Uca Allahın **"Zi-l-Cəlali və-l-İkram"** adında iki növ vəsf cəmlənmişdir: **"Cəlal"** uca tutmağı və təzimi, **"İkram"** isə həmdi və sevgini özündə ehtiva edir. Şeyxülislam İbn Teymiyyə (rəhiməhullah) demişdir: **"Əgər O, əzəmət və kərəmə layiqdirsə, deməli, Öz Zatında bunu vacib edən sifətlərə**

sahibdir. Necə ki, «İlah — ibadət olunmağa layiq olandır» deyildikdə, bu, Onun Öz Zatında ibadət olunmağı tələb edən sifətlərə malik olduğunu göstərir... O, belə davam edir: Qullar Ona layiqincə tərif deyə bilməzlər, O, Özünü vəsf etdiyi kimidir. Eynilə O, ucaldılmağa və ikram olunmağa layiqdir; Uca Allah Öz-Özünü ucaldır və Özünə ikram edir, qullar isə Onun əzəmətini və ikramını sayıb-bitirə bilməzlər.

"Əl-İcləl" uca tutmaq, əzəmətləndirmək təzim etmək qəbilindəndir. **"Əl-İkram"** ehtiram göstərmək, ikram etmək isə məhəbbət və həmd etmək qəbilindəndir. Allahın bu ayəsində olduğu kimi:

"Mülk Onundur və həmd də Ona məxsusdur."

Deməli, uca tutmaq və mülk Ona məxsusdur, ikram etmək və həmd də Ona məxsusdur.

Bizə bunu asanlaşdıran və mərhəmət edən Allaha çoxlu, pak və bərəkətli həmdlər olsun! Onu layiqincə tərif deyə bilmərəm. "Ey Rəbbim! Mənə və valideynlərimə əta etdiyin nemətə şükür etmək, Sənin razı qalacağın saleh əməl etmək

üçün mənə kömək et! Öz mərhəmətinlə məni saleh bəndələrinin sırasına daxil et!”

Nəbimiz Məhəmmədə, onun ailəsinə və əshabına Allahın salat və salamı olsun.

Mündəricat

1 Allah

2 Ər-Rəbb

3 Ər-Rahmən, Ər-Rəhim

4 Əl-Həyy, Əl-Qəyyum

5 Əl-Xaliq, Əl-Xalləq

6 Əl-Xaliq, Əl-Bəri, Əl-Musəvvir

7 Əl-Məlik, Əl-Məliik

8 Ər-Razzəq, Ər-Raziq

9 Əl-Əhəd, Əl-Vahid

10 Əs-Saməd

11 Əl-Hədi

12 Əl-Vahhəb

13 Əl-Fəttah

14 Əs-Səmi

15 Əl-Bəsir

16 Əl-Əlim

17 Əl-Lətif, Əl-Xabir

18 Əl-Afuvv, Əl-Ğafur

19 Əl-Aliyy, Əl-Əa'lə, Əl-Mutəəli

20 Əl-Kəbir, Əl-Azim

21 Əl-Qaviyy, Əl-Mətin

22 Əş-Şəhid, Ər-Raqib

23 Əl-Muhəymin, Əl-Muhit

24 Əl-Muqit

25 Əl-Vasi'

26 Əl-Həfiz, Əl-Hafiz

27 Əl-Valiyy, Əl-Movlə

28 Əl-Əvvəl, Əl-Əxir, Əz-Zahir, Əl-Batin

29 Əl-Həkim

30 Əl-Ğaniyy

31 Əl-Kərim, Əl-Əkrəm

32 Əs-Sələm

33 Əl-Quddus, Əs-Subbuh

34 Əl-Həmid

35 Əl-Məcid

36 Əş-Şəkur, Əş-Şəəkir

37 Əl-Həlim

38 Əl-Həqq, Əl-Mubin

39 Əl-Qadiir, Əl-Qaadir, Əl-Muqtədir

40 Əl-Vədud

41 Əl-Bərr

42 Ər-Rauf

43 Əl-Həsib, Əl-Kəfi

44 Əl-Kəfil, Əl-Vəkil

45 Əl-Ğalib, Ən-Nəsir

46 Əl-Aziz

47 Əl-Cəbbər

48 Əl-Qərib

49 Əl-Mucib

50 Əl-Qahir, Əl-Qahhər

51 Əl-Varis

52 Əl-Mutəkəbbir

53 Əl-Mu’min

54 Əs-Sadiq

55 Ən-Nur

56 Əl-Muhsin

57 Əd-Dəyyən

58 Əl-Muqaddim, Əl-Muaxxir

59 Ət-Tayyib

60 Əş-Şəfi

61 Əl-Cəmil

62 Əl-Qabid, Əl-Basit

63 Əl-Mənənə

64 Əl-Həyiyy

65 Əs-Sittir

66 Əs-Seyyid

67 Ər-Rafiq

68 Əl-Vitr

69 Əl-Mu’ti, Əl-Cəvad

70 Zul-Cələli vəl-İkram

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki,
Allah Rəsulu ﷺ belə buyurmuşdur:

Həqiqətən, Allahın
doxsan doqquz adı vardır yüzdən bir əskik.
Kim onları sayarsa Cənnətə daxil olar.

Buxari (2736), Muslim (2677)

İbn əl-Qeyyim (Allah ona rəhmət etsin)
Allahın adlarını saymağın üç mərtəbəsini qeyd edərək belə buyurur:

Birinci mərtəbə:
Allahın adlarını əzbərləmək və sayını bilmək.

İkinci mərtəbə:
Bu adların mənalarını və onların dəlalət etdiyi məfhumları anlamaq.

Üçüncü mərtəbə:
Allahı bu adlarla çağırmaq və onlara uyğun olaraq ibadət etmək. Bu isə həm dua ibadətini, həm də istək və ehtiyac duasını əhatə edir.

Bədə'i ul - Fəvaid 1/163